RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 167 (10187) 15 sentyabr 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## İlham Əliyev ona təqdim olunan mükafatı tam olaraq Qarabağ Dirçəliş Fonduna köçürdü



**Sentyabrın 14-də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüş zamanı "Zayed İnsan Qardaşlığı Mükafatı"nın sertifikatını dövlətimizin başçısına təqdim edib.**

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyi səylərə görə 2026-cı il üzrə bu mükafata layiq görülüb.

Mükafatın şərtlərinə görə, Azərbaycan Prezidentinə 500 min ABŞ dolları məbləğində vəsait verilir.

Prezident İlham Əliyev bu məbləğin tam olaraq Qarabağ Dirçəliş Fonduna köçürülməsi ilə bağlı qərar qəbul edib.

*Prezidentin Mətbuat xidməti*

# Prezidentdən elmin və təhsilin inkişafına mühüm töhfə



## Prezident İlham Əliyev "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakıda Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında qurulan "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib.**

2

## "AZƏRBAYCAN" - 108



## QƏZET ÖMRÜ

Müstəqilliyimizin atributuna çevrilən "Azərbaycan"ın ikinci həyatı ikinci dəfə dövlət müstəqilliyinə nail olunduqdan sonra başlandı.

Sonuncu nömrəsi 1920-ci ilin 27 aprelində işıq üzü görmüşdü.

28 apreldə isə XI rus ordusu Azərbaycanı işğal etdi.

Beləliklə, dövlət müstəqilliyinə son qoyularaq "kommunist ideologiyası" adı altında pərdələnən yeni müstəmləkəçilik dövrü başlamışdı.

SSRİ-nin bayrağı altında zorla Rusiyaya birləşdirilən on dörd müttəfiq respublikada söz sahibi Moskva idi!

Dövlətin müstəqil qərarlar qəbul etməsindən, iqtisadi müstəqillikdən, habelə sərbəst xarici əlaqələr qurulmasından söhbət gedə bilməzdi.

Hər şey həbsxanalar, sürgünlər, güllələnmə cəzaları vasitəsilə tənzimlənirdi.

Müstəqilliyin tərənnümçüsü və salnaməsi olan "Azərbaycan" qəzetinin 443 nömrəsi sovet dövründə arxivlərin ən qaranlıq küncündə həbs edilərək kiminləsə - istər tarixçi, istər mətbuat araşdırmaçısı, istərsə də adi oxucularla görüşünə ciddi yasaq qoyuldu!

"Azərbaycan"ın nəşrinin dayandırıldığı həmin tarixdən bir gün sonra - aprelin 29-dan isə ölüm təhdidi ilə qəzet redaksiyasının binası və bütün əmlakı zorakılıqla özəlləşdirilərək bazasında yad ideologiyaya xidmət edən "Kommunist" adında qəzet buraxılışına başlandı.

Birinci müstəqillik dövrünün (1918-1920-ci illər) ensiklopediyasına çevrilən "Azərbaycan" qəzeti yeni müstəqillik dövründə də əvvəlcə "Həyat", sonra isə özünə qaytarılmış "Azərbaycan" adı ilə şərəfli missiyasının icrasına başladı.

Qurtuluş missiyasından başlayaraq, 44 günlük Zəfərə qədər və ondan sonrakı Böyük qayıdış da daxil müstəqil dövlətimizin bütün uğur və nailiyyətləri, dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi nəhəng transmilli layihələr, analoqsuz uğur və nailiyyətlər rəsmi sənədlər və jurnalist, müəllif yazıları ilə "Azərbaycan"ın səhifələrində əksini tapmış, quruculuq, uğur və şərəf salnaməsinə çevrilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün "Azərbaycan"ına ikinci ömrü isə ADA Universitetinin rektoru, görkəmli ziyalımız Hafiz Paşayev verdi!

Onun rəhbərliyi ilə tarixi bir qərar qəbul olunaraq ADA-nın vəsaiti hesabına qəzetin birinci dövrünün 443 nömrəsi tam toplanaraq (bir neçə nömrəni əldə etmək mümkün olmurdu) transliterasiya edildi, şərhlərlə birlikdə kitab şəklində yenidən çap olunaraq Azərbaycan oxucusuna qaytarıldı.

Beləliklə, bu xeyirxah addım sayəsində "Azərbaycan" "ölümündən sonra" ikinci dəfə dünyaya gəldi.

4

## İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Azərbaycan qlobal səviyyədə vacib rol oynayır

### Prezident İlham Əliyev Müsəlman Ağsaqqalları Şurasının baş katibini qəbul edib

Ölkəmizlə Müsəlman Ağsaqqalları Şurası arasında həyata keçirilən uğurlu əməkdaşlıq qeyd olundu. Eyni zamanda islam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Azərbaycanın qlobal səviyyədə oynadığı vacib rola toxunuldu, bu xüsusda Türk Dövlətləri Təşkilatının Müsəlman dini liderlərinin Bakıda keçirilən 7-ci görüşünün, həmçinin gələn il Azərbaycanda təşkil olunacaq İslam Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısının əhəmiyyəti vurğulandı. Ölkəmizdə dini münasibətlərin yüksək səviyyədə tənzimləndiyi qeyd edildi.



2

## Azərbaycan və BƏƏ arasında strateji tərəfdaşlıq əlaqələri uğurla inkişaf edir

### Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin milli təhlükəsizlik müşavirini qəbul edib

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlərdə genişlənməsindən məmnunluq ifadə olundu.

Münasibətlərimizin möhkəmlənməsində Azərbaycan və BƏƏ prezidentlərinin şəxsi dostluq əlaqələri, dövlət başçılarının qarşılıqlı səfərləri və görüşlərinin mühüm rol oynadığı vurğulandı.



2

## Çanaqqaladan Bakıya uzanan qardaşlıq yolu

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Gəncədən Bakıya köçdü və gənc respublikanın dövlətçilik tarixində yeni mərhələ başladı. Bu qələbənin arxasında Azərbaycan milli qüvvələri ilə Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun çiyin-çiyinə apardığı ağır və fədakar mübarizə dayanırdı. Bu həm də Azərbaycan-Türkiyə qardaşlığının tarixi yaddaşında xüsusi yer tutan hadisə idi. Bu qardaşlığın kökləri 1918-ci ildən də əvvələ gedib çıxır.

1915-ci ildə Osmanlı dövləti ölüm-dirim savaşının içində idi. Çanaqqala döyüşləri türk xalqının tarixində olduğu kimi, xalqımızın yaddaşında da xüsusi iz salan hadisədir. O zaman Azərbaycanın müxtəlif bölgələrindən olan könüllülər Çanaqqala cəbhəsinə gedərək qardaş xalqın müdafiəsində iştirak etmişdilər. Azərbaycan Müdafiə Nazirliyinin məlumatlarında Çanaqqala savaşında 3 minədək azərbaycanlı könüllünün şəhid olduğu qeyd edilmişdir. Beləliklə, Çanaqqala torpaqları Azərbaycan oğullarının qanını yaddaşına yazmışdı. Üç il sonra isə tarix başqa bir məkanda - Azərbaycanın paytaxtı uğrunda gedən döyüşlərdə yeni bir səhifə açmışdı.

Bu dəfə təhlükə yaranmaqda olan Azərbaycan dövlətçiliyini sınağa çəkirdi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə Bakı milli hökumətin yox, bolşevik-daşnak qüvvələrinin nəzarətində idi. Yeni yaranmış dövlət son dərəcə ağır hərbi-siyasi şəraitlə üz-üzə qalmışdı. Cümhuriyyətin elan edildiyi ərazilərin mühüm hissəsində milli dövlətçiliyi qorumağa qadir yetərli hərbi qüvvələr hələ tam formalaşmamışdı. Azərbaycan hökumətinin qarşısında duran başlıca vəzifələrdən biri məhz Bakının azad edilməsi idi.



*15 sentyabr 1918-ci il. Qafqaz İslam Ordusu Bakı küçələrində*

8

## Ölkəmizdə yeni tədris ili başlayır

### Bu gün respublikamızın orta və ali təhsil müəssisələri öz qapılarını yenidən şagird və tələbələrin üzünə açır

Azərbaycan Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanı ilə Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınmış, həmin gün Bilik Günü elan edilmişdir.

Bu gün ölkəmizin şəhər, rayon, qəsəbə və kəndlərində 124 min uşaq I sinfə qədəm qoyacaq. Qeyd edək ki, I sinfə qəbul elektron sistem vasitəsilə həyata keçirilib.

Ölkəmizin ali təhsil müssisələrinə isə bu il 58947 nəfər qəbul olunub. Onlardan 28108 nəfəri dövlət sifarişi əsasında, 317 dövlət hesablı, 30522 nəfəri ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

Cari ildə ölkəmizin şəhər və bölgələrində yeni tədris ili ilə əlaqədar neçə-neçə müasir məktəb binası istifadəyə verilib, bir sıra məktəblərdə isə əsaslı və cari təmir işləri aparılıb. Bu işlərin vaxtında və keyfiyyətli görülməsində Heydər Əliyev Fondunun diqqət və qayğısı əvəzsiz olmuşdur.

Erməni işğalından azad edilmiş ərazilərdə, Qarabağ və Şərqi Zəngəzurda yeni tikilən müasir "ağıllı məktəblər" və Qarabağ Universitetinin fəaliyyətinin genişləndirilməsi cari tədris ilinin ən böyük uğurlarındandır. Azadlığına qovuşan ərazilərimizdə açılan 15-ə yaxın müasir tipli yeni məktəblər bu gün ilk dəfə olaraq qapılarını fidan balaların üzünə açır. Şuşada, Ağdamda, Füzulidə, Laçında, Cəbrayılda, Suqovuşanda, Xocalıda, Ağdərədə, Kəlbəcərdə, Zəngilanda və digər ərazilərdə aparılan müasir tipli yeni məktəb və məktəbəqədər müəssisələrin tikintisi ictimaiyyətdə qürur və fərəh hissi doğurur.




10

# Prezidentdən elmin və təhsilin inkişafına mühüm töhfə

## Prezident İlham Əliyev "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib














*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına "SABAH.city" innovasiya şəhərciyi barədə məlumat verdi.

Bildirildi ki, layihə ümumilikdə 20 hektarda icra olunacaq. Birinci mərhələ 5 hektardan çox ərazini və ümumilikdə 20 min kvadratmetr tikili sahəni əhatə edir. Burada tikinti işlərinə ötən ilin oktyabrında başlanılıb və bir-biri ilə əlaqələndirilmiş 4 korpusdan ibarət kompleks inşa olunub. Şəhərcikdə 5 restoran, market və tədbirlər zalı, həmçinin açıq idman infrastrukturu - basketbol, futbol meydançaları və 2 padel kortu yaradılıb, açıq havada istirahət zonaları, piyada və velosiped zolaqları, parklanma sahələri təşkil edilib.

Şəhərcikdə Bakı Dövlət Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mühəndislik, informasiya texnologiyaları, tətbiqi elmlər istiqamətlərində təhsil alan 1500-dən çox tələbəsinin tədrisə və praktiki fəaliyyətə cəlb edilməsi nəzərdə tutulur. Şəhərciyin tam fəaliyyətə başlaması ilə isə gündəlik ziyarətçi sayının təxminən 3 min nəfər olacağı gözlənilir.

Burada ASAN Süni İntellekt Mərkəzi (ASAN AI Hub) də yaradılıb. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Prezident İlham Əliyevə ASAN Süni İntellekt Mərkəzi, "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin "ASAN xidmət"in "Süni İntellekt Assistent" layihəsi barədə məlumat verdi.







ASAN Süni İntellekt Mərkəzi Azərbaycanda süni intellekt sahəsində innovativ təşəbbüsləri dəstəkləmək, tədqiqatçıları, dövlət qurumlarını, özəl sektoru və fərdi istifadəçiləri vahid rəqəmsal platformada (www.asanhub.ai) bir araya gətirmək, açıq innovasiya modelini təşviq etməklə dövlət, biznes və təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə yaradılıb. Bu günədək ümumilikdə 50 süni intellekt həlli təqdim olunub. ASAN Süni İntellekt Mərkəzi ölkədə fəaliyyət göstərən 8 universitet, Azərbaycan Milli Elmlər Akademiyası, bir sıra nüfuzlu xarici universitetlər (Sinxua Universiteti (Çin), Oksford Universiteti (Birləşmiş Krallıq) və Boğaziçi Universiteti (Türkiyə), eyni zamanda digər beynəlxalq nüfuzlu tərəfdaşlarla əməkdaşlıq əlaqələri qurub.

"ASAN xidmət"in "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzindən bu günədək 150 startap yararlanıb, 4 startap xarici investorlar tərəfindən satın alınıb.

"Süni İntellekt Assistent" platforması "ASAN xidmət"in müxtəlif fəaliyyət istiqamətləri barədə məlumatı sürətli, sadə və adi söhbət formatında əldə etmək, təhlil və proqnozlaşdırmaq imkanı yaradır.

"SABAH.city" innovasiya şəhərciyində Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən yaradılan ümumilikdə 13 tədris və tədqiqat laboratoriyası var. Laboratoriyalarda süni intellekt, robototexnika, kompüter elmləri, kibertəhlükəsizlik, biotexnologiya, nanobiologiya, nanofizika, kimya, telekommunikasiya və digər prioritet elmi-texnoloji istiqamətlər üzrə tədqiqat və tətbiqi fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur.

Burada eyni zamanda 12 startapın yer aldığı "kovorkinq" (insanların və şirkətlərin işləməsi üçün nəzərdə tutulmuş ortaq iş məkanı) zonası, yerli və beynəlxalq texnologiya şirkətləri, korporativ tədqiqat və inkişaf mərkəzləri, həmçinin innovasiya ekosisteminin digər iştirakçıları üçün 22 ofis sahəsi var.

Layihənin birinci mərhələsinə 3 ali təhsil müəssisəsi ilə yanaşı, 8 texnologiya və innovasiyayönümlü şirkət, 12 startap olmaqla ümumilikdə 23 əsas ekosistem iştirakçısı cəlb edilib.

Qeyd edək ki, layihənin icrasında əsas məqsəd ölkəmizin innovasiya, elm, təhsil və yüksəktexnologiyalar ekosisteminin əsas iştirakçılarını vahid məkanda bir araya gətirməklə onların qarşılıqlı fəaliyyətini gücləndirən innovasiya mühitinin formalaşdırılmasıdır. "SABAH.city" bilik və texnologiyanın iqtisadi və sosial dəyərə çevrilməsini dəstəkləyən kompleks innovasiya platforması kimi mühüm rol oynamaqla uzunmüddətli perspektivdə insan kapitalının, tətbiqi elmin, texnologiya transferinin və Azərbaycanın innovasiya ekosisteminin rəqabət qabiliyyətinin daha da möhkəmlənməsinə töhfə verəcək.

# İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Azərbaycan qlobal səviyyədə vacib rol oynayır

## Prezident İlham Əliyev Müsəlman Ağsaqqalları Şurasının baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyev ilə Məhəmməd Əbdülsalamın əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Ölkəmizlə Müsəlman Ağsaqqalları Şurası arasında həyata keçirilən uğurlu əməkdaşlıq qeyd olundu. Eyni zamanda islam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Azərbaycanın qlobal səviyyədə oynadığı vacib rola toxunuldu, bu xüsusda Türk Dövlətləri Təşkilatının Müsəlman dini liderlərinin Bakıda keçirilən 7-ci görüşünün, həmçinin gələn il Azərbaycanda təşkil olunacaq İslam Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısının əhəmiyyəti vurğulandı. Ölkəmizdə dini münasibətlərin yüksək səviyyədə tənzimləndiyi qeyd edildi.

Söhbət zamanı Azərbaycan Prezidentinin bu ilin əvvəlində "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görüldüyü xatırlandı. Qonaq bu mükafatın sertifikatını dövlətimizin başçısına təqdim etdi.

# Azərbaycan və BƏƏ arasında strateji tərəfdaşlıq əlaqələri uğurla inkişaf edir

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin milli təhlükəsizlik müşavirini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi Əmirliyi hakiminin müavini, milli təhlükəsizlik müşaviri Şeyx Tahnun bin Zayed Al Nəhyanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaq ilk növbədə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlərdə genişlənməsindən məmnunluq ifadə olundu.

Münasibətlərimizin möhkəmlənməsində Azərbaycan və BƏƏ prezidentlərinin şəxsi dostluq əlaqələri, dövlət başçılarının qarşılıqlı səfərləri və görüşlərinin mühüm rol oynadığı vurğulandı.

Əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi baxımından Birləşmiş Ərəb Əmirliklərindən böyük nümayəndə heyətinin ölkəmizə səfərinin əhəmiyyətinə toxunuldu.

Sonra Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin milli təhlükəsizlik müşaviri Şeyx Tahnun bin Zayed Al Nəhyanın iştirakı ilə sənədlərin imzalanması mərasimi oldu.

Mərasimdə "Azərbaycanda bərpaolunan enerji layihələrinin işlənib hazırlanması məqsədilə "Abu Dhabi Future Energy Company" - "Masdar" və "AGEC" arasında əməkdaşlıq Sazişi", "Azərbaycan İnvestisiya Holdinqi ilə "L'IMAD HOLDING COMPANY PJSC" arasında strateji əməkdaşlıq Sazişi", "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ilə "Terra Mining Ltd" arasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində mineral-xammal potensialının və mədən sahələrinin birgə qiymətləndirilməsi və kəşfiyyatı haqqında Saziş", Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və "GROUP 42 Holding Ltd" arasında "Azərbaycan Respublikasında Data Mərkəzinin, Yüksək Performanslı Hesablama və Süni İntellekt İnfrastrukturunun inkişafı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi (Azərbaycan Respublikasının adından çıxış edən) və "XRG SGC LIMITED" arasında "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti ilə bağlı Səhmdarlar Müqaviləsi", həmçinin Energetika Nazirliyi, SOCAR və "Masdar" arasında "Neftçala 315 mvt Günəş fotovoltaik layihəsi üzrə maliyyə bağlanışının baş tutmasının təsdiqi" sənədi imzalandı.

# Baş nazir Əli Əsədov Asiya İnkişaf Bankının Direktorlar Şurasının nümayəndə heyəti ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 14-də Asiya İnkişaf Bankının (AİB) Direktorlar Şurasının nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, maliyyə naziri Sahil Babayevin də iştirak etdiyi görüşdə Azərbaycan ilə AİB arasında formalaşmış uzunmüddətli və qarşılıqlı faydalı tərəfdaşlığın yüksək səviyyəsi məmnunluqla qeyd olunub.

Nəqliyyat, enerji, su təchizatı, maliyyə, təhsil, səhiyyə və digər sahələrdə birgə həyata keçirilən layihələrin əhəmiyyəti vurğulanıb, dövlət-özəl tərəfdaşlığı mexanizmi çərçivəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib.

2025-2029-cu illər üçün Ölkə Tərəfdaşlıq Strategiyası Azərbaycan-AİB əməkdaşlığının yeni mərhələsi üçün mühüm çərçivə kimi dəyərləndirilib, enerji, nəqliyyat və su infrastrukturu üzrə nəzərdə tutulan yeni layihələrin ölkəmizin uzunmüddətli inkişaf prioritetlərinə uyğunluğu diqqətə çatdırılıb. Görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi perspektivləri müzakirə olunub.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 387 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması, ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 295** **Bakı şəhəri, 14 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 606 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 387 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1467 (Cild I); 2024, № 3, maddə 340, №7, maddə 930) ilə təsdiq edilmiş "İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması, ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddə "rezidentlərə" sözü "vergi orqanlarında uçotda olmayan şəxslərə" sözləri ilə əvəz edilsin.

2. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. Vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentlər alıcısı Azərbaycan Respublikasında olan iş və xidmətlərin təqdim edilməsindən dövriyyəsi təqvim ili ərzində 10 000 ABŞ dollarının manat ekvivalentini keçdikdən sonra 30 gün müddətində elektron qaydada vergi uçotuna (bundan sonra - vergi uçotu) alınmalıdır. Bu bənddə qeyd olunan dövriyyəsi 10 000 ABŞ dollarının manat ekvivalentindən aşağı olan qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması könüllü olaraq həyata keçirilir.".

3. Aşağıdakı məzmunda 1.4-1-ci bənd əlavə edilsin:

"1.4-1. "Məsləhət, hüquq, maliyyə, mühasibat, dizayn və mühəndis xidmətlərinin elektron poçt və digər interaktiv ünsiyyət vasitələri ilə göstərilməsi, internet vasitəsilə real vaxt rejimində göstərilən tədris və təlim xidmətləri, habelə elm, təhsil, mədəniyyət, idman və əyləncə tədbirləri üçün biletlərin onlayn sifariş edilməsi xidmətləri Vergi Məcəlləsinin 33.8-1-ci maddəsinin məqsədləri üçün elektron ticarət qaydasında təqdim edilən xidmətlərə aid edilmir.".

4. 1.5.1-ci, 1.5.2-ci, 1.5.3-cü, 1.5.4-cü yarımbəndlərdə "rezident" sözü "vergi orqanlarında uçotda olmayan" sözləri ilə əvəz edilsin.

5. 1.7-ci bənddə "Vergi Məcəlləsinin XI fəslinin məqsədləri üçün" sözləri "vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 296** **Bakı şəhəri, 14 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 392 (Cild I); 2024, № 1, maddə 105, № 5 (II kitab), maddə 606; 2025, № 9, maddə 868) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında baytarlıq preparatlarının aprobasiyası, ekspertizası, sınaqdan keçirilməsi, dövlət qeydiyyatına alınması və dövlət reyestrinin aparılması, istehsalı, idxalı, saxlanması, daşınması, satışı və istifadəsi Qaydaları"na 3 nömrəli əlavə - "Xaricdə istehsal edilmiş və əvvəllər respublikada tətbiq olunmuş bioloji preparatların respublikada qeydiyyata alınması üçün tələb olunan Sənədlər"in üçüncü abzasında "və" sözü "və ya" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin baş prokurorlarının 7-ci iclasında iştirak edib

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasında rəsmi səfərdə olub.**



Səfər çərçivəsində baş prokuror İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin baş prokurorlarının Türküstan şəhərində keçirilən 7-ci iclasında iştirak edib.

Tədbirdə çıxış edən Kamran Əliyev bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və dövlətin strateji prioritetlərindən biri kimi müəyyənləşdirilən rəqəmsal transformasiya kursu hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Diqqətə çatdırılıb ki, cari ilin fevral ayında yaradılmış və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrlik etdiyi Azərbaycan Rəqəmsal İnkişaf Şurasının əsas məqsədləri ölkənin texnoloji potensialının və rəqəmsal suverenliyinin gücləndirilməsindən, habelə innovasiyalara əsaslanan iqtisadi modelə keçidin təşviqindən ibarətdir.

Baş prokuror Azərbaycanın bu sahədə mühüm nailiyyətlərindən biri kimi 2021-ci ildə Prezidentin fərmanı ilə yaradılmış "Elektron Prokurorluq" İnformasiya Sistemini (EPİS) qeyd edib. Bildirilib ki, EPİS hazırda elektron sənəd dövriyyəsi, istintaq, dövlət ittihamı, beynəlxalq hüquqi əməkdaşlıq, cinayətlərin xəritələşdirilməsi və elektron sorğular üzrə modulları əhatə edir. Bu modulların bir neçəsində süni intellekt texnologiyalarından istifadə olunur. Sistem həmçinin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilib.

Səfər çərçivəsində baş prokuror xarici həmkarlarla bir sıra ikitərəfli görüşlər də keçirib.

İran İslam Respublikasının nümayəndə heyəti ilə görüşdə baş prokuror Məhəmməd Kazım Movahedi-Azad regionda baş verən son hadisələr fonunda Azərbaycan Respublikası tərəfindən göstərilən humanitar yardımlara görə ölkə başçısı cənab İlham Əliyevə xüsusi minnətdarlığını bildirib.

Daha sonra iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, peşəkar təcrübə və məlumat mübadiləsinin genişləndirilməsi, habelə qarşılıqlı hüquqi yardım mexanizmlərindən daha səmərəli istifadə imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, terrorçuluğa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə və digər transmilli cinayətkarlıq formalarına qarşı mübarizədə birgə fəaliyyətin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Pakistan İslam Respublikası baş prokurorunun müavini Umer Aslam Khanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən ikitərəfli görüşdə ölkələrimiz arasında mövcud yüksəksəviyyəli münasibətlər, hüquq-mühafizə orqanları arasında əməkdaşlığın inkişaf perspektivləri, habelə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsi məsələləri müzakirə olunub.

İkitərəfli görüşlər zamanı həmçinin cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə, korrupsiya cinayətləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin səfəri başa çatıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Qoşulmama Hərəkatının Gənclər Təşkilatının Baş Qərargahında çıxış edib

**Sentyabrın 14-də Milli Məclisin Sədri Sahibə Qafarova "Parlament Əməkdaşlığında gənclərin rolu" mövzusuna həsr olunmuş Qoşulmama Hərəkatının Gənclər Təşkilatının (QHGT) Baş Qərargahında fəxri qonaq qismində çıxış edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin spikeri əvvəlcə qərargahda yaradılan şəraitlə tanış olub.

Sonra gənclər qarşısında çıxış edən spiker Sahibə Qafarova Azərbaycanın Qoşulmama Hərəkatına dördillik sədrliyi dövründə verdiyi mühüm töhfələr haqqında məlumat verib. Bildirilib ki, Azərbaycanın sədrliyi qlobal miqyasda ciddi çağırışların olduğu, xüsusilə COVID-19 pandemiyasının yaşandığı dövrə təsadüf edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan pandemiya dövründə Qoşulmama Hərəkatının həmrəyliyinin və praktiki fəaliyyət imkanlarının nümayiş etdirilməsində mühüm rol oynayıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan pandemiyaya cavab olaraq Qoşulmama Hərəkatının COVID-19-a həsr olunmuş Onlayn Zirvə görüşünün, eləcə də BMT Baş Assambleyasının COVID-19 üzrə Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış edib. Eyni zamanda peyvəndlərə bərabər çıxışın təmin olunmasını təşviq edib və ehtiyacı olan ölkələrə yardım göstərib.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq rolunun və institusional inkişafının gücləndirilməsinə xüsusi diqqət yetirilib. Bu institusional inkişafın mühüm istiqamətlərindən biri Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin və Parlament Şəbəkəsinin yaradılması olub. 2019-cu ildə qəbul edilmiş qərardan sonra Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi Gənclər Təşkilatına çevrilib.

Parlamentin Sədri qeyd edib ki, Qoşulmama Hərəkatının Gənclər Təşkilatı (QHGT) və Parlament Şəbəkəsi (QHPŞ) fərqli, lakin bir-birini tamamlayan funksiyalar həyata keçirirlər. Onlardan biri gənclər üçün beynəlxalq platforma yaradır, digəri isə Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərini bir araya gətirir. Sahibə Qafarova vurğulayıb ki, bu iki institut Qoşulmama Hərəkatının institusional əsaslarını genişləndirib, onun fəaliyyətini parlamentlərə, gənclərə və cəmiyyətə daha da yaxınlaşdırıb. Qeyd edilib ki, bu strukturlar Azərbaycanın sədrliyi dövrünün ən mühüm və uzunmüddətli nəticələri sırasındadır.

Spiker Sahibə Qafarova çıxışında QHPŞ-nin yaradılmasından bəhs edərək bildirib ki, 2021-ci ildə Madrid şəhərində Parlamentlərarası İttifaqın 143-cü Assambleyası çərçivəsində təsis olunan Parlament Şəbəkəsi ötən dövrdə Azərbaycan Milli Məclisinin sədrliyi ilə öz strukturunu formalaşdırıb, beynəlxalq əməkdaşlığını genişləndirib və müxtəlif ölkələrdə beş konfrans keçirib. Parlament Şəbəkəsi Qoşulmama Hərəkatının fəaliyyətinə mühüm parlament ölçüsü gətirib və beynəlxalq səviyyədə qəbul olunan öhdəliklərin milli parlamentlərdə qanunvericilik, büdcə və parlament nəzarəti vasitəsilə dəstəklənməsinə imkan yaradır.

Milli Məclisin Sədri çıxışında gənclərin siyasi və ictimai proseslərdə iştirakı ilə bağlı danışıb, onların həyatın müxtəlif sahələrində daha aktiv təmsil olunmasının əhəmiyyətini diqqətə çatdırıb. Sahibə Qafarova gənclərin inkişafı üçün keyfiyyətli təhsil, peşə bacarıqları, layiqli məşğulluq, rəqəmsal imkanlara çıxış, onların süni intellekt, məlumatların qorunması və rəqəmsal iqtisadiyyatla bağlı müzakirələrə cəlb edilməsinin vacibliyi haqqında da fikirlərini bildirib.

Çıxışına yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova vurğulayıb ki, QHGT və QHPŞ Azərbaycanın sədrliyinin mühüm irsi olmaqla yanaşı, Qoşulmama Hərəkatının gələcəyinə xidmət edən aktiv təsisatlardır.

***"Azərbaycan"***

# Milli Məclisin komitə iclaslarında

Sentyabrın 14-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Musa Quliyev yeni sessiyada komitənin fəaliyyətinə uğurlar arzulayıb. O qeyd edib ki, iclasın gündəliyinə 4 məsələ daxil edilib.

Musa Quliyev əvvəlcə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində komitənin fəaliyyəti barədə məlumat verib. Bildirib ki, sözügedən dövrdə komitənin 21 iclası keçirilib, ümumilikdə 40 məsələyə baxılıb. Həmçinin komitədə "Azərbaycanda turizmin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda aidiyyəti qurumların iştirakı ilə ictimai dinləmə keçirilib. 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində komitəyə ümumilikdə 488 sənəd, o cümlədən vətəndaşlardan 284 ərizə, nazirliklərdən və idarələrdən 204 cavab məktubu daxil olub.

Daha sonra Musa Quliyev gündəliyin ikinci məsələsi - Əmək və sosial siyasət komitəsinin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi barədə məlumat verib. O bildirib ki, növbəti sessiyada əsasən büdcə məsələləri müzakirə ediləcək, qanunvericilik təşəbbüsü əsasında təqdim olunmuş qanun layihələrinə baxılacaqdır. Həmçinin komitənin səlahiyyət dairəsinə daxil olan mövzular üzrə müzakirələrin təşkili nəzərdə tutulur.

Gündəlikdə üçüncü məsələ olan Əmək Məcəlləsində və "Aviasiya haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı komitə sədri deyib ki, qanunvericiliyə əsasən, ölkəmizdə gündəlik ümumi iş saatı limitləri müəyyənləşdirilib. Lakin beynəlxalq uzunmüddətli uçuşlar zamanı mövcud iş vaxtı məhdudiyyətləri uçuşların səmərəli təşkilinə mane olur. Qanun layihəsində təklif olunan dəyişikliklər isə, uzunmüddətli uçuşların həyata keçirilməsi üçün hava gəmisi heyətinin iş və istirahət rejiminin aviasiyanın xüsusiyyətləri nəzərə alınmaqla beynəlxalq standartlara uyğun daha çevik tənzimlənməsini nəzərdə tutur.

Gündəliyin sonuncu məsələsi olan Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə də komitə sədri məlumat verib.

Bildirilib ki, qanun layihəsinin əsas məqsədi küləkli hava şəraitində açıq iş yerlərində işin dayandırılmasını, həmçinin müasir yükqaldırıcı qurğuların texniki imkanları və küləyə davamlılıq göstəriciləri nəzərə alınmaqla küləkli hava şəraitində təhlükəsiz və səmərəli istismarını tənzimləməkdir.

Müzakirələr zamanı deputatlar Göydəniz Qəhrəmanov, Nigar Məmmədova, Jalə Əliyeva, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev sənədlər barədə fikirlərini bildiriblər.

İclasda komitənin ötən sessiyada görülmüş işlər barədə hesabatı məqbul hesab olunub, payız sessiyası üçün iş planının layihəsi təsdiqlənib və gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

* * *

Sentyabrın 14-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib. Komitənin sədri Səməd Seyidov iclası açaraq nəzərə çatdırıb ki, gündəliyə 11 məsələ - komitədə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabat, komitənin 2026-cı ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı və bir sıra qanun layihələri daxil edilib.

Komitə sədri yaz və növbədənkənar sessiyalarda görülən işlər barədə məlumatında bildirib ki, bu müddət ərzində komitənin 15 iclası keçirilib, 25 məsələ müzakirə olunub. Bununla yanaşı, komitənin sədri və üzvləri hesabat dövründə bir sıra xarici səfərlərdə olaraq, beynəlxalq parlament təşkilatlarının işində fəal iştirak ediblər. Həmçinin komitədə ölkəmizdə səfərdə olan nümayəndə heyətləri ilə görüşlər keçirilib. Eyni zamanda diqqətə çatdırılıb ki, ötən iki sessiya ərzində komitəyə 2025 ərizə və məktub daxil olub. Daxil olan müraciətlərlə bağlı müvafiq tədbirlər görülüb. Komitə üzvləri tərəfindən seçicilərlə onlayn və fərdi qaydada görüşlər keçirilib.

Bildirilib ki, komitənin 2026-cı ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planında isə qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin, habelə ölkəmizin xarici siyasətinin təşviqi və beynəlxalq mövqelərinin gücləndirilməsi istiqamətində təkliflərin hazırlanması nəzərdə tutulub. Bununla yanaşı, xarici ölkələrin parlamentləri və beynəlxalq parlament təşkilatları ilə əlaqələrin inkişafına və parlament diplomatiyasının gücləndirilməsinə dəstək verilməsinə dair və bir sıra digər məsələlər iş planında əksini tapıb.

İclasda Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə görülmüş işlər barədə hesabat məqbul hesab olunub, komitənin 2026-cı ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı təsdiq edilib.

Sonra komitə sədri Səməd Seyidov gündəlikdəki digər məsələləri - hüquqi, iqtisadi, nəqliyyat, energetika və strateji əməkdaşlıq sahələrini əhatə edən bir sıra mühüm beynəlxalq sənədlərin təsdiq edilməsi barədə qanun layihələrini təqdim edib.

Gündəliyin 3-cü məsələsi - "Azərbaycan Respublikası Hökuməti ilə Monqolustan Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı bildirilib ki, sözügedən saziş iki ölkə arasında müntəzəm hava daşımalarının təşkili, aviasiya sahəsində əlaqələrin genişləndirilməsi məqsədilə imzalanıb.

4-cü məsələ - "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasına İkinci Əlavə Protokolun təsdiq edilməsi barədə qanun layihəsinə dair məlumatda təqdim olunan beynəlxalq sənədin insan hüquqlarının qorunması baxımından vacibliyi qeyd edilib, bu sahədə Azərbaycanın öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirdiyi vurğulanıb.

Sonra gündəlikdəki 5-ci məsələ - "Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi (Quba Xəzəryanı) üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Gran Tierra Energy (Azerbaijan) GmbH" şirkəti və "SOCAR Quba-Xəzəryanı" MMC arasında Saziş"in qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsi təqdim edilib. Sənədin Azərbaycanın neft-qaz potensialının kəşfiyyatı və işlənməsi, habelə yeni investisiyaların cəlb edilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi və ölkəmizin milli maraqlarına uyğun olduğu bildirilib.

İclasda "Azərbaycan Respublikası Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında "Hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında Saziş"ə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Ukraynanın Nazirlər Kabineti arasında Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsinə də baxılıb. Sənədin Ukrayna ilə əlaqələrin genişləndirilməsi baxımından vacibliyi qeyd edilib.

7-ci məsələ - "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında ümumvətəndaş pasport sahiblərinin viza tələbindən qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi diqqətə çatdırılıb. Bildirilib ki, sazişdə iki ölkə vətəndaşlarının qarşılıqlı səfərlərinin sadələşdirilməsi və viza rejiminin ləğv edilməsi nəzərdə tutulur.

Sonra gündəliyin 8-ci məsələsi - "Azərbaycan Respublikası Hökuməti ilə Slovakiya Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi təqdim olunub. Sazişin iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından önəmli olduğu qeyd edilib.

Gündəliyin 9-cu məsələsi olan "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı qeyd olunub ki, sənəd iki ölkə arasındakı ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsindən daha yüksək - müttəfiqlik səviyyəsində formalaşmasını təmin edir. Qeyd olunub ki, müqavilədə Azərbaycanla Qırğızıstan arasında bərabərlik, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan hərtərəfli əməkdaşlığın genişləndirilməsi ilə bağlı müddəalar ehtiva edilir.

Gündəlikdəki 10-cu məsələ - "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi də nəzərdən keçirilib. Sənəddə iki ölkə arasında nəqliyyat və logistika sahəsində əməkdaşlığın tənzimlənməsi ilə bağlı məsələlər öz əksini tapıb.

İclasda son olaraq "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında 2022-ci il 11 oktyabr tarixli Sazişə dəyişikliklərin edilməsi haqqında İkinci Əlavə Saziş"in təsdiq edilməsi barədə qanun layihəsinə baxılıb. Sənəddə investisiya əməkdaşlığının genişləndirilməsi və birgə investisiya layihələrinin maliyyələşdirilməsi ilə bağlı məsələlərin tənzimlənməsi nəzərdə tutulur.

Müzakirələr zamanı komitə üzvləri Pərvanə Vəliyeva, Qaya Məmmədov, Fariz İsmayılzadə, Asim Mollazadə, Nigar Məmmədova, Rizvan Nəbiyev, Elçin Mirzəbəyli, Elman Nəsirov, Gülşən Paşayeva çıxış edərək öz fikir və qeydlərini diqqətə çatdırıblar.

İclasda gündəlikdəki qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# "AZƏRBAYCAN" – 108

## QƏZET ÖMRÜ

**● PUBLİSİSTİK DÜŞÜNCƏLƏR**

Bütün yaranmışların əvvəli olduğu kimi, sonu da var!

Bu, həyatın pozulmaz qanunudur!

Kim nə qədər yaşayacaq? - Onu təkcə Tanrı bilir!

Kəpənəyin birgünlük ömrü olur, palıdın yüz il, dağların ömrü isə yüz əsrlərlə ölçülür...

"Ömür payı" cansızlara da aiddir!

Baxır hansı materialdan hazırlanmasına.

Daşdan, dəmirdən, taxtadan, parçadan, yoxsa kağızdan...

Qəzet də kağızdan hazırlanır!

**Belə ki, insanın fikir, istək, arzu və niyyətlərinin sözə çevrilərək ağ kağıza yazılması qəzet adlanır!**

*O da kitab kimi mətbəədə xüsusi forma şəklində çap edilərək yayılır (satılır).*

* Kitabdan fərqi odur ki, daha yığcam olur!
* Hər gün çap edilərək oxucularına çatdırılır!
* Günün hadisələrindən, baş verən yeniliklərdən bəhs edir!
* Qəzetçi faktları istədiyi kimi mənalandıra, şərh edə bilir.
* Qəzetdə doğru yalan, yalan gerçək kimi təqdim oluna bilir!
* Qəzetin qərəzli də olması mümkündür, dövlətçi və müxalif mövqedə də dura bilər.

Lap sosial mediada olduğu kimi...

**Bu onu buraxanların məqsəd və məramından asılıdır.**

**"Reket qəzetlər" dediklərimizə misaldır.**

*Qəzet müxalif mövqedə də dayana bilir!*

Onda buna "demokratiyanın təzahürü" söyləyirlər...

Kəsəsi, uzun məsələdir!

**Adətən, jurnalistlər "qəzetin birgünlük ömrü olur" deməyi sevirlər!**

Xoşbəxtlikdən bu "hökm" şərtidir!

*Birgünlük ömrü olan qəzetlər çox olub!*

**Amma əsl qəzetlər salnaməyə çevrilərək əbədiyaşarlıq qazanırlar!**

**Hətta "öləndən" sonra "dirilən", ikinci dəfə həyata qayıdaraq yeni ömrünü yaşayan qəzetlər də var!**

Bu barədə bir qədər sonra...

❖ ❖ ❖

**Böyük satirik şairimiz Mirzə Ələkbər Sabirin toxunmadığı mövzu, yazmadığı məsələ qalmayıb.**

Hər hədəfinə isə dövrün gözü ilə baxıb, zamanın prizmasından yanaşıb.

*Qəzetlər də heç zaman diqqətindən kənarda olmayıb.*

**Qəzetə düşmən münasibəti bəsləyən nadanları öldürücü satirasının hədəfinə çevirib:**

- Nə xəbər var, məşədi?
- Sağlığın!
- Az-çox da yenə?
- Qəzet almış Hacı Əhməd də…
- Pah! Oğlan, nəmənə? Sən özün gördün alanda?
- Belə nəql eylədilər!..
- Dəxi kim qaldı, xudaya, bu vilayətdə mənə?!

Bu isə pəs o ləinin də işi qullabıdır,
Dinü imanı danıb, yoldan azıbdır, babıdır!

* * *

- Yenə bir başqa xəbər varmı?
- Bizim qonşu Kərim…
- A… A… A?..
- Bəli, hə… hə!..
- O nə qayrıb, de görüm?
- "Molla Nəsrəddin" alıb, həm özü, həm oğlu oxur.
- El bütün kafir imiş ölkədə, yoxmuş xəbərim!

Bu isə pəs o ləinin də işi qullabıdır,
Dinü imanı danıb, yoldan azıbdır, babıdır!"

* * *

Bu, o dövr idi ki, valideynlər "Oxutmuram, əl çəkin!" deyərək övladlarını məktəbdən dartıb ayırırdılar!

Bu, o dövr idi ki, avam arvadlar şair və savadlı ərlərindən bezərək dəftər-kitab görəndə "bağırlarının çatlamalarından" Xanbacıya şikayətlənirdilər:

*"Çatlayır, Xanbacı, qəmdən ürəyim,*
*Qavışıb lap acığımdan kürəyim.*
*Nola bir evdə qoyaydız qarabaş,*
*Verməyəydiz məni bu əbləhə, kaş!*
*Mən ki, damdan, bacadan baxmaz idim,*
*Su kimi hər tərəfə axmaz idim.*
*Hərzə-hərzə danışıb gülməz idim,*
*Ər nə şey olduğunu bilməz idim;*
*Oturub ac komasında atamın,*
*Biş-düşün hazır edərdim anamın;*

* * *

*Atam əllaf, babam dülgər idi,*
*Qardaşım culfa, əmim kargər idi,*
*Xanbibim falçı, nənəm bağ toxuyan,*
*Bizdə, haşa, yox idi bir oxuyan!*
*Evimizdə var idi hər nə desən:*
*Qatıq, ayran ilə qaymaq, nə yesən!*
*Nə bilirdik nə zəhirmardı kitab?*
*Biz olan evdə haçan vardı kitab?*

* * *

*...Mən də sandım ki, dönüb bəxtəvərə, –*
*Gedirəm bir nəfər insana ərə.*
*Nə bilim boylə də insan varmış,*
*Şəkli-insanda da heyvan varmış.*
*Ər oxurmuş da, yazarmış da, atam!*
*Ər deyil, möhlik azarmış da, atam!*
*Ər deyil, şair imiş xanəxərab!*
*Fikri yazmaq, oxumaq, suglu kitab...*
*Saldız axırda yaman hala məni,*
*Ərə verdiz də bu qəffala məni.*

* * *

*Xeyrini, şərrini qanmır bu kişi!*
*Yorulub bircə usanmır bu kişi!*
*Bizim evdə baxasan hər tərəfə –*
*Taxçaya, boxçaya ya kim, irəfə –*
*Görəcəksən bütün işqabda kağız,*
*Kasada, nimçədə, boşqabda kağız;*
*Yığılıb dağ kimi hər yanda kitab,*
*Evdə, dəhlizdə və eyvanda kitab.*

* * *

*Oxuduqca gözünün qarəsini*
*Aparır, tap başının çarəsini.*



❖ ❖ ❖

**Əlbəttə, Həsən bəy Zərdabinin öz xalqı və milləti üçün etdiyi qəhrəmanlıqlardan, min bir əziyyət və çətinliklər bahasına "Əkinçi" qəzetinə həyat vəsiqəsi verə bilməsindən xəbərsizlər çox idi!**

*Maneə və çatışmazlıqlar, əngəllər isə kifayət qədər vardı!*

**Həsən bəy heç nəyin olmadığı bir zamanda, heç nədən insanları maarifləndirən, gözünü açan, elmə, biliyə, inkişafa səsləyən "möcüzəli" bir "kağız parçası" yaratdı!**

*Həmin kağızın üstündəki yazılarla onları mövhumatdan, savadsızlıqdan qorumağa çalışdı, digər millətlər kimi elmə, biliyə dəyər verməyə səslədi.*

**Amma bu qəzeti ərsəyə gətirmək üçün hansı müşküllərin öhdəsindən gəlməli oldu, ilahi!**

* Nə mətbəə vardı!
* Nə hürufat tapılırdı!
* Nə mətbəədə qəzet yığacaq mürəttib mövcud idi!
* Nə qəzetə məqalə yazan tapılırdı!
* Nə qəzeti oxuyan vardı!
* Nə hazır qəzetin yayılma mexanizmi formalaşmışdı...
* Ən pisi bütün bunları ərsəyə gətirməyə para da yox idi!
* Çap senzurası da bir yandan...

**Amma Həsən bəy nə durdu, nə dayandı!**

**Nə ruhdan düşdü, nə geri çəkildi!**

**Gecə-gündüz bilmədən, yorulmadan çalışdı, aradı, axtardı, məqsədinə çatana qədər dayanmadı!**

**Arada işin çətinliyindən də gileyləndi...**

❖ ❖ ❖

*Həsən bəy Zərdabi "Həyat" qəzetinin 28 dekabr 1905-ci il və 2,3 yanvar 1906-cı il tarixli nömrələrində dərc etdirdiyi "Rusiyada əvvəlinci türk qəzeti" məqaləsində "Əkinçi"ni yaratmaq yolunda qarşılaşdığı maddi və mənəvi çətinliklərdən, əngəl və maneələrdən bəhs edir.*

* Həsən bəy qeyri-adi insan və şəxsiyyət idi!
* Həsən bəy sanki vətən övladlarına xoş günlər bəxş etmək, onların gözünü açaraq maarifə, elmə, mədəniyyətə yönəltmək, həyatlarını yaxşılaşdırmaq üçün yaranmışdı!
* Həsən bəy həm də ruhdan düşən, niyyətindən geri çəkilən, əziyyətindən də qorxub qaçan deyildi!

BAXIN:

* Azərbaycanda ilk qəzeti o açdı!
* Azərbaycan teatrının əsasını o qoydu!
* İlk xeyriyyə cəmiyyətini o yaratdı!

**Uğursuzluğu uğurlarından çox oldu.**

**Amma heç zaman geri durmadı!**

**Sonadək döyüşdü, çarpışdı, istəyinə çatdı!**

**Çünki doğru yolda olduğunu bilirdi!**

**Çünki millətini sonsuz məhəbbətlə sevirdi.**

**Uğursuzluğa düçar olanda isə heç zaman ruhdan düşmədi:**

*"Bizim sabiq cəmiyyəti - xeyriyyə bina tutmadığından, teatr oynanan otaq boş qaldığından aşkar oldu ki, müsəlman qardaşlarımızı bir yerə cəm edib, zəmanəyə müvafiq məktəbxanalar açdırıb, küçə və bazarlarda qalan uşaqları oxutmaq olmayacaq. Elmsiz də bu zəmanədə dolanmaq mümkün deyil. Ələlxüsus, bizim yerlərdə ki, qonşularımız elm təhsil edib günü-gündən irəli gedir, bizim əlimizdə olan mülkü malımıza sahib olurlar və bir az vəqtdən sonra biz onlara rəncbərlik edib, onların malını daşımaqdan ötrü kirəkeşlik edəcəyik".*

**Bəs çıxış yolu nədir?**

**Nə etmək lazımdır?**

**Çıxış yolunu tapıb nəsə edəndə sənə kömək göstərən, arxanda duran olacaqdımı?**

Burada da laqeydliklə, biganəliklə, soyuqluqla qarşılaşır:

*"Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın!*

**Qanan olsa da, kömək əlini uzadan yox idi!**

ÇÜNKİ...

Səbəbini də özü açıqlayırdı:

*"Hər kəs öz qara sandığının üstə oturub onun içində olana səcdə edir və sandığı doldurmaq fikrindədir. Amma ətrafda müsəlman qardaşlarımız bir-bir düşmənimiz əjdahanın ağzına düşüb yox olduğunu görmək də istəməyir".*

**Amma Həsən bəy də inadından dönən insanlardan deyildi!**

**İnadkarlıqla bağlı maraqlı bir bənzətməsi də var:**

*"Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra o su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də, ələlxüsus doğru söz, mürur ilə qanmazın başını deşib onun beyninə əsər edər",*

**Bəli, Həsən bəy Zərdabi öz inadı ilə bütün qafaları deşdi, beyinlərə yol açdı, oraya maarifçilik toxumu əkdi!**

*Millətinə xidmətdə qəzet çıxarmaqdan savayı qeyri-əlac görmədiyindən bütün gücünü, imkanlarını, vəsaitini bu yolda sərf etdi!*

**Bəli, Həsən bəy Zərdabi ən çətinini, müşkülünü etdi:**

**Yox yerdən xalqımıza başucalığı gətirən "Əkinçi" adlı bir qəzet yaratdı!**

*Min bir zillət və əziyyətlə onu iki il yaşatdı, 56 nömrəsini buraxdı, böhtanlardan, təqiblərdən qorudu, mədəniyyət tariximizə dəyərli töhfə verməyi bacardı!*

**Ən çətin iş yox yerdən nəsə yaratmaqdır!**

**Olanı yox etmək isə çox asandır...**

**Bunu isə yaxşı bacarırıq!**

❖ ❖ ❖

"Əkinçi"nin ömrü qısa, ayağı isə yüngül oldu!

Açdığı cığır böyüyərək yola çevrildi.

"Əkinçi" təkcə həmin dövrün vətənpərvər ziyalılarını, parlaq qələm sahiblərini öz ətrafına yığmaqla kifayətlənmədi.

Üstəlik, özü də yeni yazarlar dəstəsi yetişdirərək püxtələşdirdi.

"Əkinçi" ocağındakı xalqa, millətə xidmət nümunəsindən dərs alan yeni ziyalılar nəsli sonralar özləri də qəzetlər yaratdılar, başqa mətbu orqanlarda çıxış edərək xalqın savadlanmasına, maariflənməsinə, yeni dövrün tələbləri əsasında inkişafına öz töhfələrini verdilər.

**"Əkinçi" maarifpərvər qəzet idi.**

Sonrakı dövrlərdə isə "Molla Nəsrəddin"in simasında satirik jurnalistikanın təməli qoyuldu, "İrşad", "Tərəqqi", "Kaspi", "Həyat" və digər müstəqil nəşrlər, partiya qəzetləri meydana gəldi, jurnalistikanın inkişafında yeni istiqamətlər yarandı.

**Təzə cığır açan qəzetlərdən biri də "Azərbaycan" oldu!**

**Ona qədər müstəqil dövlətimiz olmadığından "rəsmi dövlət qəzeti" anlayışı da yox idi!**

❖ ❖ ❖

* "Azərbaycan" ilk hökumət qəzeti oldu!
* "Azərbaycan" parlament həyatını geniş işıqlandıran ilk qəzet oldu!
* "Azərbaycan" dövlətin mövqeyində duran, onun maraqlarından çıxış edən ilk qəzet oldu!

**Amma yaranışında, həyata vəsiqə almasında "Əkinçi"nin üzləşdiyi bəzi çətinlikləri o da yaşadı...**

Azərbaycan müəyyən səbəblər üzündən ilk dövlət müstəqilliyini Tiflisdə elan etmişdi.

Həmin dövrdə Bakı erməni-bolşevik birləşmələrinin əlində olduğundan Azərbaycan Milli Şurası Gəncəyə köçdü.

Sonra Milli Şura buraxıldı, ali qanunverici və icraedici hakimiyyət Fətəli xan Xoyski kabinetinin əlində cəmləşdi.

**Bu səbəbdən də "Azərbaycan" qəzetinin ilk nömrəsi (bütövlükdə dörd nömrəsi) Gəncədə işıq üzü gördü, beşinci nömrədən etibarən isə Bakıda buraxılmağa başladı.**

**Mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun söylədiyinə kimi:**

*"1918-ci ilin mart qırğınları ərəfəsində Hacıbəylilər ailəsi İranın Ənzəli şəhərinə gedir. Elə ki türk ordusu İrandan keçib Azərbaycana daxil olur, bir çox cavanlar da onlara qoşulub Gəncəyə gəlir. Həmin gənclərin arasında Ceyhun Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli də olur. Onda Ceyhun Hacıbəylinin 27, Şəfi bəy Rüstəmbəylinin isə 25 yaşı vardı. Bu barədə Zülfüqar Hacıbəyli öz xatirələrində yazır ki, həmin vaxt Gəncədə qəzet nəşr etmək üçün jurnalist lazım idi. Nəsib bəy Yusifbəyli Ceyhun Hacıbəylinin və Şəfi bəy Rüstəmbəylinin yaxşı qələmlərinin olduğunu bilirdi. Çünki Ceyhun Hacıbəyli "Kaspi" qəzetində mütəmadi olaraq məqalələrlə çıxış edirdi. Buna görə Nəsib bəy Yusifbəyli onların hər ikisini dəvət edir və "Azərbaycan" adlı qəzeti çıxarmağı tapşırır".*

YENƏ DƏ:

* mətbəə yox idi;
* Azərbaycan hürufatı tapılmırdı;
* olan şriftlər rusca idi;
*Tiflisə şrift dalınca gedən adam boş qayıtmışdı.

Vəziyyətdən çıxmaq üçün mətbəə problemi həll olununca, Türkiyədən hürufat gətirilənə qədər "Azərbaycan" Gəncədəki quberniya mətbəəsində çap edilir.

12 səhifə həcmində buraxılan dörd nömrənin 9-u rus, 3-ü Azərbaycan dilində işıq üzü görür.

Bundan sonra qəzetin Bakı dövrü başlayır.

*Paytaxtda ən yaxşı mətbəə Orucov qardaşlarının mətbəəsi hesab olunurdu.*

*Dövlət danışıqlar apararaq büdcədən lazımi miqdarda vəsait ayırmaqla həmin mətbəəni "Azərbaycan" qəzeti üçün alır.*

Bu məqamda daha bir tarixi faktı qeyd etməsək, olmur.

İkinci dövlət müstəqilliyinin ilk illərində, xüsusən 20 Yanvar qırğınından sonra Rusiya ilə əlaqələrdə müəyyən soyuqluq yarandığından oradan poliqrafiya məhsulları gətirmək xeyli çətinləşmişdi.

"Azərbaycan" nəşriyyatındakı şriftlər köhnəlib aşındığından və avadanlıqlar, yardımçı materiallar xarab olduğundan buraxılan qəzet pozuntulu görünür, yaxşı oxunmurdu.

**Belə bir məqamda Ulu Öndər Heydər Əliyev köməyimizə çatdı.**

**Dövlətin müəyyən maliyyə çətinliklərinə baxmayaraq, 1996-cı ildə "Azərbaycan"a 64 min avro vəsait ayıraraq kompüter texnologiyasına keçməyimizə imkan yaratdı.**

*Həmin vaxt bir neçə müxalifət qəzeti artıq kompüter vasitəsilə yığılaraq səhifələnirdi.*

**Beləliklə, Ulu Öndər Heydər Əliyevin birbaşa qayğısı sayəsində bizim də "kompüter sexi"miz oldu!**

❖ ❖ ❖

**Müstəqilliyimizin atributuna çevrilən "Azərbaycan"ın ikinci həyatı ikinci dəfə dövlət müstəqilliyinə nail olunduqdan sonra başlandı.**

*Sonuncu nömrəsi 1920-ci ilin 27 aprelində işıq üzü görmüşdü.*

*28 apreldə isə XI rus ordusu Azərbaycanı işğal etdi.*

Beləliklə, dövlət müstəqilliyinə son qoyularaq "kommunist ideologiyası" adı altında pərdələnən yeni müstəmləkəçilik dövrü başlamışdı.

**SSRİ-nin bayrağı altında zorla Rusiyaya birləşdirilən on dörd müttəfiq respublikada söz sahibi Moskva idi!**

Dövlətin müstəqil qərarlar qəbul etməsindən, iqtisadi müstəqillikdən, habelə sərbəst xarici əlaqələr qurulmasından söhbət gedə bilməzdi.

*Hər şey həbsxanalar, sürgünlər, güllələnmə cəzaları vasitəsilə tənzimlənirdi.*

Müstəqilliyin tərənnümçüsü və salnaməsi olan "Azərbaycan" qəzetinin 443 nömrəsi sovet dövründə arxivlərin ən qaranlıq küncündə həbs edilərək kiminləsə - istər tarixçi, istər mətbuat araşdırmaçısı, istərsə də adi oxucularla görüşünə ciddi yasaq qoyuldu!

**"Azərbaycan"ın nəşrinin dayandırıldığı həmin tarixdən bir gün sonra - aprelin 29-dan isə ölüm təhdidi ilə qəzet redaksiyasının binası və bütün əmlakı zorakılıqla özəlləşdirilərək bazasında yad ideologiyaya xidmət edən "Kommunist" adında qəzet buraxılışına başlandı.**

*Birinci müstəqillik dövrünün (1918-1920-ci illər) ensiklopediyasına çevrilən "Azərbaycan" qəzeti yeni müstəqillik dövründə də əvvəlcə "Həyat", sonra isə özünə qaytarılmış "Azərbaycan" adı ilə şərəfli missiyasının icrasına başladı.*

**Qurtuluş missiyasından başlayaraq, 44 günlük Zəfərə qədər və ondan sonrakı "Böyük qayıdış" da daxil müstəqil dövlətimizin bütün uğur və nailiyyətləri, dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi nəhəng transmilli layihələr, analoqsuz uğur və nailiyyətlər rəsmi sənədlər və jurnalist, müəllif yazıları ilə "Azərbaycan"ın səhifələrində əksini tapmış, quruculuq, uğur və şərəf salnaməsinə çevrilmişdir.**

*Azərbaycan Xalq Cümhuriyyəti dövrünün "Azərbaycan"ına ikinci ömrü isə ADA Universitetinin rektoru, görkəmli ziyalımız Hafiz Paşayev verdi!*

Onun rəhbərliyi ilə tarixi bir qərar qəbul olunaraq ADA-nın vəsaiti hesabına qəzetin birinci dövrünün 443 nömrəsi tam toplanaraq (bir neçə nömrəni əldə etmək mümkün olmurdu) transliterasiya edildi, şərhlərlə birlikdə kitab şəklində yenidən çap olunaraq Azərbaycan oxucusuna qaytarıldı.

**Beləliklə, bu xeyirxah addım sayəsində "Azərbaycan" "ölümündən sonra" ikinci dəfə dünyaya gəldi.**

❖ ❖ ❖

*Həsən bəyin dövründə Bakıda neft bumu başlamışdı.*

O həmin dövrdə yüksək məvacibli vəzifələrdə çalışırdı.

**İstəsəydi məvacibindən pul toplayar, bir neçə desyatin torpaq alar, neftxudaya çevrilərdi...**

**Milyonçu olmasa da, firavan həyat sürərdi...**

*Amma o, firavan həyat üçün yox, mübarizə üçün, xalqına xidmət üçün doğulmuşdu!*

**Dövrünün maarifçi - publisisti Fərhad Ağazadədən (Şərqli) bir sitat:**

*"Cənazəsi təşyi edilərkən bir natiq demişdi ki, "Həsən bəy Bakıya ac gəldi, ac da getdi".*

*Doğrudan da, Həsən bəy özündən sonra sadə bəzənmiş mənzildən başqa heç bir şey buraxmamışdı. Ucarda başlanmış evi də yarımçıq qalmışdı".*

Daha bir nisgil!

Həsən bəyə gor evi də axıracan qismət olmamışdı...

Fəxri xiyabandakı indiki mənzilə çatanadək iki dəfə qəbri dəyişmiş, özgə məzarında yatmalı olmuşdu...

Amma əsl yeri tariximizin şərəfli səhifəsidir və onu sevənlərin qəlbində ucalan işıqlı abidəsidir.

Allah rəhmət eləsin!

❖ ❖ ❖

Sonda M.Ə.Sabirin daha bir maraqlı şeir parçası:

*Düşdü bütün qəzetlər qiymətdən, ay can, ay can!..*
*Xalqın canı qurtardı töhmətdən, ay can, ay can!..*

* * *

*Qıl yaymayırdı əsla zalımların gözündən,*
*Rüsvay idik cahanda məlunların sözündən,*
*Ax, ax! Nə yaxşı oldu, iş düşdü öz-özündən,*
*Əlləşməmiş qutardıq zəhmətdən, ay can, ay can!..*
*Düşdü bütün qəzetlər qiymətdən, ay can, ay can!..*

*Badi-səba, apar ver, Molla Qəvama müjdə,*
*Yazsın, de, Lənkəranda Molla Səlama müjdə,*
*Söylə, o da yetirsin cümlə əvama müjdə;*
*Düşdü bütün qəzetlər qiymətdən, ay can, ay can!..*
*Munbərdə rəqsə gəlsin behcətdən, ay can, ay can!..*

*Ərz et başarət ilə Qafqaydakı vücudə:*
*Jurnal, qəzet qapandı, durma, yıxıl sücudə,*
*Hər nə bilirsən eylə qeybətdə, rübərüdə,*
*Yazmaz dəxi yazanlar bidətdən, ay can, ay can!..*
*Düşdü bütün qəzetlər qiymətdən, ay can, ay can!..*

*Get Qübbəyə səlam et Molla Hacı Babayə,*
*Söylə tutuldu cumlə jurnal, qəzet vəbayə,*
*Mömün müridlər ilə dur qoş sədə-sədayə,*
*Ümmətlərin yığılsın hər kətdən, ay can, ay can!..*
*Düşdü bütün qəzetlər qiymətdən, ay can, ay can!..*

* Dünya internetsiz ötüşə bilmir!
* Dünya uşaqların və yeniyetmələrin sosial şəbəkələrdən qorunması üçün qadağaları ciddiləşdirir və sərtləşdirir.
* Dünya qəzetləri sosial mediaya güzəştə gedir...

Bu, "azalan statistika"da da özünü göstərir!

Bir neçə dövlətin simasında bu "azalma"lara diqqət yetirək:

**Çin Xalq Respublikasında təxminən 1700-dən artıq qəzet nəşr olunur. Onların bir hissəsi gündəlik qəzetlərdir.**

Ölkənin aparıcı rəsmi və siyasi-ictimai qəzetləri gündəlik olmaqla, çoxsaylı tirajla dərc olunurlar.

**"Jenmin Jibao".** ÇXR KP MK-nın rəsmi orqanı. Çin dövlətinin rəsmi qəzeti. Gündəlik 3 milyon tirajla dərc olunur.

**"Quanmin Jibao".** ÇXR KP MK-nın Təşviqat şöbəsi tərəfindən nəşr olunur. Gündəlik 490 min tirajla dərc edilir.

**"Quançjou Jibao".** ÇXR KP Quançjou yerli komitəsinin nəşri. Gündəlik 1,85 milyon tirajla dərc olunur.

❖ ❖ ❖

**Qazaxıstanda 1300-dən artıq qəzet qeydiyyatdan keçib.**

**"Egemen Qazaqstan".** Dövlət qəzeti. Gündəlik 80 min tirajla nəşr olunur.

**"Kazaxstanskaya pravda".** Rusdilli dövlət qəzeti. Gündəlik 100 min tirajla nəşr olunur.

**"Aiqin".** Siyasi-ictimai respublika qəzeti. Gündəlik 40 min tirajla nəşr olunur.

❖ ❖ ❖

**"SB. Belarus seqodnya".** Dövlət qəzeti. Təsisçi Belarus Prezidenti Administrasiyası. Gündəlik 190 min tirajla nəşr olunur.

**"Zvyazda".** Rəsmi dövlət qəzeti. Gündəlik 11796 tirajla nəşr olunur.

**"Respublika".** Rəsmi hökumət qəzeti. Gündəlik 25000 tirajla nəşr olunur.

❖ ❖ ❖

**Türkiyədə 2025-ci ilin statistikasına görə, nəşr edilən qəzetlərin sayı 659 olub.**

2025-ci ildə onların ümumi tirajı 392 milyon 797 min 801 ədəd olub.

**"Sabah"** qəzeti - gündəlik 187 min tiraj.

**"Hürriyet"** qəzeti - gündəlik 186 min tiraj.

**"Sözçü"** qəzeti - gündəlik 175 min tiraj.

**"Milliyet"** qəzeti - gündəlik 118 min tiraj.

❖ ❖ ❖

**Almaniyada mərkəzi və regional olmaqla 300-dən artıq qəzet dərc olunur. Ölkənin siyasi həyatında və ictimai rəyin formalaşmasında bu qəzetlər böyük rol oynayırlar.**

**"Bild"** - gündəlik 980 min tiraj.

**"Die Zeit" -** gündəlik 639 min tiraj.

**"Süddeutsche Zeitung"** - gündəlik 311 min tiraj.

**"Frankfurter Allgemeine Zeitung (FAZ)"** - gündəlik 300-380 min tiraj.

❖ ❖ ❖

Dünyada həmişə qəribə işlər olur!

108-ci yaşın mübarək, "Azərbaycan"!

**Bəxtiyar SADIQOV**

# "AZƏRBAYCAN" - 108

**"Azərbaycan" qəzetinin adı xalqımızın dövlətçilik tarixinin ən mühüm mərhələlərindən biri ilə eyni vaxtda meydana çıxıb. 1918-ci il sentyabrın 15-də Gəncədə qəzetin ilk sayının işıq üzü görməsi ilə milli mətbuat tariximizdə yeni səhifə açılıb. Həmin gün Bakının azad edilməsi ilə Azərbaycan Xalq Cümhuriyyətinin siyasi hakimiyyətinin paytaxtda möhkəmlənməsi arasında yaranan tarixi vəhdət qəzetin ilk addımlarına xüsusi məna verib.**

## Azərbaycanın dövlətçilik tarixini yazan qəzet

Qəzetin ilk saylarında həmin dövrün siyasi hadisələri, dövlət quruculuğu, ordu məsələləri, parlament fəaliyyəti və Azərbaycanın qarşısında dayanan taleyüklü məsələlər öz əksini tapıb. Nəşrdə Qafqaz İslam Ordusunun Bakının azad edilməsindəki xidmətlərinə və Nuru paşanın roluna verilən yüksək qiymət həmin dövrün ictimai ovqatını və milli düşüncəsini əks etdirən mühüm nümunələrdəndir.

"Azərbaycan" qəzetinin ilk yaradıcı simaları sırasında Məhəmməd Əmin Rəsulzadə, Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli, Rəhim bəy Vəkilov, Şəfi bəy Rüstəmbəyli və Xəlil İbrahim, Piri Mürsəlzadə, Hənəfi Zeynallı, Rübabə Tağızadə, Şəfiqə Əfəndizadə, Səhra Paşazadə, Mustafa bəy Vəkilov, Əbdül Əbdülzadə, Mirzə Hadi (Atlasov), Hacı İbrahim Qasımov, Məmmədəli Sidqi Səfərov, Seyid Hüseyn Sadiq, Qədir Heydərov, Əli Yusifzadə, Məhəmməd Hadi Əbdüssəlimzadə kimi Azərbaycan fikir tarixində xüsusi yeri olan ziyalıların adları dayanır. Xüsusilə Üzeyir bəy Hacıbəylinin qəzetdəki fəaliyyəti milli mətbuatımızın inkişafında mühüm mərhələ təşkil edir. Onun publisistik yazılarında istiqlal, milli şüur, dil, mədəniyyət və dövlətçilik məsələləri geniş yer tutub.

"Azərbaycan" qəzetinin tarixi yalnız bir mətbuat orqanının yaranma və inkişaf tarixindən ibarət deyil. Onun səhifələri Azərbaycan xalqının siyasi düşüncəsinin, milli özünüdərk prosesinin və dövlətçilik iradəsinin formalaşdığı mürəkkəb bir dövrün yazılı yaddaşını yaradıb.

Qəzetin milli oyanış prosesindəki rolunu da məhz bu kontekstdə qiymətləndirmək lazımdır. 1918-ci ildə milli dövlətçilik ideyası siyasi reallığa çevrilərkən bu ideyanın cəmiyyətə çatdırılması, xalqın yeni dövlətin məqsədləri ətrafında səfərbər olunması və milli həmrəylik ruhunun gücləndirilməsi mətbuatın qarşısında mühüm vəzifələr qoyurdu. "Azərbaycan" qəzeti həmin tarixi prosesin içində öz sözünü söyləyən əsas tribunalardan biri idi.

Bu ənənə sonrakı tarixi mərhələlərdə də qəzetin fəaliyyətində öz izini qoruyub. Dövlətçilik, milli maraq, vətənpərvərlik və milli-mənəvi dəyərlər "Azərbaycan" qəzetinin ictimai mövqeyinin əsas dayaqlarını təşkil edib. Qəzetin uzunömürlülüyünü şərtləndirən başlıca amillərdən biri də öz məfkurə xəttinə və milli mövqeyinə bağlılığıdır.

Azərbaycanın müasir dövlətçilik tarixində bu mövqenin yeni məzmun qazandığı mərhələ Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə bağlıdır. Ulu Öndərin dövlətçilik fəlsəfəsində milli mətbuat cəmiyyətin siyasi və mənəvi həyatına təsir göstərən mühüm institut kimi xüsusi yer tuturdu. Heydər Əliyev milli dövlətçiliyin möhkəmləndirilməsində ictimai fikrin rolunu yüksək qiymətləndirir, mətbuatın məsuliyyətli və prinsipial fəaliyyətini dövlət quruculuğunun mühüm şərtlərindən biri hesab edirdi.

1998-ci il avqustun 6-da senzuranın ləğv edilməsi Azərbaycan mətbuatının inkişafında mühüm dönüş yaratdı. Bu qərar jurnalist fəaliyyətinin hüquqi və ictimai imkanlarını genişləndirdi, mətbuatın cəmiyyət qarşısında məsuliyyətini daha da artırdı.

Heydər Əliyevin "Azərbaycan" qəzetinə verdiyi qiymət də bu tarixi kontekstdə xüsusi əhəmiyyət daşıyır. Ümummilli Lider 15 sentyabr 1998-ci ildə qəzetin 80 illiyi münasibətilə redaksiya kollektivinə ünvanladığı təbrik məktubunda nəşrin fəaliyyətini yüksək qiymətləndirərək onun "yüksək amallara dönməz sədaqəti"ni xüsusi vurğulayıb. Bu qiymət qəzetin keçdiyi yolun dövlətçilik baxımından dəyərləndirilməsi ilə yanaşı, onun qarşısında dayanan gələcək məsuliyyətə verilən siyasi əhəmiyyəti də ifadə edirdi.



Sözügedən məktubda Ümummilli Lider Heydər Əliyev bildirir: "Azərbaycanın dövlət müstəqilliyi tarixində xüsusi rol oynamış "Azərbaycan" qəzetinin 80 illiyi tamam olur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış "Azərbaycan" qəzeti yarandığı gündən milli azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra fəaliyyətini dayandıran "Azərbaycan" qəzeti xalqımızın 1991-ci ildə yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş, azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak etmişdir.

Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.

Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və azad, demokratik cəmiyyət qurulması işində ölkəmizin digər mətbuat orqanları kimi, "Azərbaycan" qəzetinin də üzərinə böyük vəzifələr düşür. İnanıram ki, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz yüksək amallarına dönməz sədaqət göstərmiş "Azərbaycan" qəzetinin kollektivi bundan sonra da respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaşlıq mövqeyi nümayiş etdirərək, xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirə biləcəkdir.

Ölkəmizin adını daşıyan və demokratik, milli dövlətçiliyimizin yaşıdı olan "Azərbaycan" qəzetinin 80 illiyi münasibətilə sizi ürəkdən təbrik edir, kollektivinizə daha böyük yaradıcılıq uğurları arzulayıram".

Bu məqamda xüsusi olaraq qeyd etməyi vacib sayıram ki, məhz Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu illərdə mətbuatımız yeni inkişaf mərhələsini yaşayıb. Ulu Öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirib, mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Məhz Heydər Əliyevin şəxsi səyi nəticəsində ana dilimizə olan ögey münasibət aradan qaldırılıb, milli dil siyasəti yürüdülüb və bu siyasət medianın inkişafında müstəsna rol oynayıb. Azərbaycan dilində qəzetlərin sayı artırılıb, televiziyada verilişlərin Azərbaycan dilində yayımı genişləndirilib.

Məhz Ulu Öndərin dövründə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində ixtisaslı kadrların hazırlanması istiqamətində mühüm addımlar atıldı. Azərbaycanda nəşr olunan çap mətbuatı, demək olar ki, ittifaq miqyasında peşəkarlıq səviyyəsinə və digər parametrlərinə görə seçilirdi. Artıq Azərbaycan mətbuatı uzun onilliklərlə qadağan olunan milli adət-ənənələrimizdən, tariximizdən, mədəniyyətimizdən, dilimizdən yazmağa başladı. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə o zaman Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinin əlaçı tələbələri Moskva Dövlət Universitetinə oxumağa göndərildilər. Bu isə Azərbaycan Jurnalistika məktəbinin formalaşmasında, inkişafında müstəsna rol oynadı.

Heydər Əliyevin "Azərbaycan" qəzetinə münasibəti də bu kontekstdə daha gözəl qavranıla bilər. Məhz Heydər Əliyevin dövründə "Azərbaycan" qəzetinin dövlətçilik mövqeyini qoruması və milli maraqlara əsaslanan publisistik xəttini davam etdirməsi onun ictimai nüfuzunun əsas amillərindən birinə çevrildi.

Heydər Əliyevin bu münasibəti "Azərbaycan" qəzetinin fəaliyyətində mühüm mənəvi dayaq yaratdı. Qəzetin dövlətçilik xəttinə bağlılığı, milli maraqları üstün tutması və cəmiyyətin siyasi düşüncəsinə təsir göstərən mövqeyi sonrakı illərdə də öz aktuallığını qorudu.

Bu gün həmin siyasi-mənəvi xətt Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qarşısında açılan yeni inkişaf mərhələsində öz davamını tapır. Dövlət siyasətinin əsas istiqamətlərinin cəmiyyətə çatdırılması, Azərbaycanın milli maraqlarının müdafiəsi və ölkəmizin qazandığı tarixi nəticələrin ictimaiyyətə təqdim olunması "Azərbaycan" qəzetinin müasir fəaliyyətində mühüm yer tutur. Bu xəttin ən parlaq təzahürlərindən biri Azərbaycanın Vətən müharibəsi və sonrakı tarixi proseslər zamanı apardığı informasiya mübarizəsində özünü göstərməsi oldu. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun döyüş meydanında qazandığı qələbə ilə Prezident İlham Əliyevin beynəlxalq informasiya məkanında apardığı mübarizə bir-birini tamamladı. BBC, CNN, "Al Jazeera", "Euronews", "France 24", "Sky News", ARD və digər nüfuzlu media qurumlarına verdiyi müsahibələrdə dövlət başçısı Azərbaycanın mövqeyini qlobal auditoriyaya çatdırdı, Ermənistanın iddialarına tarixi faktlar və beynəlxalq hüququn müddəaları əsasında cavab verdi. Döyüş meydanındakı qələbənin diplomatik və informasiya müstəvisində möhkəmləndirilməsi Azərbaycanın müasir tarixində mühüm mərhələ yaratdı.

2023-cü ilin sentyabrında 23 saat ərzində həyata keçirilən antiterror tədbirləri Azərbaycanın Qarabağ üzərində suverenliyinin tam bərpasını təmin etdi. Ardınca qarşıda yeni tarixi vəzifələr yarandı. İşğaldan azad edilmiş ərazilərin bərpası, şəhər və kəndlərin yenidən qurulması, yolların, enerji və sosial infrastrukturun yaradılması, insanların doğma yurdlarına qayıdışı Böyük qayıdışın real mənzərəsini formalaşdırdı.

"Azərbaycan" qəzeti üçün bu mərhələ həm də Azərbaycanın quruculuq salnaməsinin yazılması deməkdir. Qarabağda salınan yeni yaşayış məntəqələri, açılan məktəblər, xəstəxanalar, çəkilən yollar və doğma torpaqlarına qayıdan ailələr dövlət siyasətinin nəticələrini canlı şəkildə göstərir. Bu proseslərin işıqlandırılması həm bu günün ictimaiyyətinə, həm də gələcəyin tədqiqatçılarına mühüm yazılı mənbə qazandırır. Ölkənin digər bölgələrində həyata keçirilən sosial-iqtisadi layihələr də Azərbaycanın vahid inkişaf strategiyasının mənzərəsini tamamlayır.

Böyük qayıdışın Qarabağda gerçəkləşən hər bir mərhələsi gələcəyə yönəlmiş yeni ümidlər doğurur. Bu ümidlərin sırasında Qərbi Azərbaycana qayıdış arzusu da xüsusi yer tutur. Arzu edirik ki, "Azərbaycan" qəzeti gələcəkdə doğma yurdumuz olan Qərbi Azərbaycana qayıdışımızın müjdəsini xalqımıza çatdıran ilk mətbuat orqanı kimi də tarixə yazılsın.

Bu proseslər Heydər Əliyevin siyasi irsi ilə Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasəti arasındakı ardıcıl varislik xəttini də aydın göstərir. Heydər Əliyevin formalaşdırdığı müasir Azərbaycan dövlətçiliyi Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi mərhələdə inkişaf etdirilir. "Azərbaycan" qəzeti bu siyasi xəttin mahiyyətinin ictimai fikirdə möhkəmlənməsinə və dövlətçilik düşüncəsinin nəsillərə ötürülməsinə öz töhfəsini verir.

Süni intellekt və rəqəmsal informasiya əsrində qəzetin bu missiyası yeni məzmun qazanır. İnformasiyanın sürətlə yayıldığı bir dövrdə faktın yoxlanılması, redaksiya məsuliyyəti və etibarlı mənbəyə söykənən jurnalistika xüsusi dəyər kəsb edir. Qəzet səhifəsində qorunan materiallar zaman keçdikcə ölkənin siyasi, ictimai və mədəni həyatını öyrənən tədqiqatçılar üçün yazılı mənbəyə çevrilir. "Azərbaycan" qəzetinin 108 illik arxivi bu baxımdan milli yaddaşımızın qiymətli hissəsidir.

Milli-mənəvi dəyərlərin, ana dilimizin, ədəbiyyatımızın, tariximizin və mədəni irsimizin təbliği də qəzetin ənənəvi missiyasının mühüm istiqamətini təşkil edir. Bu ənənənin müasir informasiya imkanları ilə davam etdirilməsi "Azərbaycan" qəzetinin qarşısında yeni yaradıcılıq imkanları açır.

Söz yox ki, "Azərbaycan" qəzeti bundan sonra da Heydər Əliyev siyasi irsinin sadiq tərənnümçüsü, Prezident İlham Əliyevin siyasi kursunun fəal təbliğatçısı kimi öz mövqeyini daha da möhkəmləndirəcək.

108 illik şərəfli yolunuz mübarək!

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# "Azərbaycan" zəmanəmizin ideya-siyasi tribunasıdır

## Tarixi missiyadan müasir dövlətçilik düşüncəsinə uzanan böyük mətbuat yolu

**Bəzən bir qəzet sadəcə qəzet olmur, bir xalqın yaddaşına çevrilir, dövlətin keçdiyi yolu işıqlandırır, zamanın səsini gələcəyə çatdırır və tarixin canlı şahidinə çevrilir. "Azərbaycan" qəzeti də məhz belə bir mətbuat salnaməsidir. Onun adı Azərbaycanın adı ilə qoşa çəkilir. Bu qəzetin səhifələrində xalqımızın istiqlal arzusu, dövlətçilik mübarizəsi, ağır sınaqları, milli iradəsi və böyük qələbələri yaşayır.**

"Azərbaycan" qəzetinin tarixi missiyasını anlamaq üçün onun meydana çıxdığı dövrün siyasi mahiyyətinə nəzər salmaq lazımdır. 1918-ci il Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrinin yeni tarixi şəraitdə müstəqil respublika formasında təcəssüm etdiyi il idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması yalnız yeni dövlət qurumlarının formalaşması demək deyildi, bu, milli iradənin siyasi təşkilatlanması, xalqın öz taleyinin sahibi olmaq iddiasının dövlət səviyyəsinə yüksəlməsi idi. Belə bir şəraitdə mətbuat da sadəcə informasiya vasitəsi deyil, dövlət quruculuğunun mühüm ideoloji və ictimai institutlarından birinə çevrilirdi. Məhz bu tarixi zərurətdən "Azərbaycan" qəzeti meydana gəldi.

"Azərbaycan" qəzetinin ilk nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncədə işıq üzü gördü. Bu, Azərbaycan tarixinin mühüm hadisələrindən biri ilə - Bakının azad edilməsi ilə eyni günə təsadüf edirdi. Qəzetin ilk nömrələrində həmin tarixi hadisənin əks-sədasının duyulması təsadüfi deyildi. "Azərbaycan"ın doğuluşu dövlətin siyasi həyatında yeni mərhələnin başlandığı bir vaxtda milli mətbuatın qarşısında dayanan vəzifələri də müəyyənləşdirirdi. Qəzetin ilk dörd nömrəsi Gəncədə, beşinci nömrəsi isə 1918-ci il oktyabrın 3-də Bakıda nəşr olundu. İlk saylar Azərbaycan və rus dillərində dörd səhifə həcmində buraxılırdı. Bu, o dövrün mürəkkəb ictimai-siyasi mühiti, müxtəlif sosial təbəqələrə və dil qruplarına çıxış zərurəti baxımından mühüm xüsusiyyət idi.

"Azərbaycan" qəzetinin ilk redaksiyası yalnız peşəkar jurnalistlərdən ibarət kollektiv deyildi. O, milli ziyalı düşüncəsinin, dövlətçilik təfəkkürünün və istiqlal məfkurəsinin mətbu ifadə məkanı idi. Qəzetin səhifələrində müxtəlif qələm sahiblərinin yazıları dərc olunur, dövrün siyasi və ictimai məsələləri müzakirəyə çıxarılırdı. Bu yazıların ümumi məzmununu birləşdirən əsas xətt isə azərbaycançılıq, milli dövlətçilik və istiqlal ideyası idi.

Qəzetin səhifələrində hökumətin qərarları, qanunvericilik fəaliyyəti, parlamentin iclasları, xarici siyasət, ordu quruculuğu, iqtisadiyyat, mədəniyyət və maarif məsələləri öz əksini tapırdı. Azərbaycan-Ermənistan münasibətləri, ölkənin təhlükəsizliyi və ərazi bütövlüyü ilə bağlı məsələlər də dövrün siyasi reallıqları çərçivəsində işıqlandırılırdı. Beləliklə, qəzet həm dövlətin rəsmi mövqeyini çatdırır, həm də cəmiyyətin qarşısında dayanan mühüm məsələləri gündəmə gətirirdi.

Cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin 443 nömrəsi işıq üzü gördü. Sonuncu - 443-cü nömrə 1920-ci il aprelin 28-də nəşr olundu. 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə qəzetin həmin dövrdəki nəşrinə də son qoyuldu. Lakin qəzetin susması onun yazdığı tarixin susması demək deyildi, əksinə, zaman keçdikcə "Azərbaycan"ın cümhuriyyət dövründə çap olunmuş nömrələri həmin tarixin öyrənilməsi üçün daha böyük əhəmiyyət qazandı.

Bu gün "Azərbaycan" qəzetinin saylarına yalnız keçmişin mətbuat nümunəsi kimi baxılmır, onlar dövlət quruculuğu prosesinin, parlament həyatının, siyasi qərarların, ictimai münasibətlərin, mədəni mühitin və dövrün düşüncə tərzinin öyrənilməsi baxımından mühüm ilkin mənbələrdir. ADA Universitetinin "Azərbaycan qəzeti. 1918-1920" külliyyatını hazırlaması da bu irsin elmi dövriyyəyə qaytarılması baxımından xüsusi əhəmiyyət daşıyır. Külliyyatın məqsədlərindən biri cümhuriyyət dövrünün qəzet materiallarını müasir Azərbaycan əlifbasına çevirərək geniş oxucu və tədqiqatçı auditoriyasına təqdim etməkdir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu milli dövlətçilik tariximizdə ağır bir fasilə yaratdı. "Azərbaycan" qəzetinin nəşrinin dayanması da həmin tarixi qırılmanın mətbuat sahəsindəki ifadəsi oldu. Lakin milli istiqlal ideyası cəmiyyətin yaddaşından silinmədi. XX əsrin sonlarında Azərbaycan xalqı yenidən dövlət müstəqilliyinə qovuşdu. Müstəqilliyin bərpası milli dövlətçilik irsinin yenidən dəyərləndirilməsi, tarixi adların və rəmzlərin öz yerinə qaytarılması prosesini də sürətləndirdi. Bu proses mətbuat sahəsindən də yan keçmədi.

Müstəqil Azərbaycanın qarşısında duran vəzifələr 1918-ci ilin vəzifələrindən fərqli olsa da, onların əsasında dayanan əsas ideya eyni idi - milli dövlət necə gücləndirilməli, xalqın müstəqilliyi necə qorunmalı və ölkənin gələcəyi necə qurulmalıdır? Məhz "Azərbaycan" qəzetinin səhifələrində milli dövlət institutlarının möhkəmləndirilməsi, hüquqi dövlət və demokratik idarəçilik, iqtisadi inkişaf, sosial siyasət, elm, təhsil, səhiyyə, mədəniyyət və milli-mənəvi dəyərlərin qorunması kimi məsələlər geniş əksini tapdı.

Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı, ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi, iqtisadi inkişaf strategiyasının formalaşması və "Əsrin müqaviləsi"nin imzalanması kimi hadisələr müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinin mühüm istiqamətlərini təşkil edirdi. Sonrakı illərdə iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı, regionların sosial-iqtisadi tərəqqisi, enerji və nəqliyyat layihələri də ölkənin strateji inkişaf gündəliyində mühüm yer tutdu.

Bu proseslərin mətbuatda işıqlandırılması yalnız görülən işlərin sadalanması deyil, dövlət qəzetinin vəzifəsi bu hadisələrin ölkənin inkişaf strategiyası baxımından əhəmiyyətini də göstərməkdir. İqtisadi layihə yalnız tikinti faktı deyil, onun arxasında dayanan regional əlaqələr, milli iqtisadi maraqlar və gələcək inkişaf perspektivləri ilə birlikdə təqdim edilməlidir. Sosial siyasət yalnız rəqəmlərdən ibarət deyil, insan həyatına və cəmiyyətin rifahına təsiri ilə izah olunmalıdır. Bu yanaşma qəzetin informasiya funksiyasını analitik və ideya funksiyası ilə tamamlayır.

Milli mətbuat üçün ərazi bütövlüyü, dövlət suverenliyi, tarixi həqiqətlərin qorunması və beynəlxalq ictimaiyyətə çatdırılması yalnız gündəlik xəbər mövzusu deyildi, milli maraqlarla bağlı prinsipial məsələlər idi. 2020-ci ilin 44 günlük Vətən müharibəsi Azərbaycanın müasir tarixində yeni mərhələ açdı. Ordumuzun Zəfəri, şəhidlərimizin qəhrəmanlığı, qazilərimizin şücaəti, xalq-ordu birliyi və ərazi bütövlüyünün bərpası ölkənin ictimai-siyasi həyatında dərin iz buraxdı. "Azərbaycan" qəzetinin bu hadisələri işıqlandırması, müharibənin gedişi və nəticələri ilə bağlı materialları oxucuya çatdırması, Zəfərin tarixi və siyasi əhəmiyyətini təqdim etməsi onun müasir salnaməçilik funksiyasının mühüm nümunəsidir.

Zəfərdən sonrakı dövrdə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləri, Böyük qayıdış, yeni yaşayış məntəqələrinin salınması, yol və nəqliyyat infrastrukturunun yaradılması, enerji layihələri və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı da Azərbaycanın yeni inkişaf gündəliyinin əsas mövzularındandır. Burada qəzetin qarşısında dayanan vəzifə yalnız "nə baş verir?" sualına cavab verməklə deyildi, eyni zamanda "Bu proses Azərbaycanın gələcəyi üçün nə deməkdir?" sualını da izah etməkdir. Məhz bu, mətbuatı sadə xəbər mənbəyindən ictimai-siyasi düşüncə platformasına yüksəldir.

"Tribuna" sözü mətbuat haqqında danışarkən təsadüfi seçilmiş ifadə deyil, eyni zamanda mövqelərin səsləndirildiyi, ideyaların ifadə olunduğu, cəmiyyət üçün əhəmiyyətli məsələlərin müzakirəyə çıxarıldığı ictimai məkandır. "Azərbaycan" qəzetini ideya-siyasi tribuna kimi səciyyələndirən əsas xüsusiyyətlərini bir neçə istiqamətdə ümumiləşdirmək olar.

Birincisi, dövlətçilik düşüncəsinin ifadəsi. Qəzet Azərbaycan dövlətinin tarixi, siyasi və institusional inkişafını işıqlandırmaqla dövlətçilik ideyasının cəmiyyətə çatdırılmasına xidmət edir. Onun tarixi kökləri 1918-ci ilin istiqlal mətbuatına gedib çıxır. İkincisi, milli maraqların gündəmə gətirilməsi, ərazi bütövlüyü, suverenlik, milli təhlükəsizlik, iqtisadi müstəqillik, sosial rifah və milli-mənəvi dəyərlər kimi məsələlər qəzetin ideya xəttinin əsas istiqamətlərini təşkil edir. Üçüncüsü, ictimai-siyasi proseslərin izahıdır. Qəzetin əhəmiyyəti yalnız hadisəni çatdırmaqla bitmir, onun səbəblərini, mahiyyətini və nəticələrini izah etmək, onun cəmiyyət və dövlət üçün əhəmiyyətini göstərmək mətbuatın analitik missiyasını müəyyənləşdirir. Dördüncüsü, tarixi yaddaşın qorunmasıdır. "Azərbaycan"ın səhifələrində bu günün hadisələri sabahın tarixi üçün sənədləşir. Bu, qəzetin zamanla münasibətini müəyyən edən mühüm xüsusiyyətlərdəndir. Beşincisi, milli ideyanın müasir məzmunla zənginləşdirilməsi. 1918-ci ildə istiqlal və dövlət quruculuğu ön planda idisə, müasir dövrdə həmin dövlətçiliyin qorunması, inkişafı, beynəlxalq mövqelərin möhkəmləndirilməsi və cəmiyyətin rifahının yüksəldilməsi kimi məsələlər ön plana çıxır.




Deməli, "ideya-siyasi tribuna" ifadəsi qəzetin yalnız siyasi xəbərlər dərc etməsi demək deyil. Bu anlayış qəzetin milli ideyanı tarixi yaddaş, dövlətçilik və müasir ictimai-siyasi gündəmlə əlaqələndirən mətbuat platforması olduğunu ifadə edir.

"Azərbaycan" qəzetinin bir əsrdən artıq tarixi onun qarşısında xüsusi məsuliyyət yaradır. Bu məsuliyyət yalnız qəzetin adına və tarixinə bağlılıqdan irəli gəlmir, o, həm də qəzetin daşıdığı ictimai missiyanın mahiyyətindən doğur. Adında bir dövlətin adı olan qəzetin hər bir yazısı, mövzusu və mövqeyi milli yaddaşa daxil olur. Bu səbəbdən belə bir mətbuat orqanı üçün məsuliyyət, fakt dəqiqliyi, peşəkarlıq, tarixi həqiqətlərə hörmət və ictimai əhəmiyyət daşıyan məsələlərə analitik yanaşma xüsusi önəm kəsb edir.

Qəzetin tarixi göstərir ki, onun missiyası dövrün dəyişməsi ilə yox olmayıb, əksinə, hər yeni mərhələdə yeni məzmun qazanıb. 1918-ci ildə dövlətin yaranışını və istiqlal ideyasını işıqlandıran qəzet müasir dövrdə müstəqil Azərbaycanın inkişafını, milli maraqlarını və dövlətçilik strategiyasını gündəmə gətirir. Bu, tarixi varisliyin ən mühüm göstəricilərindən biridir - forma və gündəm dəyişə bilər, amma dövlətçilik məsuliyyəti və milli yaddaşa xidmət missiyası qorunur.

Qəzet dünənin hadisələrini qoruyaraq bu günün düşüncəsinə bu günün hadisələrini sənədləşdirərək sabahın tarixinə çevirir. O, dövlətin fəaliyyətini işıqlandırmaqla yanaşı, dövlətçilik ideyasının ictimai məzmununu açır, milli maraqları gündəmdə saxlayır və cəmiyyətin qarşısında dayanan taleyüklü məsələlərin müzakirəsi üçün mətbu meydan yaradır. Bu mənada "Azərbaycan" qəzeti yalnız keçmişin salnaməsi deyil, o, tarixi missiyasını müasir dövrün çağırışları ilə birləşdirən, milli dövlətçilik düşüncəsini ifadə edən və zəmanəmizin ideya-siyasi tribunası kimi çıxış edən böyük mətbuat məktəbidir.

"Azərbaycan" - bu adın arxasında bir qəzetdən daha böyük bir tarix dayanır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# "AZƏRBAYCAN" - 108

# Böyük amal: istiqlal salnaməçiləri

**Bu il sentyabrın 15-də Azərbaycan Xalq Cümhuriyyətinin dəyərlərindən biri, milli dövlətçilik tariximizin aynası "Azərbaycan" qəzetinin nəşrə başlamasından 108 il ötür. Qəzetin keçib gəldiyi bu uzun yol xalqın milli inkişaf tarixinin yazılı salnaməsini yaradan, keçmişlə bu gün, bu günlə gələcək arasında mənəvi körpü olan, nəsillərdən-nəsillərə soraq gətirən bir mətbu orqanın ictimai düşüncəmizdə nə qədər böyük rol oynadığını göstərir. Bu qəzet zəmanəsinin tanınmış ziyalılarının, maarifçilərinin, millət sevdalılarının bir araya gəldikləri düşüncə mərkəzi idi. "Azərbaycan" böyük bir ictimai tribuna idi. Milli dövlətçilik tariximizin həm cümhuriyyət mərhələsinin, həm də müstəqilliyimizin bərpasından sonrakı dövrlərinin obyektiv işıqlandırılmasında, fakt materialları ilə sənədləşdirilməsində bu mətbu orqanın misilsiz rolu vardır.**

İlk nömrəsi Azərbaycanımız üçün son dərəcə mühüm yer tutan 15 sentyabr Bakının azad edilməsi günündə çap olunmuşdu. Son nömrəsi isə Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğradığı - 27 aprel 1920-ci ildə çıxmış və uzun müddət nəşrini dayandırmışdır. Cümhuriyyətin süqutu ilə qəzetin müəlliflərinin bir çoxu repressiyalarla üzləşərək "qırmızı terror"un qurbanı olmuş, bir qismi isə təqiblərdən yaxa qurtarmaq üçün xaricə üz tutaraq ömürlərini qürbətdə başa vurmuşlar.

Qəzetə müxtəlif dövrlərdə Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim redaktorluq etmişdi. Müəlliflər sırasında isə zəmanəsinin ən böyük fikir adamları, ictimai-siyasi xadimləri, qələm sahibləri vardı. Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Ömər Faiq Nemanzadə, Məhəmməd Ağa Şahtaxtlı, Mirzəbala Məmmədzadə, Cəfər Cabbarlı, Əhməd Cavad, Məhəmməd Hadi, Seyid Hüseyn, Əmin Abid, Fərhad Ağazadə, Şəfiqə Əfəndizadə və başqaları... Təkcə elə bu adlar, bu imzalar qəzetin nə qədər böyük nüfuza, ictimai rəyə təsir gücünə malik olduğunu və 108 il əvvəldən soraq gətirən saralmış vərəqlərində nə qədər qiymətli bir mənəvi irsi yaşatdığını göstərir. "Azərbaycan" bir çıraq idi.

Bir fakt xüsusi vurğulanmalıdır: ilk nömrəsindən böyük nüfuz qazanmasında, qarşıya qoyduğu məqsədlərə çatmasında qəzetin ilk baş redaktorlarının böyük əməyi olmuşdur.

## Dövlətçilik ideyasının tribunası

Qəzetin ilk bir neçə nömrəsi baş redaktorun imzası göstərilmədən "Heyəti-idarə", "Heyəti-təhririyyə" ifadələri ilə redaksiya heyəti adından təqdim edilmişdir. 1918-ci ilin oktyabrından 1919-cu ilin 16 yanvarına qədər isə qəzetə baş redaktor kimi Ceyhun bəy Hacıbəyli rəhbərlik etmişdir. Ceyhun bəyin redaktorluğu Azərbaycan Xalq Cümhuriyyətinin informasiya siyasətinin formalaşdığı ən mürəkkəb dövrə təsadüf olunurdu. Onun rəhbərliyi ilə qəzet Azərbaycan dövlətçiliyi, istiqlal ideyası və milli siyasi düşüncənin əsas tribunasına çevrilməyə başladı.

Publisist, ədəbiyyatşünas, ictimai xadim kimi tanınan Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli dahi bəstəkar və publisist Üzeyir bəy Hacıbəylinin və Azərbaycan Dövlət Musiqili Komediya Teatrının banilərindən bəstəkar Zülfüqar Hacıbəyovun kiçik qardaşı idi. Bu il Ceyhun bəyin anadan olmasında 135 il ötür. O, 3 fevral 1891-ci ildə Şuşada doğulmuş, ibtidai təhsilini maarifçi ziyalı Haşım bəy Vəzirovun rəhbərlik etdiyi ikisinifli rus-tatar məktəbində almış, daha sonra Bakıdakı Realnı Məktəbdə oxumuşdur. Sonralar Peterburq və Sarbonna universitetlərində təhsilini ali səviyyədə davam etdirmişdir.

Ceyhun bəy ədəbi-publisistik fəaliyyətinə 1905-ci ildən başlamış, bu dövrdə qələmə aldığı məqalələr, felyetonlar və hekayələr dövrün aparıcı mətbu orqanlarında işıq üzü görmüşdür. C. Hacıbəylinin 1907-ci ildə "Proqres" qəzetində dərc edilmiş "Pristav Ağa" felyetonu xüsusilə diqqətəlayiqdir. Satirik üslubda yazılmış bu felyeton müəllifin cəmiyyətin sosial-ictimai problemlərinə tənqidi münasibətini və ictimai qınaq vasitəsilə maarifçilik ideyalarını təbliğ etmək cəhdini nümayiş etdirir.

1908-ci ildə o, azərbaycanlı sənayeçi və xeyriyyəçi Murtuza Muxtarovun maddi dəstəyi ilə Peterburq Universitetinin Hüquq fakültəsində təhsil almağa başlayır, lakin bir ildən sonra Parisə yollanır. Burada əvvəlcə Sorbonna Universitetində, ardınca Ali Politexnik Elmlər Məktəbində oxuyur. Təhsilini başa vurub Azərbaycana qayıtdıqdan sonra Ceyhun bəy milli mətbuat tariximizdə özünəməxsus yer tutan bir sıra mətbuat orqanları ilə sıx əməkdaşlıq edir. O, "Kaspi", "Baku", "İrşad", "Tərəqqi" və digər bu kimi qəzetlərə publisistik məqalələr yazır, dövrün maarifçilik və milli dirçəliş ideyalarının təşəkkülündə fəallıq göstərir, ictimai-siyasi fikrin formalaşmasına ciddi töhfələr verir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti bərqərar olduqda Ceyhun bəy Hacıbəyli "Azərbaycan" qəzetinin baş redaktoru təyin edilir. Onun "Azərbaycan" qəzetindəki fəaliyyəti sadəcə texniki-redaktə işi deyildi, eyni zamanda dövlət quruculuğunun ideoloji dayaqlarının möhkəmləndirilməsi, istiqlal təfəkkürünün ictimai şüura yeridilməsi baxımından strateji mahiyyət daşıyırdı.

C.Hacıbəyli ümumilikdə 443 nömrəsi çıxan qəzetin 88 nömrəsinə redaktorluq edib. "Azərbaycan"da dərc etdirdiyi yazılar bu insanın mahir publisist olduğunu təsdiqləyir. Qırmızı imperiya təhlükəsinin real olduğunu dərk etsə də, Bakının erməni-bolşevik quldurlarından azad olunması münasibətilə "Tarixi gün" adlı məqaləsində yazırdı: "15 sentyabr bütün türk və islam aləminin ən səadətli və şövkətli günlərində nədd olunacağı şübhəsizdir. Haman gün türk və islam tarixinə zərin (qızılı) bir səhifə işğal edəcəkdir" ("Azərbaycan" qəzeti, 3 oktyabr 1918).

1919-cu ildə C.Hacıbəyli Azərbaycan nümayəndə heyətinin tərkibində Versal Sülh Konfransında iştirak etmək üçün Parisə yollanır. Nümayəndə heyətinin məsul katibi təyin olunan Ceyhun bəy redaktoru olduğu qəzetin 1919-cu il 9 yanvar tarixli 83-cü nömrəsində "Möhtərəm oxucularımıza" adlı müraciətində yazırdı: "Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetimizin müdiri sifəti ilə ifaya məşğul ikən vətən övladlarının xahiş və əmrinə müti olaraq Cahan Sülh Konfransına döndərilməklə üzərimə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü. Bu böyük xidməti möhtərəm yoldaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə qəzet idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli-hüsn ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kamali-sidq və səmimiyyət ilə xudahafiz deməyi özümə fərz bildim". Bu beynəlxalq tədbir Azərbaycanın müstəqilliyinin tanıdılması üçün mühüm diplomatik təşəbbüslərdən biri olur və Ceyhun bəy burada həm rəsmi təmsilçi, həm də publisist olaraq fəaliyyət göstərir.

Bu məsul və şərəfli vəzifə ona 1920-ci ildə süquta uğrayan Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin son tapşırığı idi. Ceyhun bəy bir daha vətənə qayıda bilməsə də, Azərbaycana ömrünün axırınadək xidmət edir: son nəfəsinədək Azərbaycanla yaşayır, onun istiqlalı uğrunda ideoloji mübarizə aparır, ölkəmizin mədəniyyətini xaricdə təbliğ edir, onun mötəbər, xoşməramlı və fədakar təmsilçisi olur.

Ceyhun bəy Hacıbəylinin mühacirətəqədərki yaradıcılığında publisistika mühüm yer tutur. Ədibin publisistikasının özünəməxsus məziyyətləri var: bu keyfiyyətlər mövzu rəngarəngliyində və peşakarlıqda daha qabarıq təzahür edir. Onun publisistik məqalələri məktəb, təhsil, siyasət, cəhalət və fanatizmin, nadanlığın tənqidi, xeyriyyəçilik, Qars qaçqınları, mətbuat məsələləri, ədəbi-mədəni mühit, tarixi şəxsiyyətlər, onların xidmətlərinin dəyərləndirilməsi və sairə məsələlərə həsr olunurdu. Görkəmli yazarın "Zülmət və işıq", "Qan düşmənçiliyi", "İslamın biliciləri", "Kömək lazımdır", "Bizdə cəmiyyət varmı?", "Böyük ehtiyac", "Unutmayın", "Qardaş köməyi", "Nəhayət və nə vaxt", "Ordan-burdan", "Bu bayramın fitrəsi", "Qaçqınların məsələsi haqqında", "Sərhəddə", "Dəri məsələsi" və sair onlarca məqaləsində qaldırılan məsələlər bir çox cəhətdən bu gün də aktual və əhəmiyyətlidir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Bakıda kommunist rejimi qurulduqdan sonra Ceyhun bəy Hacıbəyli Parisdə qalmış, mühacirət həyatı yaşamağa məcbur olmuşdur. Orada "Azərbaycan ilk müsəlman Respublikası" kitabını nəşr etdirir, "Revyudömonde musulman" jurnalında Andranikin başçılıq etdiyi erməni millətçi-şovinistlərinin Azərbaycanda törətdiyi soyqırımında 30 min insanı vəhşicəsinə qətlə yetirməsindən bəhs edən böyük məqalə ilə çıxış edir. Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını fransız dilinə çevirərək, onun səhnəyə qoyuluşunda iştirak edir. Hüseyn Cavid, Cəfər Cabbarlı haqqında məqalələr yazır. 1928-ci ildə böyük azərbaycanlı ensiklopedist alim-filosof Abbasqulu ağa Bakıxanov haqqında bir sıra məqaləli çapdan çıxır. 1933-cü ildə "Aziatik-revyu" jurnalında bu gün də əhəmiyyətini itirməyən "Qarabağ azərbaycanlılarının dialekti" adlı elmi məqaləsi işıq üzü görür. Ceyhun bəy Hacıbəyli Parisdə fransız dilində nəşr olunan "Qafqaz", Münhendə isə Azərbaycan və rus dillərində çıxan "Azərbaycan" jurnalının redaktoru kimi çalışır, milli-mədəni yaddaşın qorunması və yayılması istiqamətində ciddi fəaliyyət göstərir.

Görkəmli ədibin diqqətçəkən publisistika nümunələrindən biri irihəcmli memuarı "Bir il xəyallarda və ... bütöv bir ömür" adlanır. Fransız dilində qələmə alınmış memuar mövzusunun genişliyi, aktuallığı, toxunulan problemlərin taleyüklülüyü, tarixi və ədəbi dəyəri baxımından mühacirət ədəbiyyatının ən parlaq və nadir nümunələrindəndir.

Qəlbi daim Azərbaycanla, vətənin istiqlalı ilə döyünən Ceyhun bəy Hacıbəyli 22 oktyabr 1962-ci ildə Parisdə vəfat etmiş, Sen-Klu qəbiristanlığında dəfn olunmuşdur. Ceyhun bəy Hacıbəylinin yazılı irsinin böyük bir qismi görkəmli ictimai xadim Ramiz Abutalıbovun səyi sayəsində Azərbaycana gətirilmiş və hazırda Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində qorunmaqdadır.



Ceyhun bəy Hacıbəyli



Üzeyir bəy Hacıbəyli



Şəfi bəy Rüstəmbəyli



Xəlil İbrahim

## Xalqa yol göstərən publisistika

1919-cu ilin yanvarından cümhuriyyətin süqutu gününə - 28 aprel 1920-ci ilə qədər "Azərbaycan" qəzetinə böyük yazar, dahi bəstəkar Üzeyir bəy Hacıbəyli baş redaktorluq etmişdir. O, redaktorluq fəaliyyətinə başlayanda artıq peşəkar jurnalist idi. Üzeyir bəyin mətbuatda 900-ə yaxın məqalə və felyetonları çap olunmuşdur ki, bunlardan 200-ə yaxını "Azərbaycan" qəzetinin payına düşür. O, tutarlı yazıları ilə gənc, müstəqil respublikanın düşmənlərinə cavab verir, ermənilərin törətdikləri qırğınlardan bəhs edir, xalqa öz dostunu da, bədxahını da tanıdırdı. "Azərbaycan" qəzetinə qara yaxanları, böhtan atanları da özlərinə layiq sözlərlə, məqalələrlə susdururdu. Üzeyir bəy qəzetin məsləki haqqında yazırdı: "Danışırlar ki, "Azərbaycan" qəzeti guya "Müsavat" partiyasına məxsus firqəvi bir qəzet imiş. Bu fəqərə barəsində bunu bəyan etməyi lazım bilirəm ki, qəzetimiz partiya qəzeti deyildir. Azərbaycan qəzetinin məsləki Vətən istiqlalı yolunda çalışmaqdan ibarətdir".

Qəzetin inkişafında Üzeyir bəyin mühüm rolu olmuşdur. Redaksiyaya rəhbərliklə yanaşı, "Azərbaycan"da onun çoxsayda baş məqalələri, parlamentin iclaslarından maraqlı reportajları, teatr və musiqiyə həsr olunmuş tənqidi yazıları çap edilirdi. Üzeyir bəy həm gündəlik hadisələrdən bəhs edir, həm perspektivə diqqət yönəldir, qaranlıq mətləblərə işıq salırdı. Onun hər gün baş verən cari hadisələrə də baxışı fərqli idi. "İçimizdəki Denikinlər", "İstiqlal və istiqbal ümidi", "İstefa münasibətilə", "Azərbaycan istiqbalı", "Azərbaycan parlamanı", "Qarabağ hadisatı", "Ermənistan və Azərbaycan münasibatı", "Nə istəyirlər", "Qara təhlükə" və başqa məqalələrində xalqı ehtiyatlı olmağa, istiqlaliyyətini qorumağa səsləyirdi. Bu yazıları indi oxuduqca sovetlərin onlara nə üçün qadağa qoyduğu aydın şəkildə dərk edilir. O yazırdı ki, millətin azadlığı və bütövlüyü onun mübarizə ruhundadır. Bu ruhu sarsıtmaq istəyənlər, Qafqazda güclü bir türk dövlətinin mövcudluğunu gözü götürməyənlər, bu tarixi reallığın qarşısını almağa çalışanlar çoxdur... Ədib bu cür bədxahların millətin azadlıq ideallarını, mübarizə əzmini sarsıda bilməyəcəklərini vurğulayırdı: "Bir vaxt yetişər ki, millət bir ruh və bir cisim olub son və qəti qərarını elan edər".

"Azərbaycan" qəzetinin saralmış arxiv səhifələri böyük publisistin ürək ağrıları, həyəcanlı fikirləri, sarsıntıları ilə doludur. Onun milli azadlıq ideallarını tərənnüm edən, vətənpərvərlik ruhunda yazılmış publisistik əsərləri sanki bugünkü tariximizin aynasında öz əksini tapıb. O, "Qurtuluş" adlı məqaləsində ("Azərbaycan", 15 sentyabr 1919, №274) yazırdı: "Qurtuluş və xilasımız yolunda canlarını qurban verib bizə bu dünyada cənnət arzulayıb, özlərini o dünyada behiştə vasil edən möhtərəm şəhidlərin əziz məzarları üzərinə fatiəxan olmaqla özlərini yad və ruhlarını şad etmək hər bir azərbaycanlının müqəddəs borcudur".

Qəzetin redaktoru olduğu müddətdə Üzeyir bəy Hacıbəyli cümhuriyyət dövründə özünün ən möhtəşəm əsərlərindən birini - Azərbaycanın Dövlət himnini bəstələyir və ən poetik yazısını üçrəngli bayraımıza həsr edərək onu "Bayrağımız sarsılmaz" başlığı ilə qəzetdə dərc edir. Yazı həcmcə kiçik olsa da, mənaca dərin, publisistik nöqteyi-nəzərdən çox dəyərlidir. Buradakı hər sətir, hər fikir Ü.Hacıbəylinin publisistikasına epiqraf kimi də götürülə bilər: "Müqəddəs bayrağımızın münəvvər rəngləri, günəşin ziya və şəfəqləri kimi təcəlli edir. Zülmət dostu olan sağ və sol düşmənlərimizin xain gözləri bu nurlardan qamaşır".

Üzeyir bəy Hacıbəyli milli məsələdən danışarkən heç bir düşüncə məhdudluğuna yer vermir, məsələlərə əsl humanizm mövqeyindən yanaşır, xalqlar arasında bərabərlik, əmin-amanlıq, mehribanlıq ideyasını təbliğ edirdi. O, insanın idealları ilə əxlaqını üzvi vəhdətdə görürdü. Göstərirdi ki, yalnız özünü düşünən, hər işdə, hər başlanğıcda öz mənfəətini güdən adam yüksək ideallardan uzaq olub insanlara zərər verəcək, daha dərindən baxdıqda isə görəcəksən ki, özü də axırda müflis olub peşmanlıqla ömrünü başa vurur. Biz bədbəxtliklərə bir də ona görə düçar oluruq ki, bu sadə həqiqəti anlamırıq. Üzeyir bəyin publisistikasının xalqla, xalqın mübarizəsi, gündəlik problemləri ilə bağlı olması onun demokratik görüşlərinin saflaşmasına kömək etmişdir. Ədibin publisistik əsərləri üçün səciyyəvi olan ilk böyük keyfiyyət ideyalılıq, aydın məslək və əqidəlilik idi.

Azərbaycanın istiqlalı məsələsi "Azərbaycan" qəzetinin və onun redaktorunun ətrafdakı bütün hadisələrə, partiyalara, siyasətçilərə münasibətdə əsas meyar olaraq qalırdı. O, qəzetdə işıq üzü görmüş "Yersiz çıxış" ("Azərbaycan", 3 sentyabr 1919, №267) adlı məqaləsində cümhuriyyətin qısa müddətdə gördüyü işləri ümumiləşdirir, sosialistyönümlü siyasilərin milli hökumətə qarşı qərəzli çıxışlarını nəzərdən keçirirdi. Böyük yazar Azərbaycan Xalq Cümhuriyyətinə münasibətdə bəzi ölkələrin ikili siyasətinə də toxunurdu. Üzeyir bəy digər yazısında - "Qarabağ haqqında" məqaləsində ("Azərbaycan", 30 yanvar, 1919, №101) o dövrdə yenicə formalaşan milli ordumuzun gücünə güvənərək vurğulayır ki, əgər erməni hökuməti Azərbaycan Xalq Cümhuriyyəti ilə müharibə edərsə, öz halının fəna olacağına heç bir şübhə yoxdur.

"Azərbaycan" qəzetindəki fəaliyyəti və onun siyasi publisistikası böyük yazarı birmənalı olaraq cümhuriyyət liderləri ilə bir cərgəyə qoyur. 23 aylıq cümhuriyyət dövrü Üzeyir bəyin həyatında ən azad və müstəqil, yüksək ruh və şövq, ən dərin vətən və millət sevgisi, səmimi məsləkdaşların əhatəsində qurmaq və yaratmaq ehtirası ilə yaşadığı işıqlı bir zamandır. Üzeyir bəy Hacıbəyli kimi şəxsiyyətlər xalqların taleyindəki ən uca zirvələrdir. Zamanın hansı mərhələsində olursa olaq, bu zirvələrdən düşən işıq yolumuzu aydınladır, cəmiyyəti ali məqsədlərə doğru yönləndirir.

## İstiqlal mücahidi

"Azərbaycan" qəzetinin rusdilli nəşrinə 28 noyabr 1918-ci ildən Şəfi bəy Rüstəmbəyli rəhbərlik edib. Son nəfəsinədək əqidəsindən dönməyən, məsləkinə sadiq qalan bu böyük ziyalı cümhuriyyət dövrünün rusca yazan jurnalisti, "Azərbaycan"ı yaradan insanların sırasında dayanan mühərrir, həm də qəzetin tarixində parlamentə üzv seçilən ilk redaktor kimi də qalıb.

Şəfi bəy Mustafa bəy oğlu Rüstəmbəyli adı təkcə "Azərbaycan" qəzetinin deyil, ümumiyyətlə, Azərbaycanın istiqlal tarixində əbədi qalan görkəmli şəxsiyyətlərdəndir. O, 1893-cü ildə Ağdaş qəzasının Məmmədli kəndində dünyaya gəlmiş, orta təhsilini Gəncə klassik gimnaziyasında almışdır. 1911-ci ildə Kiyev Universitetinin Hüquq fakültəsinə qəbul olunmuşdur. Həmin ilin sonunda universitetdə yaradılmış "Azərbaycan Həmyerlilər Cəmiyyəti"nin ("Zemlyaçestvo") rəhbərlərindən biri seçilmişdir.

1917-ci ilin aprelində Bakıda çağırılmış Azərbaycan müsəlmanlarının qurultayında Azərbaycana muxtariyyət verilməsini qətiyyətlə tələb edən şəxslərdən biri olur. Elə həmin ilin mayında o, Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayında iştirak edir. 1917-ci ilin iyun ayında azadlıq mübarizlərinin bir araya gəlməsi nəticəsində yaradılan Türk Ədəmi-Mərkəziyyət Müsavat Partiyasının Mərkəzi Komitəsinin 8 üzvündən biri də Şəfi bəy olur.

Nəhayət, müstəmləkə zülmünə qarşı mübarizə 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması ilə bitir. Cümhuriyyətin yaranmasında fəal iştirak edən Şəfi bəy İstiqlal Bəyannaməsini - Azərbaycanın müstəqilliyi barədə sənədi imzalayan Milli Şuranın 27 nəfər üzvündən biri olur. O, "Azərbaycan"ın rus dilində nəşrinin redaktoru təyin edilir. Bu nəşr sadəcə Azərbaycan dilində çıxan qəzetin rus dilinə tərcümə edilmiş variantı deyildi. O, Azərbaycan Xalq Cümhuriyyətinin rusdilli informasiya və siyasi tribunasına çevrilmiş əhəmiyyətli nəşr idi. Azərbaycan Xalq Cümhuriyyəti çoxmillətli və mürəkkəb siyasi mühitdə fəaliyyət göstərirdi. Ona görə Azərbaycan dövlətçiliyinin mahiyyətini, hökumətin siyasətini və ərazi-siyasi mövqeyini rusdilli ziyalılara, şəhər əhalisinə, xarici diplomatik dairələrə və regionu rusdilli informasiya məkanından izləyən auditoriyaya çatdırmaq xüsusi əhəmiyyət daşıyırdı. Şəfi bəy baş redaktor kimi nəşrin rusdilli yazarları ilə birgə bu missiyanı uğurla yerinə yetirirdi. O, özü də qəzetdə mütəmadi məqalələrlə çıxış edirdi. Bu məqalələrdə görkəmli yazarın vətənə, millətə sədaqəti, azadlıq, istiqlal ehtirası parlaq şəkildə təzahür edirdi.

Ş.Rüstəmbəyli "Düşünmək vaxtıdır" məqaləsində "Daşnaksütyun" partiyasının şovinist, qarşıdurma və terrorçuluq xəttini tənqid edərək yazırdı: "Bizim üçün vacibdir ki, erməni xalqı, nəhayət, "Daşnaksütyun" partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, nə qədər ki, gec deyil ondan üz döndərsin, öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır". Qəzetin maraq doğuran yazılarından biri də jurnalistin tanınmış ictimai xadim və publisist Əhməd bəy Ağayevlə siyasi hadisələr haqqında müsahibəsidir.

Şəfi bəy Rüstəmbəyli qəzetdə ən müxtəlif janrlara müraciət edirdi. Məsələn, 1918-ci il dekabrın 7-də "Azərbaycan Respublikasının yaranma tarixi" adlı qəzet oçerkini yazır. O, bu məqaləni "Azərbaycan" imzası ilə verir. Əslində isə bu, kiçik bir tarixi əsərdir. Belə ki, yazıda Azərbaycanın ovaxtkı vəziyyəti, eləcə də onu əhatə edən Rusiya, Türkiyə, Gürcüstan kimi ölkələrin durumu, bizə münasibəti öz əksini tapır.

Şəfi bəy və onun qəzeti cümhuriyyətin son günlərinədək birlik, azadlıq, istiqlal qayəsi ilə işləyib, məqsədini, məramını dəyişməyib. Şəfi bəy 1919-cu ildə milli mətbuat haqqında ilk qanunu işləyərək onun parlament tərəfindən qəbul edilməsinə nail olur. O, "Azərbaycan"ın baş redaktoru olmaqla yanaşı, 1920-ci il martın əvvəllərindən nazir müavini vəzifəsini də icra edirdi.

1920-ci il aprelin 27-də keçirilən son iclasda M.Ə.Rəsulzadə çıxış edir. Deyir ki, bizim partiya təslim olmağın əleyhinədir. Lakin vətəndaş qarşıdurmasına getməmək üçün və bir sıra başqa şərtlərə görə (6 belə şərt vardı) onlar hakimiyyəti verməyə məcburdurlar. Stenoqramda yazılıb ki, hakimiyyəti təhvil vermək məsələsi elan olunanda arxadan səs gəlir. Baxıb görürlər ki, Şəfi bəy hönkürtü ilə ağlayır...

1920-ci ilin 28 aprelindən sonra Şəfi bəy Rüstəmbəyli Tiflisə köçməli olur. Lakin digər cümhuriyyət liderləri kimi onun da Azərbaycanda qalan doğmaları təqib olunur. Şəfi bəyin atası Mustafa bəy və qardaşı Hacı bəy amansızcasına qətlə yetirilirlər. 1921-ci ilin fevralında Gürcüstan da qırmızı ordu tərəfindən işğal olunur. Bundan sonra Şəfi bəy Rüstəmbəyli İstanbula köçüb qalan həyatını mühacirətdə keçirir. Türkiyədə dünyasını dəyişib son mənzilinə də orada qovuşur. 67 illik ömrünün 40 ilini qürbətdə keçirsə də, hər an qəlbində Azərbaycanı gəzdirib, son nəfəsində də "Azərbaycan", "Vətən" deyib.

## "Qırmızı terror"un qurbanı

Mətbuat həqiqətən tarixdir. Və bu tarixi araşdırarkən adlarına rast gəldiyimiz və heç zaman unutmayacağımız görkəmli simaların ağrılı-acılı, keşməkeşli həyatları ilə üzləşirik. Onlar böyük amal və məsləkləri uğrunda təqib və təzyiqlərə məruz qalsalar da, əqidələrindən dönməmiş, Vətənin istiqlalı uğrunda mübarizə aparmışlar. Belə mücahidlərdən biri də tanınmış jurnalist, tənqidçi və tərcüməçi Xəlil İbrahim oğlu İbrahimovdur.

4 iyul 1919-cu il tarixli 216-cı nömrədən 265-ci sayına qədər "Azərbaycan" qəzetinin baş redaktoru (rusdilli variant) Xəlil İbrahim olmuşdur. O, 1892-ci ildə Şuşada doğulmuşdur. İbtidai təhsilini rus-tatar məktəbində almışdır. 1907-ci ildə atası vəfat etdikdən sonra ailəsi ilə Bakıya köçmüş, təhsilini burada davam etdirmişdir.

Xəlil İbrahim 1914-cü ildən ədəbi-bədii fəaliyyətə başlamış, Birinci Dünya müharibəsi illərində, beynəlxalq məsələlərə, müharibənin dəhşətlərinə həsr olunmuş "Dəhşətli yanğın qarşısında", "Avropa müharibəsi nə qədər baha ilə bitəcəkdir", "Alban inqilabı", "Kənd həyatından səhnələr" və bir sıra ictimai-siyasi publisistik məqalələrlə çıxış etmişdir.

"Azərbaycan" qəzetində çalışdığı illərdə Xəlil İbrahim milli teatr və mədəniyyətinin inkişafı və problemlərilə bağlı onlarla məqalə və resenziyalar yazmış, dil islahatı, terminoloji lüğətlərin hazırlanması, Azərbaycan əlifbası problemləri, Azərbaycan (türk) ədəbi lüğətinin hazırlanmasında fəal iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və respublikada kommunist rejimi qurulduqdan sonra Xəlil İbrahim cümhuriyyətin qabaqcıl xadimlərindən biri kimi 1923-cü ildə həbs olunmuş, günahı sübuta yetirilmədiyindən bir qədər sonra azad edilmişdir. O, 1937-ci ilə qədər ayrı-ayrı vəzifələrdə çalışmaqla xalqının inkişafı ilə bağlı müxtəlif problemlər haqqında qəzetlərdə yazılarla çıxış etmişdir.

Xəlil İbrahimin tərcüməçi kimi Azərbaycan ədəbiyyatı qarşısında xidmətləri də böyükdür. O, Şekspirin, Şillerin, A.Tolstoyun və bir sıra başqa Qərbi Avropa və rus yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. 1937-ci ilin qırmızı terroru, əfsuslar ki, bu vətənpərvər ziyalıdan da yan keçməmişdir. O, noyabr ayında "xalq düşməni" kimi həbs olunmuş, 4 ay sonra, 1938-ci ildə güllələnmiş, Stalinin ölümündən sonra bəraət almışdır.

Bu qəzetin ilk baş redaktorları olmuş şəxsiyyətlərin kimliyi, milli düşüncə tariximizdəki rolları da "Azərbaycan" qəzetinin əzəmətini göstərir. Bu qəzetin rəhbərliyində onlar Azərbaycanın istiqlal salnaməçiləri idilər.

Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyov, Xəlil İbrahim kimi ziyalılarımız "Azərbaycan" qəzetinin tariximizdəki müstəsna mövqeyini daha da ucaldıb, ona yeni bir dəyər qazandırıblar.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

# Bakıda Şeyx Seyyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans işə başlayıb

**Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının 7-ci görüşü çərçivəsində "Gülüstan" sarayında tanınmış azərbaycanlı mütəfəkkir alim Şeyx Seyyid Yəhya Bakuvi Şirvaniyə (XV əsr) həsr olunmuş beynəlxalq elmi-praktiki konfransın plenar iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, "İslam dünyasının mədəni irsində Seyyid Yəhya Bakuvi zirvəsi: Mötədil dəyərlər və müasir çağırışlar" mövzusunda keçirilən Birinci Beynəlxalq elmi-praktiki Konfransın həmtəşkilatçıları Qafqaz Müsəlmanları İdarəsi və TDT ilə birgə Azərbaycan Milli Elmlər Akademiyası, ISESCO, İRSİKA, Müsəlman Ağsaqqallar Şurasıdır.

Tədbiri giriş sözü ilə açan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə Türk Dövlətləri Təşkilatı Dini idarə rəhbərləri Şurasının 7-ci Görüşü çərçivəsində keçirilən, 40-a yaxın ölkəni, 18 beynəlxalq təşkilat və mərkəzi təmsil edən dövlət, din, elm və ictimai xadimi ehtiva edən 200-ə yaxın iştirakçını bir araya gətirən beynəlxalq konfransın ərsəyə gəlməsi üçün göstərilən ali himayəyə görə Prezident İlham Əliyevə konfrans iştirakçıları adından böyük ehtiramla təşəkkürünü ifadə edib.

QMİ-nin sədri bildirib ki, haqq dini olan islamı insanlara olduğu kimi təbliğ etmək yönündə böyük səylər göstərmiş Seyyid Yəhya Bakuvinin mötədil təsəvvüf fəlsəfəsi, əsasən, mənəvi kamillik, insan qardaşlığı, tolerantlıq və bəşəri həmrəylik prinsiplərinə əsaslanır. Təsadüfi deyil ki, Bakuvinin fəlsəfi irsi UNESCO səviyyəsində qeyd olunub, qlobal əhəmiyyət qazanıb. A.Paşazadənin sözlərinə görə, Bakuvinin fəlsəfi görüşləri Anadoludan Balkanlara, Orta Şərqdən Şimali Afrikaya, Qafqazdan Mərkəzi Asiyaya qədər geniş bir coğrafiyada milyonlarla insana təsir göstərib: "Seyyid Yəhya Bakuvinin Bakıda, İçərişəhərdə yerləşən Şirvanşahlar Saray Kompleksində tarixi abidə kimi qorunan türbəsi həm yerli sakinlərin, həm də xaricdən gələn zəvvarların ziyarət yerinə çevrilib. Zəmanəmizdə olduqca böyük ehtiyac duyulan mötədil dəyərlərin mükəmməl qaynaqlarından olan Bakuvi irsinin tədqiqi və təşviqi, heç şübhəsiz ki, ümumbəşəri və ümumislami dəyər kəsb edir".

Tədbirdə çıxış edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, İRSİKA-nın Baş direktoru Mahmut Erol Kılıç, UNESCO-nun Tərəfdaşlıq və beynəlxalq əməkdaşlıq sektorunun müdiri Anar Kərimov, Türk Dövlətləri Təşkilatının Müsəlman Dini idarə rəhbərləri Şurasının üzvləri və digər qonaqlar müasir dönəmdə çox aktual olan mötədil islam nəzəriyyəsinin mötəbər şəxsiyyəti, islam maarifçiliyinin parlaq nümayəndəsi, mütəfəkkir filosof və şair Seyyid Yəhya Bakuvinin bu gün daha geniş miqyasda dünyaya tanıdılmasının elmi, ictimai və dini mühit üçün son dərəcə önəmli və şərəfli olduğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, bu gün qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dünyada separatçılıq və dini radikalizm kimi bəşəriyyəti təhdid edən hadisələrin yaşandığı bir zamanda Bakuvi fəlsəfəsində mötədil islamın təbliğinə, milli-mənəvi dəyərlərin birləşdirici gücünə və bəşəriyyət üçün vacib olan insan qardaşlığı prinsiplərinin təşviqinə böyük ehtiyac var. Müasir dövr üçün xüsusi əhəmiyyət kəsb edən cəhətlərdən biri də Seyyid Yəhya Bakuvi irsinin yalnız Azərbaycan üçün deyil, bütövlükdə islam sivilizasiyasının mühüm mənəvi sərvətlərindən biri kimi milli kimliyin, mənəvi suverenliyin və ortaq dini-irfani irsin qorunması baxımından xüsusi əhəmiyyət daşımasıdır.

Beynəlxalq konfransda həmçinin türk dünyası üçün önəm kəsb edən "Qardaşlıq və Müttəfiqliyin Zirvəsi" adlı kitab-albom təqdim edilib. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin müəllifi olduğu, iki qardaş xalq, əbədi dost və müttəfiq dövlətin ən yeni tarixində qüdrətli dövlət rəhbərlərinin - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin səyləri və müdrik addımları sayəsində mənəvi irsin, islam dəyərlərinin qorunub inkişaf etdirilməsi istiqamətində misilsiz fəaliyyətləri əks etdirmək məramı daşıyan nəşr iki dildə - Azərbaycan və özbək dillərində işıq üzü görüb.

Bununla yanaşı, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən hazırlanıb nəşr edilmiş "Piri-sani - Seyyid Yəhya Bakuvi", Azərbaycan və ingilis dillərində "İrəvan Qazılığının tarixi" kitablarının və digər nəşrlərin beynəlxalq konfrans çərçivəsində təqdimatı keçirilib.

Konfransın materialları əsasında həmçinin islamın mötədil islam dəyərləri - Bakuvi irsinə həsr olunmuş film hazırlanıb.

"İslam dünyasının mədəni irsində Seyyid Yəhya Bakuvi zirvəsi: Mötədil dəyərlər və müasir çağırışlar" mövzusunda Birinci Beynəlxalq Konfransın materialları əsasında kitab və broşürlərin nəşri, süni intellekt vasitələri ilə təqdimatların təşkili nəzərdə tutulub.

Bu gün beynəlxalq konfrans işini bölmə iclasları ilə davam etdirəcək.

# DTX-nin rəisi Çinə səfər edib

**Çin Xalq Respublikasının (ÇXR) İctimai Təhlükəsizlik Nazirliyinin dəvəti ilə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyəti ÇXR-in Ciansu əyalətinin Lianyunqan şəhərinə səfər edib.**




Bu barədə AZƏRTAC-a DTX-dən məlumat verilib.

Bildirilib ki, səfər çərçivəsində nümayəndə heyəti müxtəlif ölkə və beynəlxalq təşkilatları təmsil edən yüksəkvəzifəli şəxslərin qatıldığı V Qlobal İctimai Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunda iştirak edib.

Terrorçuluğa qarşı mübarizə, beynəlxalq tərəfdaşlığın möhkəmləndirilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı məsələlərin müzakirə olunduğu tədbirdə "Qlobal Terrorçuluqla Mübarizə üzrə 2026-cı il Fəaliyyət Planı" adlı yekun sənəd qəbul edilib.

Forum çərçivəsində DTX-nin rəisi general-polkovnik Əli Nağıyev ÇXR-in Dövlət Şurasının üzvü, ictimai təhlükəsizlik naziri Van Syaoxunla görüşüb.

General-polkovnik Əli Nağıyev dəvətə görə minnətdarlığını bildirib, Tibetdə baş vermiş və Çinlə yanaşı, digər ölkələrin vətəndaşlarının da həlak olması ilə nəticələnmiş fəlakətlə əlaqədar dost Çin xalqına və həyatını itirənlərin ailələrinə dərin hüznlə başsağlığı verib. O, Azərbaycan xalqının bu ağır itkilərlə bağlı Çin xalqının kədərini bölüşdüyünü və zərərçəkənlərlə həmrəy olduğunu vurğulayıb.

Görüşdə dünyada təhlükəsizliklə bağlı mövcud vəziyyət və müasir təhdidlərin xarakteri ətrafında fikir mübadiləsi aparılıb, iki qurum arasında münasibətlərin hazırkı səviyyəsi yüksək qiymətləndirilib və qarşılıqlı maraq doğuran istiqamətlər üzrə gələcək əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

Beynəlxalq vəziyyətin mürəkkəbləşdiyi, ayrı-ayrı regionlarda hərbi münaqişələrin davam etdiyi və qlobal iqtisadiyyat üçün əlavə risklərin yarandığı bir dövrdə artan təhdidlərə qarşılıqlı etimad və hörmət, eləcə də operativ informasiya mübadiləsi əsasında birgə mübarizənin vacibliyi qeyd olunub. Azərbaycan ilə Çin arasında münasibətlərin strateji xarakter daşıdığı, suverenliyə hörmət və qarşılıqlı dəstək prinsiplərinə əsaslandığı diqqətə çatdırılıb.

Tərəflər dövlət başçıları arasında əldə olunmuş razılaşmaların həyata keçirilməsinə töhfə verilməsi, terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa və telekommunikasiya sistemlərindən istifadə edilməklə törədilən dələduzluq hallarına qarşı mübarizə sahəsində əməkdaşlığın dərinləşdirilməsi, habelə hüquq mühafizə və təhlükəsizlik orqanları arasında əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı niyyətlərini ifadə ediblər.

Görüşün sonunda Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə ÇXR-in İctimai Təhlükəsizlik Nazirliyi arasında təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb.

# *Bakı-Brüssel münasibətləri:* qlobal reallıqlara əsaslanan strateji tərəfdaşlıq

**Son illərdə regionda yaranmış yeni reallıqlar, qlobal nəqliyyat marşrutlarının yenidən qurulması və Avropanın enerji təminatında baş verən dəyişikliklər Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasındakı münasibətləri strateji müstəviyə çıxarıb. Bu gün Bakı və Brüssel arasında formalaşan tərəfdaşlıq real iqtisadi, geostrateji və təhlükəsizlik məsələlərinə əsaslanır. Bu baxımdan, Avropa İttifaqının ali rəhbərliyinin və xüsusi nümayəndələrinin ölkəmizə ardıcıl səfərləri ikitərəfli dialoqun dinamik inkişafının və rəsmi Bakının Avropanın xarici siyasət gündəmində tutduğu mühüm yerin bariz göstəricisidir.**



Bu təmasların növbəti əhəmiyyətli mərhələsi kimi sentyabrın 10-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononun Azərbaycana işgüzar səfərini qeyd etmək olar. Aİ-nin xüsusi nümayəndəsi səfər çərçivəsində Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov ilə ayrı-ayrılıqda mühüm görüşlər keçirib. Konstruktiv şəraitdə keçən danışıqlarda Azərbaycan-Aİ əməkdaşlığının gündəliyində duran əsas məsələlər, ikitərəfli tərəfdaşlığın gələcək inkişaf perspektivləri, eləcə də Cənubi Qafqazda mövcud olan son geosiyasi vəziyyət, regional sülhün, təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi istiqamətində rəsmi Bakı tərəfindən atılan addımlar ətraflı təhlil edilib.

Görüşlərdə yüksəksəviyyəli qarşılıqlı səfər və təmasların Azərbaycan-Aİ gündəliyinin irəlilədilməsi, münasibətlərin şaxələndirilməsi baxımından müstəsna önəmi xüsusi vurğulanıb. Müzakirələrdə həmçinin Avropa İttifaqının Azərbaycan-Ermənistan arasında sülh prosesinə verə biləcəyi dəstək, humanitar məsələlərin həlli, regionda enerji, nəqliyyat və kommunikasiya infrastrukturunun bərpası və şaxələndirilməsi istiqamətində görülən işlər diqqət mərkəzində olub.

Aİ rəsmisi Maqdalena Qrononun Azərbaycana səfərinin diqqətçəkən məqamlarından biri qonağın ilk dəfə ölkəmizin işğaldan azad edilmiş ərazilərinə səfər etməsi olub. Qrono 11-12 sentyabr tarixlərində Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura təşkil edilən səfərində iştirak edib. Aİ nümayəndəsi Xankəndi və Şuşa şəhərlərində, habelə Ağdərə və Kəlbəcər rayonlarında olub. Bölgəyə səfərləri çərçivəsində Maqdalena Qrono və diplomatik heyətin üzvləri Prezident İlham Əliyevin rəhbərliyi və birbaşa nəzarəti ilə azad olunmuş ərazilərdə həyata keçirilən nəhəng bərpa-quruculuq işləri, sosial və iqtisadi infrastruktur layihələri ilə yerindəcə tanış olublar.

Maqdalena Qrono səfərin yekunlarına dair sosial şəbəkə hesabında etdiyi paylaşımda Bakıdakı məhsuldar görüşləri və keçmiş münaqişə zonalarındakı real vəziyyətlə tanışlığın vacibliyini xüsusi qeyd edərək, bu səfərin regional reallıqların düzgün qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Aİ rəsmisinin ölkəmizə səfəri və azad edilmiş ərazilərdə şahidi olduğu reallıqlar Bakı və Brüssel arasında gündən-günə dərinləşən strateji tərəfdaşlığın məntiqi tərkib hissəsidir.

Ümumiyyətlə, son dönəmlərdə həyata keçirilən intensiv səfərlər və tərəflərin mühüm müzakirələri Azərbaycan ilə Avropa İttifaqı arasında qarşılıqlı etimada əsaslanan dialoqun keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunun sübutudur. Vurğulamaq lazımdır ki, Azərbaycanın Avropa üçün əhəmiyyəti yalnız zəngin karbohidrogen resursları ilə məhdudlaşmır, həm də ölkəmizin Şərqlə Qərb, Şimalla Cənub arasında etibarlı tranzit, logistika və nəqliyyat mərkəzi kimi çıxış etməsindən qaynaqlanır. Strateji yaxınlaşmanın və Brüsselin Bakıya verdiyi yüksək önəmin göstəricisi kimi Avropa İttifaqının ali rəhbərliyinin qısa vaxt ərzində ölkəmizə ardıcıl səfərlərini də qeyd etmək olar.

İkitərəfli müstəvidə Azərbaycan Avropa İttifaqına üzv olan 27 dövlətdən 10-dan çoxu ilə strateji tərəfdaşlıq haqqında rəsmi sənədlər imzalamaqla bu qitənin iqtisadi və siyasi dayanıqlılığında həlledici mövqe qazanıb. Bu sənədlər rəsmi Bakı ilə Avropa paytaxtları arasında siyasi dialoqun, investisiya axınının və ticarət dövriyyəsinin yeni mərhələyə yüksəlməsinə möhkəm hüquqi təməl yaradıb. Paralel olaraq, müdafiə sənayesi, nəqliyyat infrastrukturu və "yaşıl texnologiyalar" sahəsində birgə layihələrin icrası ikitərəfli əlaqələrin yalnız enerji sektoru ilə məhdudlaşmadığını sübut edir. Aİ-yə üzv dövlətlərlə formalaşan bu çoxtərəfli əməkdaşlıq Azərbaycanın Avropanın təhlükəsizlik arxitekturasında önəmli aktora çevrildiyini göstərir.

Azərbaycanın mühüm coğrafi mövqeyi, ölkə daxilində və regional müstəvidə reallaşdırdığı müasir infrastruktur layihələri, irəli sürdüyü bağlantı tərəfdaşlığı təşəbbüsləri mövcud geosiyasi qarşıdurmalar fonunda ölkəmizi Avrasiya məkanının ən etibarlı bağlantı və logistika mərkəzinə çevirib. Cənubi Qafqazın coğrafi üstünlüklərini real iqtisadi dividendlərə çevirən Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə inkişaf etdirilən Orta dəhliz Avropa, Qara dəniz, Xəzər və Mərkəzi Asiya regionlarını vahid iqtisadi zəncirdə birləşdirən strateji arteriya rolunu oynayır. Ənənəvi daşıma marşrutlarının təhlükəsizlik risklərlə üzləşdiyi bir dövrdə Azərbaycan üzərindən keçən təhlükəsiz, şaxələndirilmiş və dayanıqlı dəhliz bütövlükdə qitələrarası yükdaşımaların fasiləsizliyinə zəmanət verir. Xüsusilə Çinlə strateji tərəfdaşlığın dərinləşməsi, Mərkəzi Asiya dövlətləri ilə münasibətlərin tamamilə yeni müstəviyə keçməsi Orta dəhlizin buraxılış qabiliyyətini və tranzit cəlbediciliyini dəfələrlə artırıb. Bu səbəbdən Aİ rəsmilərinin Azərbaycanı nəhəng iqtisadi və logistik layihələrin idarəetmə mərkəzi kimi qəbul etməsi tamamilə qanunauyğundur.

Nəticə etibarı ilə Azərbaycan və Avropa İttifaqı arasında formalaşan tərəfdaşlıq qarşılıqlı maraqlara, bərabərhüquqlu dialoqa əsaslanan unikal əməkdaşlıq modelidir. Azərbaycan bu gün Avropa qitəsinin enerji təhlükəsizliyinin şaxələndirilməsində, Orta dəhliz kimi qlobal nəqliyyat-logistika arteriyalarının fasiləsiz fəaliyyətində və "yaşıl enerji" bağlantılarının reallaşdırılmasında əvəzolunmaz rol oynayır. Avropa İttifaqının ali nümayəndələrinin ölkəmizə səfərləri də göstərir ki, Aİ regionda davamlı sülhün və inkişafın təmin olunmasında Azərbaycanı əsas tərəfdaş kimi görür. Avropa İttifaqı, o cümlədən qitənin aparıcı dövlətləri ilə qurulan strateji münasibətlər Azərbaycanın qlobal geosiyasi çəkisini daha da artırır, ölkəmizin beynəlxalq münasibətlər sistemindəki mövqeyini gücləndirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Sülh Körpüsü" Təşəbbüsünün Azərbaycan üzrə qrupu Ermənistan mediasının qərəzli mövqeyinə münasibət bildirib

**"Sülh Körpüsü" Təşəbbüsünün Azərbaycan üzrə qrupu 2026-cı il sentyabrın 11-12-də diplomatik korpusun Azərbaycan Respublikasının Qarabağ və Şərqi Zəngəzur bölgələrinə səfəri ilə bağlı Ermənistan mediasının nümayiş etdirdiyi qərəzli münasibət və ictimai müzakirələrdəki qəbuledilməz ton ilə bağlı dərin məyusluğunu bildirib.**



AZƏRTAC qrupun bununla bağlı yaydığı açıqlamanı təqdim edir:

"Əvvəla, diplomatik korpusun Azərbaycan Respublikasının suveren ərazisinə səfəri özlüyündə mübahisə mövzusu ola bilməz. Xüsusilə bu səfərdə iştirak etdiklərinə görə səfirlərə və dövlətlərə yönəlmiş hücum xarakterli bəyanatlar narahatlıq doğurur, Ermənistanın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıması öhdəliyi ilə ziddiyyət təşkil edir.

Azərbaycan və Ermənistan hazırda münaqişədənsonrakı mərhələdədir, hər iki ölkə onilliklər boyu davam edən qarşıdurmanın fəsadlarını aradan qaldırmaq kimi məsuliyyətli bir missiya ilə üz-üzədir. Sülh təşəbbüslərinin bir hissəsi kimi biz - vətəndaş cəmiyyəti nümayəndələri Azərbaycan və Ermənistan hökumətlərinin dəstəyi ilə sülh prosesini dəstəkləmək, dialoqu təşviq etmək və etimad quruculuğu tədbirlərinə töhfə vermək üçün addımlar atırıq.

Azərbaycan Respublikasının ərazisindəki mədəni irs Azərbaycan xalqına məxsusdur və dövlət tərəfindən qorunur.

Ədaləti təmin etmək üçün mədəni irs qarşılıqlılıq və açıq dialoq prinsipləri əsasında müzakirə olunmalıdır. Bu məqsədlərə nail olmaq üçün vətəndaş cəmiyyəti nümayəndələri Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin ayrılmaz tərkib hissəsi olan məsələlərin peşəkar müstəvidə müzakirəsi məqsədilə platforma təsis ediblər.

Sülh prosesinin revanşist qüvvələrin təzyiqinə məruz qalmasına yol verilməməlidir. Çünki bu, sülhə doğru irəliləyişi ciddi şəkildə təhlükə altına sala bilər. Biz Ermənistan cəmiyyətini bu məqsədlə təmkinli mövqe nümayiş etdirməyə, Ermənistanda və onun hüdudlarından kənarda müəyyən şəxslərin bədniyyətli gündəliyinə rəvac verməməyə dəvət edirik.

*Fərhad Məmmədov,*
*Kəmalə Məmmədova,*
*Rusif Hüseynov,*
*Dilarə Əfəndiyeva,*
*Ramil İskəndərli".*

# Media və Yayım Şurasında Türkiyə nümayəndə heyəti ilə görüş keçirilib

**Sentyabrın 14-də Media və Yayım Şurasının sədri Əhməd İsmayılov ilə Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbərinin müavini Ferhat Pirinççinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Şuradan AZƏRTAC-a bildiriblər ki, görüşdə Media və Yayım Şurasının sədri Əhməd İsmayılov Azərbaycan və Türkiyə arasında media və kommunikasiya sahəsində mövcud əməkdaşlıq əlaqələrinin əhəmiyyətini vurğulayıb. Müasir informasiya mühitində sözügedən sahədə qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi, dezinformasiyaya qarşı mübarizədə birgə fəaliyyətin gücləndirilməsi kimi istiqamətlərdə əməkdaşlığın vacibliyi qeyd olunub.

Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbərinin müavini Ferhat Pirinççi rəqəmsal transformasiyanın media və kommunikasiya sahəsində yaratdığı yeni imkanlardan bəhs edib. Yeni media alətlərinin effektiv tətbiqi, müasir kommunikasiya yanaşmalarının inkişaf etdirilməsi, eləcə də iki ölkənin media nümayəndələri arasında peşəkar əlaqələrin və birgə təşəbbüslərin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüş zamanı müasir informasiya çağırışlarına qarşı koordinasiyalı yanaşma imkanları və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# BAKININ AZAD OLUNDUĞU GÜNDƏN 108 İL KEÇİR



## 108 il öncə tariximizin şərəf və qürur səhifəsi yazılmışdır

**Elə tarixi hadisələr var ki, baş verdiyi günlərin üstündən illər, əsrlər ötüb keçsə də, heç vaxt unudulmur, daim xatırlanır, yaddaşlarda qalır – 1918-ci il sentyabrın 15-i kimi.**

Həmin gün tariximizə Bakının erməni-bolşevik qüvvələrindən azad olunduğu gün kimi yazılıb. Amma qürur dolu bu tarix illər uzunu xalqımızdan gizlədilib, arxivlərdə saxlanılıb. Şər qüvvələr bacardıqları qədər onu ört-basdır etməyə çalışıblar. Tarix dərsliklərində bir kəlmə də olsun bu barədə yazılmayıb. Lakin baş verdiyi vaxtdan nə qədər keçsə də, həqiqət gec-tez ortaya çıxır.

15 sentyabr 1918-ci ildə baş verən hadisələri biz yalnız müstəqillik əldə edəndən, arxivlər açılandan sonra öyrəndik. Xalqlar həbsxanası olan keçmiş sovet rejimi süquta uğradıqdan sonra tarixi hadisələrin üstünə işıq düşdü. İllər sonra şərəf dolu hadisələri öyrəndikcə babalarımızın igidliyinə, qəhrəmanlığına heyran qaldıq, onlarla qürur duyduq.

Həmin gün baş verən hadisələri öyrənmək istəyəndə sanki tarix əlimizdən tutub bizi ötən əsrin ikinci ongünlüyünə – çox mürəkkəb, qarmaqarışıq bir dövrə aparıb çıxarır. 1918-ci il mayın 28-də, olduqca çətin bir zamanda Milli Şura Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını dünyaya bəyan etdi. Həmin günlər Azərbaycanda vəziyyət elə də ürəkaçan deyildi. Ölkənin ərazisinin demək olar xeyli hissəsi, o cümlədən Bakı və ətraf rayonlar erməni-bolşevik qüvvələrinin və onlara havadarlıq edənlərin işğalı altında idi. Belə bir dövrdə Azərbaycan Xalq Cümhuriyyətini yaratmaq, yaşatmaq, onu dünyəvi dövlətə çevirmək yeni formalaşmış milli-demokratik qüvvələrin qarşısında dayanan ən çətin və olduqca şərəfli tarixi vəzifə idi.

Daşnak-bolşevik qüvvələri 1918-ci il mart ayının son 3 günü ərzində xalqımıza qarşı misli görünməmiş soyqırımı törətdilər. Bolşevik donuna bürünmüş ermənilər hansı yolla olursa olsun, Bakını əldə saxlamağa çalışır, çirkin məqsədlərinə çatmaq üçün əllərində olan bütün imkan və vasitələrdən istifadə edirdilər. Ancaq nəyin bahasına olursa olsun Bakı bu şər qüvvələrdən azad edilməliydi. Çünki Azərbaycanı, onun müstəqilliyini Bakısız təsəvvür etmək mümkün deyildi. Göyçənin, Zəngəzurun, Qarabağın və başqa bölgələrin azadlığına doğru uzanan yollar Bakıdan keçirdi. Belə çətin bir şəraitdə, mürəkkəb bir dövrdə özünün də ağır durumda olduğuna baxmayaraq, Osmanlı dövləti Azərbaycanla 1918-ci il iyun ayında bağladığı «Dostluq və əməkdaşlıq» müqaviləsinə əsasən, gənc dövlətin ərazi bütövlüyünü təmin etmək məqsədilə hərbi qüvvələrinin bir hissəsini Nuru paşanın rəhbərliyi altında ölkəmizə göndərdi.

1918-ci ilin avqust-sentyabr aylarında Bakının daşnak-bolşevik qüvvələrindən azad edilməsi uğrunda gərgin döyüşlər başladı. Göyçay ərazisində baş verən ilk döyüşdə daşnak-bolşevik qüvvələri ağır məğlubiyyətə uğradılar. Elə birinci həmlədəcə burnu ovulan qüvvələr geri çəkilməyə məcbur oldular. Növbəti döyüşlərdə də daşnak-bolşevik qüvvələri yeni yaranıb formalaşmış Azərbaycan Ordusunun qarşısında dayana bilməyərək geri çəkildi.

2018-ci il avqustun ilk günlərindən Bakının azadlığı uğrunda qanlı döyüşlər alovlandı. Həmin gərgin və həlledici günlər paytaxtı daşnak Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Soveti işğal altında saxlayırdı. Erməni-bolşevik qüvvələri şəhəri əldən vermək istəmir, ona sahib çıxmağa can atırdılar. İstəklərinə çatmaq üçün bütün qüvvələrini səfərbər edərək ciddi müqavimət göstərirdilər.

Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun zabit və əsgərləri Bakının azadlığı uğrunda gedən əməliyyatlarda qəhrəmancasına vuruşdular. Artıq qanlı döyüşlər şəhərin ətrafına gəlib çatmışdı. Xırdalan və Biləcəri istiqamətində döyüşlər bir gün, bir an olsun belə, səngimirdi.

1918-ci il avqustun 3-də Mürsəl paşa Bakıda olan Sentrokaspi Ordusu Komandanına və Erməni Milli Şurası İdarəsinə təslim olmaları haqqında teleqram göndərdi. Teleqramda yazırdı: “Bakıdakı Erməni Şurasının rəhbəri. Bakının ətrafında Türk Qafqaz İslam Ordusunun döyüşdüyünü və şəhəri mühasirəyə aldığını bilirsiniz. Əgər şəhəri döyüşsüz təslim etsəniz, milli və dini mənsubiyyətindən asılı olmayaraq, Bakıdakı bütün insanların hüququ qorunacaq. Xüsusilə Ermənistana getmək istəyən ermənilərə heç bir maneə törədilməyəcəyinə zəmanət verirəm. Əgər şəhər təslim olmasa, axıdılacaq qanlara görə cavabdeh siz olacaqsınız. Şəhəri təslim etməyə razısınızsa, tezliklə cavabınızı adamlarınızdan göndərin”.

Bakını əldən vermək istəməyən Erməni Şurası və Daşnak partiyası Mürsəl paşanın məktubuna cavab vermək əvəzinə, müqaviməti daha da artırmaq üçün şəhərdə səfərbərlik elan etdi. Avqust ayının 3-də vəziyyətin gərginliyindən qorxuya düşən daşnak Stepan Şaumyan gəmi ilə Bakıdan qaçmaq istəsə də, məqsədinə çata bilmədi. Sentrokaspi hökumətininin tabeliyində olan donanmanın matrosları tərəfindən tutularaq geri qaytarıldı.

Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu erməni-bolşevik qüvvələrinə göndərdikləri teleqrama cavab gəlmədiyini görüb şəhəri azad etmək üçün hücumlarını davam etdirdi. Gərgin keçən döyüşlərdən sonra sentyabrın 15-də Azərbaycan Milli Korpusu və çoxsaylı azərbaycanlı könüllü vuruşa-vuruşa Bakıya daxil olaraq şəhəri erməni-bolşevik qüvvələrindən təmizlədilər. Bakı işğalçı qüvvələrdən azad olundu.

Bakının erməni-bolşevik qüvvələrindən azad olunduğu həmin tarixi günü general Denstervil gündəliyində belə qələmə alıb: “Türklərin həlledici hücumları səhər saat 4-də başlandı. Saat 11-ə doğru onlar artıq şəhər ətrafındakı bütün yüksəklikləri ələ keçirib vaxt itirmədən bizim mövqelərə doğru xeyli irəliləmişdilər. Strafforddan, Varlikdən və Vorçesterdən olan hərbi hissələr əla döyüşürdülər. Onların əllərindəki 800 tüfəng, öz artilleriyamız və yerli qüvvələrin artilleriyası (təxminən 40 yaxın top) sayəsində gücünü ikiqat artırıb komandamız altında zirehli avtomobillər də daxil olmaqla 7 minə yaxın türklə savaşın ağırlığını üstlərinə götürmüşdülər. Qarşıya qoyulan vəzifənin öhdəsindən əla gəlirdilər. Saat 16-ya yaxın öyrəndim ki, Bakı qoşunları düşmənə müqavimət göstərmək əvəzinə, həmişəki kimi yenə də əsgərlərimi təhlükə altında qoyub mövqedən qaçırlar. Ermənilərdən isə həmişəki kimi fayda yox idi. Mən təlimata uyğun şəkildə köməkçim Breyi yazılı qeydlə diktatorların yanına göndərdim. Onlara döyüşün taleyinin artıq tam həll edildiyi ilə bağlı məlumat verdim. Eyni zamanda qoşunlarımı mümkün qədər tez, qaranlıq düşməmiş gəmiyə yükləmək istədiyimi bildirdim”.

Bakının azad edilməsi Azərbaycan tarixinin ən parlaq səhifələrindən biridir. Milli qüvvələrin şəhərə daxil olması hamını sevindirirdi. Xalqımızın qeyrətli oğlu, məşhur milyonçu və tanınmış xeyriyyəçi Zeynalabdin Tağıyev qələbə münasibətilə ordunun şərəfinə böyük ziyafət də vermişdir.

Azərbaycan Prezidenti İlham Əliyev 15 sentyabr 2018-ci ildə Bakının erməni-bolşevik qüvvələrindən azad olunmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda əcdadlarımızın həmin tarixi gün göstərdiyi qəhrəmanlıqdan söz açaraq demişdir: “...Yüz il bundan əvvəl Nuru Paşanın, Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğaldan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq və şücaət göstərmişlər. Bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya köçmüş və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilmişdir. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz əsl sahibinə qayıtmışdır”.

*Vahid MƏHƏRRƏMOV,*
*“Azərbaycan”*

## Çanaqqaladan Bakıya uzanan qardaşlıq yolu

**Tarixin elə günləri var ki, onların mənası yalnız bir hadisənin nəticələri ilə ölçülmür, eyni zamanda xalqın yaddaşında dövlətçilik iradəsinin, milli həmrəyliyin və qardaşlıq duyğusunun rəmzinə çevrilir. 15 sentyabr 1918-ci il də Azərbaycan tarixində məhz belə günlərdəndir. Həmin gün Bakı işğaldan azad edildi.**

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Gəncədən Bakıya köçdü və gənc respublikanın dövlətçilik tarixində yeni mərhələ başladı. Bu qələbənin arxasında Azərbaycan milli qüvvələri ilə Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun çiyin-çiyinə apardığı ağır və fədakar mübarizə dayanırdı. Bu həm də Azərbaycan-Türkiyə qardaşlığının tarixi yaddaşında xüsusi yer tutan hadisə idi. Bu qardaşlığın kökləri 1918-ci ildən də əvvələ gedib çıxır.

1915-ci ildə Osmanlı dövləti ölüm-dirim savaşının içində idi. Çanaqqala döyüşləri türk xalqının tarixində olduğu kimi, xalqımızın yaddaşında da xüsusi iz salan hadisədir. O zaman Azərbaycanın müxtəlif bölgələrindən olan könüllülər Çanaqqala cəbhəsinə gedərək qardaş xalqın müdafiəsində iştirak etmişdilər. Azərbaycan Müdafiə Nazirliyinin məlumatlarında Çanaqqala savaşında 3 minədək azərbaycanlı könüllünün şəhid olduğu qeyd edilmişdir. Beləliklə, Çanaqqala torpaqları Azərbaycan oğullarının qanını yaddaşına yazmışdı. Üç il sonra isə tarix başqa bir məkanda - Azərbaycanın paytaxtı uğrunda gedən döyüşlərdə yeni bir səhifə açmışdı.

Bu dəfə təhlükə yaranmaqda olan Azərbaycan dövlətçiliyini sınağa çəkirdi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə Bakı milli hökumətin yox, bolşevik-daşnak qüvvələrinin nəzarətində idi. Yeni yaranmış dövlət son dərəcə ağır hərbi-siyasi şəraitlə üz-üzə qalmışdı. Cümhuriyyətin elan edildiyi ərazilərin mühüm hissəsində milli dövlətçiliyi qorumağa qadir yetərli hərbi qüvvələr hələ tam formalaşmamışdı. Azərbaycan hökumətinin qarşısında duran başlıca vəzifələrdən biri məhz Bakının azad edilməsi idi. Belə bir şəraitdə Azərbaycan hökuməti Osmanlı dövlətindən hərbi yardım istədi. 4 iyun 1918-ci ildə Azərbaycan ilə Osmanlı dövləti arasında imzalanmış Batum müqaviləsinin dördüncü maddəsi ölkəmizə istiqlalını və təhlükəsizliyini qorumaq üçün Osmanlıdan hərbi yardım istəmək hüququ verdiyinə görə Azərbaycan tərəfi bu imkandan istifadə edərək Osmanlı hökumətinə müraciət etdi. Osmanlı dövləti müraciətə müsbət cavab verdi.

Bu qərarın arxasında ayrı-ayrı hərbi dəstələrin Azərbaycana göndərilməsi deyil, vahid hərbi qüvvənin yaradılması dayanırdı. Osmanlının hərbi naziri Ənvər Paşanın qərarı ilə Qafqaz İslam Ordusunun formalaşdırılmasına başlanıldı. Ordunun komandanlığı isə Osmanlı ordusunun təcrübəli hərbçisi Nuru Paşaya həvalə edildi. Azərbaycanda mövcud olan milli hərbi qüvvələr və paytaxta göndərilən Osmanlı hərbi hissələri bu ordunun əsasını təşkil edirdi. Nuru Paşanın paytaxta göndərilməsi ilə Azərbaycan hökumətinin hərbi yardım müraciəti konkret hərbi qüvvəyə çevrildi. Qafqaz İslam Ordusu Azərbaycan milli qüvvələri ilə birlikdə qarşıda duran tarixi vəzifənin icrasına başladı. Bakının azadlığı yalnız paytaxtın ələ keçirilməsi məsələsi deyildi. Söhbət yeni elan olunmuş Azərbaycan dövlətinin öz ərazisində hakimiyyətini bərqərar etməsindən, dövlətçiliyini qorumasından gedirdi.

Bu mərhələdə diqqət yetirməli olan xüsusi bir məqam var - Osmanlı dövlətinin Azərbaycana hərbi yardım göstərməsi barədə qərar qəbul etdiyi zaman Azərbaycan ərazisində ağır döyüşlər gedirdi. Gəncə istiqamətində irəliləyən, məqsədləri yeni yaranmış hökuməti beşiyindəcə boğmaq olan bolşevik-daşnak qüvvələrinin qarşısını kəsmək üçün Azərbaycanın milli hərbi qüvvələri və könüllüləri artıq mübarizəyə başlamışdılar. Dəmir yolu xətti boyunca sürətlə irəliləyən daşnak-bolşevik qüvvələrinin qarşısı Ucar rayonunun Müsüslü kəndində kəsildi. Azərbaycanlı zabit Həbib bəy Səlimovun rəhbərlik etdiyi Müsüslü dəstəsi düşmənə ciddi müqavimət göstərdi. Bu döyüşlər Azərbaycanın özünümüdafiə qüvvələrinin formalaşması və milli hərbi qüvvələrin döyüş qabiliyyətinin ortaya çıxması baxımından mühüm əhəmiyyət daşıyırdı. Məhz belə bir şəraitdə Osmanlı dövləti Azərbaycana hərbi yardım qərarını həyata keçirməyə başladı. Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi ilə mübarizənin miqyası daha da genişləndi. Azərbaycan milli qüvvələri ilə Osmanlı hərbi hissələri birləşərək düşmənə qarşı vahid cəbhədə döyüşməyə başladılar.

Azərbaycan ərazisinə daxil olan türk hərbi hissələrinin ilk döyüş yolu Ucar-Göyçay istiqamətindən keçdi. Bu ərazilərdə aparılan ağır döyüşlərdə düşmənin müqaviməti qırıldı. Bundan sonra birgə qüvvələr geri çəkilən düşməni təqib edərək Bakı istiqamətində irəliləməyə başladılar. Hərbi əməliyyatların genişlənməsi ilə Qafqaz İslam Ordusunun tərkibində Şimal və Cənub qrupları formalaşdırıldı. Azərbaycan milli qüvvələrinin təcrübəli zabiti Həbib bəy Səlimov Cənub qrupunun komandanlığına gətirildi. Onun rəhbərlik etdiyi qüvvələr Bakı istiqamətində gedən döyüşlərdə mühüm rol oynadı.

Beləliklə, Bakıya doğru irəliləyən hərbi qüvvənin tərkibində azərbaycanlı döyüşçülər torpaqlarını və yeni yaranmış dövlətlərini müdafiə edirdilər, Osmanlı əsgərləri isə Azərbaycanın bu ağır mübarizəsində onların yanında vuruşurdular. Qarşıda isə mübarizənin əsas hədəfi Bakı idi. Məqsəd Bakını azad etməklə Azərbaycanın dövlətçilik taleyinin qorunması idi.

Azərbaycan və türk əsgərlərinin birgə mübarizəsi getdikcə daha böyük hərbi gücə çevrilirdi. İlk ağır döyüşlərdən keçən Qafqaz İslam Ordusu və Azərbaycan milli qüvvələri Göyçay istiqamətində qələbə qazandılar. Bu qələbə Bakı istiqamətində hərbi təşəbbüsün ələ keçirilməsində mühüm mərhələ oldu.

Qarşıda isə güclü müdafiə xətti, ağır döyüşlər və böyük itkilər vardı. Nəhayət, sentyabrın 14-də Bakıya həlledici hücum başladı. Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu ilə Azərbaycan milli qüvvələrinin birgə əməliyyatı sentyabrın 15-də qələbə ilə başa çatdı. Bakı azad edildi. Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlətçilik vəzifələrindən biri yerinə yetirildi. Sentyabrın 17-də Azərbaycan hökuməti Bakıda fəaliyyətə başladı.

Bakının azadlığa qovuşması böyük qələbə idi. Bu, olduqca baha başa gəlmişdi. Rəsmi tarixi mənbələrdə Qafqaz İslam Ordusunun Bakı əməliyyatı zamanı 1130 şəhid verdiyi göstərilir. Azərbaycanın istiqlaliyyəti uğrunda döyüşüb şəhid olan qəhrəmanların məzarları sonralar Bakının yaddaşına çevrildi. Türk Şəhidliyinin tikintisinə 1999-cu ildə başlanıldı, memorial 9 aprel 2000-ci ildə Ulu Öndər Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl tərəfindən açıldı.

Bu gün Bakının qoynunda ucalan Türk Şəhidliyi yalnız şəhidlərin xatirəsini yaşadan abidə deyil, eyni zamanda Azərbaycan və Türkiyə arasında tarix boyu formalaşmış qardaşlığın yaddaşıdır.

Bu gün "Bir millət, iki dövlət" ifadəsi Azərbaycan-Türkiyə münasibətlərinin ən böyük siyasi və mənəvi düsturlarından biridir. Bu ifadənin arxasında yalnız müasir dövrün münasibətləri dayanmır, onun tarixi yaddaşında qanlı hadisələrə şahidlik edən Çanaqqala da, Bakı da var. 15 sentyabr 1918-ci il isə həmin yaddaşın ən parlaq səhifələrindəndir. Həmin gün Bakının azadlığı uğrunda Azərbaycan milli qüvvələri ilə Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu birgə mübarizə aparırdı. Bu baxımdan, 15 sentyabr yalnız bir şəhərin azad edildiyi gün deyil, həm də Azərbaycan dövlətçiliyinin taleyinin həll olunduğu, Azərbaycan və Türkiyə qardaşlığının tarix qarşısında özünü bir daha təsdiq etdiyi gündür. Çanaqqaladan Bakıya uzanan yol bu mübarizənin yalnız hərbi deyil, həm də dərin mənəvi və tarixi köklərə malik olduğunu göstərir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Bakının azadlığından Qarabağın azadlığına qədər...



**Sentyabr Azərbaycan xalqının həm dövlətçilik salnaməsində, həm də ən yeni tarixində azadlıq və suverenliyin təmin olunduğu zəfər ayıdır. Ötən əsrin əvvəlində - 15 sentyabr 1918-ci ildə Bakının bolşevik-daşnak işğalından azad edilməsi ilə başlanan bu tarixi zəfər ənənəsi, müasir dövrümüzdə suverenliyimizin tam bərpası ilə özünün zirvə nöqtəsinə çatıb.**

2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsindən tutmuş, 2022-ci ilin sərhəd döyüşlərinə, 2023-cü ilin antiterror tədbirlərinə qədər müasir tariximizin ən möhtəşəm hərbi nailiyyətlərinin bir çoxu məhz bu ayda qazanılıb.

Azərbaycan sentyabrda başlayan Vətən müharibəsində onilliklər boyu davam edən işğala, BMT qətnamələrinin kağız üzərində qalmasına və beynəlxalq ikili standartlara son qoyaraq hərbi gücü ilə ədaləti özü bərpa etdi və bu tip münaqişələrin həllində dünya üçün nümunə yaratdı.

XIII Qlobal Bakı Forumunda Prezident İlham Əliyevin bəyan etdiyi kimi: "Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi".

## Suverenliyə aparan qalibiyyət yolu

Müxtəlif illərdə baş verən sentyabr qələbələri müasir tariximizin axarını dəyişən və addım-addım tam suverenliyə aparan zəfər yoludur.

2020-ci ilin 27 sentyabrında atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhəboyu Azərbaycan silahlı qüvvələrinin mövqelərinə intensiv zərbələr endirməklə yanaşı, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladılar. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhəboyu əks-hücuma keçmək əmri verdi.

44 günlük Vətən müharibəsi ərzində bircə dəfə də olmadı ki, qəhrəman döyüşçülərimiz düşmən tapdağından azad etdikləri ərazilərdən bir qarış belə geri çəkilsinlər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gücləndirdiyi ordumuz yüksək peşəkarlıq göstərərək qısa zamanda 300-dən çox yaşayış məntəqəsini və Qarabağın mirvarisi Şuşanı azad etdi. Kapitulyasiya aktına qol çəkən düşmən Ağdamı, Kəlbəcəri və Laçını döyüşsüz tərk etməyə məcbur edildi. Qarabağ zəfəri yüzminlərlə vətəndaşımızın torpaq həsrətinə son qoydu. Azərbaycan xalqı qalib xalqa çevrildi.

2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü.

İkinci Qarabağ savaşında qəhrəmancasına döyüşmüş, üçrəngli bayrağımızı Qarabağ və Şərqi Zəngəzurun zirvələrində dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başladığı günün Azərbaycanda Anım Günü kimi qeyd olunması ilə bağlı sərəncam imzaladı.

Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə 2021-ci il sentyabrın 27-də Bakıda anım yürüşünün keçirilməsi, ölkə üzrə birdəqiqəlik sükut elan edilməsi, Bakı şəhərinin ən gözəl yerlərindən birində Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulması böyük rəmzi məna daşıyırdı. Bütün bunlar şəhidlərimizin ruhuna dərin ehtiramın təcəssümü idi.

## Düşmənə tarixi dərs

Vətən müharibəsində uğradığı biabırçı məğlubiyyətdən dərs çıxarmayan Ermənistan ölkəmizə qarşı dəfələrlə hərbi təxribatlara əl atırdı və hər dəfəsində layiqli cavabı verilərək yerinə otuzdurulurdu. Düşmənin növbəti hərbi təxribatı 2022-ci ilin 12 sentyabrında baş verdi. Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirdilər. Ermənistan silahlı qüvvələri bununla yanaşı, Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki mövqelərini müxtəlifçaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutdu.

Ermənistan silahlı qüvvələrinin təxribatının və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə, döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısı alındı və Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinin susdurulması istiqamətində Azərbaycan Ordusunun bu istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görüldü. 12-13 sentyabr tarixində aparılan uğurlu əməliyyat nəticəsində düşmən qüvvələri növbəti dəfə darmadağın edildi və Azərbaycan-Ermənistan sərhədi istiqamətində əsas strateji yüksəkliklərdə Azərbaycan Silahlı Qüvvələri yerləşdi.

Sentyabr ayının qələbə silsiləsinin ən möhtəşəm səhifəsi 2023-cü ildə 23 saatlıq lokal xarakterli antiterror tədbirləri zamanı yazıldı. 19-20 sentyabr tarixlərində, cəmi bir sutka davam edən dəqiq əməliyyatla dövlət bayrağımız bütün suveren ərazilərimizdə ucaldıldı. Konstitusiyamız bütün ərazilərimizdə hüquqi qüvvəyə mindi. "Dəmir yumruq" Qarabağda separatizmin başını əzdi. Xalqımıza qarşı ağır cinayətlər törətmiş canilər qanun qarşısında cavab verməli oldular.

2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev Xankəndidə dövlət bayrağını ucaldan zaman qürurla bir daha bəyan etdi: "... Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan gerbi, Azərbaycan bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Azərbaycanın qətiyyətli qələbələri diplomatiya masasında da öz bəhrəsini verdi. Vaşinqton Zirvəsində əldə olunan razılaşmalarla regionda onilliklər boyu sürən münaqişəyə nöqtə qoyuldu. Azərbaycan hərbi-siyasi iradəsi ilə həm ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi, həm də Cənubi Qafqaza yeni və davamlı sülh modeli bəxş etdi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Meksika tərəfdaşlığı yeni mərhələyə yüksəlir

**Azərbaycanın dənizaşırı ölkələr siyasətində önəmli yerlərdən birini tutan Meksikaya hər qarışında qədim sivilizasiyaların nəfəsi duyulan, təbiətin səxavətli möcüzələri gizlənən cazibədar bir nağıllar diyarı desək, yanılmarıq. Sakit okeanın və Karib dənizinin firuzəyi sularının ağ köpüklərinin çırpıldığı bənzərsiz sahilləri, göz işləyən narın qumlu çimərlikləri, tropik meşələri və əzəmətli vulkanları ilə bu ölkə gözəlliyin coğrafi tərifinə çevrilmişdir. Burada Mayya və Astek imperiyalarının zamanın sınağından şərəflə çıxmış sirli abidələri - uca piramidalar və daş heykəltaraşlığı, şəhər qalıqları keçmişin səssiz şahidləri kimi ucalıb. Müasir kurortları isə dünyaya unudulmaz istirahət məkanı kimi təqdim edilir.**



Bu dost ölkədə son illər iqtisadi inkişaf yüksələn xətlə davam edir. 2025-ci ildə Meksikanın nominal ümumi daxili məhsulunun həcmi təxminən 1,83 trilyon dollardan çox olmuşdur. 2026-cı ildə ölkədə ümumi daxili məhsulun miqdarı təxminən 2,12 trilyon dollara çatmış və bununla da o, dünyanın 13-cü ən böyük iqtisadiyyatına çevrilmişdir. Cari ilin avqust ayında Meksikanın xarici valyuta ehtiyatları təxminən 258,48 milyard dollar təşkil edərək rekord həddə çatmışdır. 2026-cı ilin ikinci rübündə qızıl ehtiyatları 120,04 ton təşkil etmişdir.

Meksikada xidmət sektoru əsas hərəkətverici qüvvə olaraq qalır və bu sahədən əldə olunan gəlir ölkənin ümumi daxili məhsulunun təxminən 62-64 faizini təşkil edir. Eyni zamanda daxili istehlakın və pərakəndə ticarətin artımı sənaye istehsalının azaldığı dövrlərdə iqtisadiyyata dəstək olmuşdur. Meksika dünya bazarına kənd təsərrüfatı, içkilər, avtomobil, elektronika və istehlak malları sahəsində tanınmış bir çox brend və məhsullar ixrac edir. Bu ölkə dünya üzrə ən böyük avokado ixracatçısıdır.



Ölkədə sənayenin müxtəlif sahələri son texnoloji nailiyyətlər əsasında inkişaf etməkdədir. Meksika dünyanın aparıcı avtomobil istehsalçılarından və ixracatçılarından biridir. General Motors, Ford, Nissan, Volksvagen, Toyota, Mazda və Stellantis kimi nəhəng beynəlxalq brendlər Meksikada istehsal etdikləri avtomobilləri və onların ehtiyat hissələrini ABŞ, Kanada və Latın Amerikası başda olmaqla, dünya bazarlarına ixrac edirlər. Artıq Meksika qabaqcıl texnologiya məhsullarının və məişət texnikasının montajı və istehsalı üzrə mühüm mərkəzdir. Mabe (məişət texnikası) kimi yerli brendlərlə yanaşı, ölkədə istehsal olunan Samsung, LG, Sony və Whirlpool kimi qlobal markaların məhsulları da qonşu bazarlara və uzaq ölkələrə ixrac olunur.

Hazırda ABŞ Meksikanın ən böyük ticarət tərəfdaşıdır. Ölkənin ixracatının 75-80 faizə yaxını və idxalatının böyük bir hissəsi onun payına düşür. ABŞ-Kanada-Meksika Sazişi bu əlaqələrin inkişafında mühüm rol oynayır. Həmçinin Kanada adıçəkilən saziş və Şimali Amerika Azad Ticarət Sazişi çərçivəsində Meksikanın əsas ixracat və ticarət tərəfdaşlarından biridir. O, Meksikanın xüsusilə idxal sahəsində də əsas tərəfdaşlarından biridir. Çindən bu ölkəyə çox sayda elektronika, maşınqayırma məhsulları və müxtəlif sənaye malları gətirilir. Almaniya həm ixrac, həm də idxal baxımından Meksikanın Avropadakı aparıcı ticarət tərəfdaşlarından biridir. İspaniya və İtaliya da əhəmiyyətli tərəfdaşlar sırasındadır. Yaponiya və Cənubi Koreya da Asiya regionundan Meksika bazarına məhsul ixrac edən və idxal-ixrac əlaqələrində mühüm paya malik olan ölkələrdir.

Şimal qonşusu olan ABŞ ilə münasibətlər Meksikanın xarici siyasətinin həyati və mərkəzi istiqamətini təşkil edir. Ticarət, sərhəd təhlükəsizliyi, miqrasiya, mütəşəkkil cinayətkarlıq və narkotiklərlə mübarizə ikitərəfli gündəliyin əsasını təşkil edir. İki ölkə arasındakı nəhəng iqtisadi inteqrasiya Meksikanın bütün xarici iqtisadi addımlarında nəzərə alınır.

Meksika BMT başda olmaqla, qlobal platformalarda fəal iştirak edir, beynəlxalq təhlükəsizlik, iqlim dəyişikliyi, insan hüquqları və dayanıqlı inkişaf kimi məsələlərdə beynəlxalq əməkdaşlığı dəstəkləyir. O, eyni zamanda asılılığı azaltmaq və xarici ticarəti genişləndirmək məqsədilə Avropa İttifaqı, Asiya-Sakit okean regionu və digər qlobal bazarlarla iqtisadi əlaqələrin şaxələndirilməsinə çalışır.

Meksika Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 25-də tanıyıb. İki ölkə arasında diplomatik əlaqələr isə bu tarixdən qısa müddət sonra - 1992-ci il fevralın 10-da qurulub. Azərbaycan Respublikası ilə Meksika Birləşmiş Ştatları arasında müxtəlif sahələrdə əməkdaşlığı tənzimləyən ümumilikdə 5 əsas ikitərəfli sənəd imzalanıb. Həmçinin iki ölkənin rəhbərlərinin müəyyən etdiyi xarici siyasət strategiyasına uyğun olaraq müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığa dair sənəd imzalanmışdır.

2025-2026-cı illərdə Azərbaycan ilə Meksika arasındakı siyasi-diplomatik münasibətlər müxtəlif istiqamətlərdə, xüsusilə parlamentlərarası əməkdaşlıq, diaspor siyasəti və institusional təmaslar müstəvisində inkişaf etməkdədir. Coğrafi uzaqlığa və əvvəlki illərdə bəzi siyasi həssaslıqlara baxmayaraq, tərəflər ikitərəfli əlaqələrin intensivləşdirilməsinə və yeni əməkdaşlıq mexanizmlərinin yaradılmasına səy göstərirlər.

Xüsusi vurğulamaq lazımdır ki, Meksika Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini həmişə qətiyyətli və prinsipial şəkildə dəstəkləmişdir. Meksikanın bu mövqeyi xüsusilə torpaqların işğal altında olduğu dövrdə ölkəmiz üçün böyük əhəmiyyət daşımışdır. İki ölkə arasındakı münasibətlər qarşılıqlı hörmətə, beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də ərazi bütövlüyünün qorunmasına sadiqliyə əsaslanır. Meksika beynəlxalq müstəvidə və müxtəlif platformalarda Azərbaycanın haqlı mövqeyini və ərazi bütövlüyünü hər zaman müdafiə etmişdir.

Hazırda Azərbaycan və Meksika parlamentləri arasında əlaqələr iki ölkə arasında ümumi diplomatik münasibətlərin inkişafında mühüm körpü rolunu oynayır və son illərdə müsbət dinamika ilə seçilir. Qanunvericilik orqanları səviyyəsində qurulan əməkdaşlıq ikitərəfli tərəfdaşlığın dərinləşməsinə töhfə verir. Azərbaycan Milli Məclisində Meksika ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu 2005-ci ildən, Meksika Konqresinin Deputatlar Palatasında isə Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupu 2010-cu ildən fəaliyyət göstərir. Tərəflər müntəzəm olaraq qarşılıqlı səfərlər həyata keçirir, deputatlar hər iki ölkədə görüşlər keçirərək siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlıq imkanlarını müzakirə edirlər. Belə ki, Meksika parlament nümayəndə heyətləri Azərbaycana, o cümlədən işğaldan azad edilmiş ərazilərə (Şuşaya) səfərlər etmişlər. Meksika qanunverici orqanı (həm Senat, həm də Deputatlar Palatası) Azərbaycanın haqlı mövqeyini dəstəkləyən mühüm sənədlər qəbul etmişdir. Xatırladaq ki, hələ 2011-ci ildə Meksika parlamentinin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü və Xocalı soyqırımını tanıyan qətnamələr qəbul etməsi iki ölkənin parlament diplomatiyasında əlamətdar hadisə olmuşdur.

2026-cı ilin əvvəllərindən etibarən qanunvericilik orqanları xətti ilə təmaslar yeni mərhələyə qədəm qoymuşdur. Cari ilin fevral ayında Meksika Konqresinin Nümayəndələr Palatasında Meksika-Azərbaycan Dostluq Qrupunun rəsmi təsis edilməsi və fəaliyyətə başlaması ikitərəfli siyasi dialoqun gücləndirilməsi istiqamətində atılmış mühüm addımlardan biri olmuşdur. Hər iki ölkənin parlamentariləri arasında siyasi anlaşmanın, mədəni və iqtisadi mübadilənin təşviqi məqsədilə intensiv məsləhətləşmələr həyata keçirilir. Parlament diplomatiyası xalqlar arasında körpülərin yaradılmasında və hökumətlərarası əlaqələrin tamamlanmasında əsas vasitələrdən biri kimi çıxış edir. Ümumilikdə, Meksika və Azərbaycan parlamentləri arasındakı münasibətlər rəsmi diplomatik kanalları tamamlayan, xalqlar arasında dostluq körpülərini möhkəmləndirən və müxtəlif beynəlxalq platformalarda əməkdaşlığı stimullaşdıran uğurlu mexanizm kimi qiymətləndirilir.

Ayrı-ayrı dövlət və hökumət qurumları arasında da əlaqələr fəallaşır. Bu cəhətdən xarici işlər nazirlikləri səviyyəsində siyasi məsləhətləşmələrin davam etdirilməsi, beynəlxalq təşkilatlar (xüsusilə BMT) çərçivəsində qarşılıqlı anlaşmanın qorunması üçün zəmin yaradır.

Azərbaycanın qeyri-neft sektorunu inkişaf etdirmək və investisiya mənbələrini diversifikasiya etmək siyasəti çərçivəsində Latın Amerikası regionu, xüsusilə də bu regionun aparıcı iqtisadiyyatlarından biri olan Meksika ilə əlaqələr xüsusi əhəmiyyət daşıyır. Azərbaycan ilə Meksika arasında ticarət-iqtisadi əlaqələr coğrafi uzaqlığa baxmayaraq, son illərdə müəyyən dinamika nümayiş etdirir. İki ölkə arasında iqtisadi əlaqələr əsasən ticarət mübadiləsi (məsələn, kənd təsərrüfatı məhsulları, içkilər və sənaye malları) üzərində qurulub.

Azərbaycanın Meksikaya ixrac etdiyi əsas məhsullar sırasında alüminium lövhələr, müəyyən növ sənaye və kimyəvi analiz avadanlıqları üstünlük təşkil edir. Meksikadan Azərbaycana ixrac olunan əsas mallara isə maşınqayırma avadanlıqları, kompüterlər, mexaniki qurğular və digər yüksəktexnologiyalı məhsullar daxildir. Meksikadan Azərbaycana qızıl və avtomobil kimi qiymətli məhsulların da tədarükü həyata keçirilmişdir.

İki ölkə arasında birbaşa nəqliyyat və logistik xətlərin məhdud olması, həmçinin daşınma xərclərinin yüksəkliyi ticarət həcminin artmasına mane olan əsas əngəllərdən biridir. Ticarət, əsasən, üçüncü ölkələrin logistik infrastrukturu vasitəsilə həyata keçirilir. Kənd təsərrüfatı, yüngül sənaye, İKT, turizm və enerji sektorları hər iki ölkənin işgüzar dairələrinin əməkdaşlıq edə biləcəyi potensial sahələr olaraq qalır. Meksikanın qabaqcıl texnologiyaları və sənaye potensialı ilə Azərbaycanın strateji coğrafi mövqeyi və enerji resursları gələcəkdə qarşılıqlı faydalı tərəfdaşlığın genişlənməsinə zəmin yarada bilər.

2025-ci ildə Meksikaya təxminən 47,8 milyon turist səfər etmişdir. Azərbaycan turizm qurumları Latın Amerikası regionunda, xüsusilə Meksikada keçirilən nüfuzlu tədbirlərdə və turizm platformalarında iştirak etməklə ölkəmizin turizm potensialını təqdim edirlər. Azərbaycan nümayəndələri Meksikanın Akapulko şəhərində təşkil olunan aparıcı turizm tədbirlərində və sərgilərdə təmsil olunublar. Meksika turizm sənayesində, xüsusilə qonaqpərvərlik, infrastruktur və kurort idarəçiliyi sahəsində zəngin təcrübəyə malikdir. Azərbaycan bu zəngin təcrübəni bölüşmək, eləcə də turizm xidmətlərinin keyfiyyətini artırmaq üçün Meksika ilə təcrübə mübadiləsinə xüsusi önəm verir. Coğrafi uzaqlığa və birbaşa aviareyslərin olmamasına baxmayaraq, hər iki ölkə turizm mübadiləsinin artırılması, turizm agentlikləri arasında birbaşa əlaqələrin qurulması və rəqəmsal marketinq alətləri vasitəsilə səyahətçilərin cəlb edilməsi istiqamətində potensialı dəyərləndirməkdədir.

İki ölkə arasında mədəni əlaqələr mövcuddur. İki ölkənin ayrı-ayrı ali təhsil müəssisələri (məsələn, ADA Universiteti və Puebla Amerika Universiteti) arasında da müxtəlif tərəfdaşlıq memorandumları mövcuddur.

Bütün bunlar göstərir ki, Azərbaycan və Meksika arasında tərəfdaşlığın inkişafı və yeni mərhələyə qədəm qoyması ölkələri və xalqları bir-birilə yaxınlaşdırmaqla yanaşı, qlobal əməkdaşlığı və iqtisadi tərəqqini də gücləndirir. Azərbaycan-Meksika tərəfdaşlığı yeni mərhələyə yüksəlməklə bu prosesə özünün sanballı töhfəsini verir.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*

## 15 Sentyabr Bilik Günüdür

# Ölkəmizdə yeni tədris ili başlayır

### Bu gün respublikamızın orta və ali təhsil müəssisələri öz qapılarını yenidən şagird və tələbələrin üzünə açır

**Azərbaycan Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanı ilə Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınmış, həmin gün Bilik Günü elan edilmişdir.**

Bu gün ölkəmizin şəhər, rayon, qəsəbə və kəndlərində 124 min uşaq I sinfə qədəm qoyacaq. Qeyd edək ki, I sinfə qəbul elektron sistem vasitəsilə həyata keçirilib.

Ölkəmizin ali təhsil müssisələrinə isə bu il 58947 nəfər qəbul olunub. Onlardan 28108 nəfəri dövlət sifarişi əsasında, 317 dövlət hesablı, 30522 nəfəri isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

Cari ildə ölkəmizin şəhər və bölgələrində yeni tədris ili ilə əlaqədar neçə-neçə müasir məktəb binası istifadəyə verilib, bir sıra məktəblərdə isə əsaslı və cari təmir işləri aparılıb. Bu işlərin vaxtında və keyfiyyətli görülməsində Heydər Əliyev Fondunun diqqət və qayğısı əvəzsiz olmuşdur.

Fondun təhsil sahəsində həyata keçirdiyi layihələr çərçivəsində Bakı şəhəri, Xəzər rayonu 324 nömrəli tam orta ümumtəhsil məktəbi də var. Məktəbin sinif otaqları artırılıb, əlavə fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim və texnologiya otaqları, kitabxana, yeməkxana, idman meydançası və akt zalı yaradılıb. Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Bakı şəhəri, Xətai rayonu Tahir Bağırov adına 59 nömrəli tam orta ümumtəhsil məktəbi isə cari ildə əsaslı təmirdən sonra istifadəyə verilib. 1384 yerlik məktəbin 4 mərtəbəli korpusu 1036 yerlik, 2 mərtəbəli ibtidai korpusu isə 348 yerlikdir. Məktəbdə sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika otağı, müasir STEAM mərkəzi, hərbi təlim, tibb, texnologiya otaqları, müəllimlər otağı, kitabxana, yeməkxana, akt, idman və gimnastika zalları, açıq ministadion və idman meydançası fəaliyyət göstərir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə təmin olunub.

Samux rayonunun Alıuşağı kənd tam orta məktəbi də 360 yerlik yeni bina ilə müəllim və şagirdlərin istifadəsinə verilib. Fond tərəfindən inşa edilən məktəbdə sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, STEAM mərkəzi, hərbi təlim, tibb və əmək təlimi otaqları, məktəbəqədər sinif, kitabxana, yeməkxana, akt və idman zalları fəaliyyət göstərir. Məktəbin ərazisində açıq idman meydançası yaradılıb və zəruri avadanlıqlarla təchiz olunub.

Cəlilabad rayonu, Göytəpə şəhəri Vasif Hüseynov adına 2 nömrəli tam orta ümumtəhsil məktəbi də fondun dəstəyi ilə yeni inşa edilib. Üçmərtəbəli, iki korpusdan ibarət məktəb binası 624 şagird yerlikdir. Burada sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb otaqları, texnologiya kabinetləri, müəllimlər otağı, texniki otaqlar, qarderob, kitabxana, yeməkxana, akt, idman və gimnastika zalları fəaliyyət göstərir. Məktəb müasir mebel və avadanlıqlarla təchiz olunub, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təmin edilib, həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Erməni işğalından azad edilmiş ərazilərdə, Qarabağ və Şərqi Zəngəzurda yeni tikilən müasir "ağıllı məktəblər" və Qarabağ Universitetinin fəaliyyətinin genişləndirilməsi cari tədris ilinin ən böyük uğurlarındandır. Azadlığına qovuşan ərazilərimizdə açılan 15-ə yaxın müasir tipli yeni məktəblər bu gün ilk dəfə olaraq qapılarını fidan balaların üzünə açır. Şuşada, Ağdamda, Füzulidə, Laçında, Cəbrayılda, Suqovuşanda, Xocalıda, Ağdərədə, Kəlbəcərdə, Zəngilanda və digər ərazilərdə aparılan müasir tipli yeni məktəb və məktəbəqədər müəssisələrin tikintisi ictimaiyyətdə qürur və fərəh hissi doğurur.



Heydər Əliyev Fondu hər il olduğu kimi, bu il də Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə etmişdir. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki məktəblərə, həmçinin Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə də mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilmişdir. Bir sıra xarici təşkilat və şirkətlərin ("World Vision", "JP Morgan", "Exxon Mobil", Rusiyanın "Puşkin kitabxanası" Fondu) fonda hədiyyə etdikləri müxtəlif adda çoxsaylı nəşrlər ölkənin ali və ümumtəhsil məktəblərinə, uşaq evləri və internat məktəblərinin kitabxanalarına paylanmışdır. Bundan əlavə, fondun xətti ilə hər il olduğu kimi, bu il də yeni faydalı nəşrlər hazırlanaraq aidiyyəti üzrə təhsil müəssisələrinə çatdırılmışdır. Tədrisin keyfiyyətini yüksəltmək məqsədilə Azərbaycan dilində müxtəlif fənlər üzrə hər birindən 10 min nüsxə olmaqla 1 milyon 400 min ədəd plakat çap edilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə "Rəqəmsal Təhsil və İnnovasiya" layihəsi əsasında Elm və Təhsil Nazirliyi tərəfindən məktəblərdə "Rəqəmsal bacarıqlar" layihəsinin miqyası daha da genişləndirilib, şagirdlərin İKT və kodlaşdırma bilikləri artırılıb.

Fondun elm və təhsillə bağlı layihələri təkcə ölkə daxilində deyil, beynəlxalq miqyasda da həyata keçirilir. Məsələn, ötən ilin dekabr ayında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə Afrika qitəsində, Ruandanın paytaxtı Kiqali şəhəri yaxınlığında yerləşən bir məktəbə dəstək göstərildi. Həmin məktəbdə oxuyan şagirdlərə müxtəlif dərs ləvazimatları təqdim olundu, məktəb ilk dəfə olaraq internetə çıxışla təmin edildi və müasir texnologiyalar üzrə biliklərin artırılması istiqamətində tədbirlər görüldü. Bu, fondun beynəlxalq humanitar missiyasının uğurlu nümunələrindən biridir.

Azərbaycan Respublikası Prezidentinin 8 iyul 2023-cü il tarixli sərəncamına uyğun olaraq Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən birgə icra edilən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının 2025-2026-cı tədris ili üzrə namizədlərin seçimi prosesi başa çatıb. Proqrama müraciət etmiş 64 ölkədən yüzlərlə namizəd sırasından 51 ölkə üzrə 100 nəfər təhsil qrantına layiq görülüb.

Seçilmiş namizədlər əsasən ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Bakı Mühəndislik Universiteti, Naxçıvan Dövlət Universiteti, Milli Aviasiya Akademiyası və Xəzər Universiteti olmaqla Azərbaycanın 9 ali təhsil müəssisəsində müxtəlif tixtisaslar üzrə təhsil alacaqlar.

Bu proqrama əsasən, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələrin, İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələrin və milli azlıqların yaşadığı ölkələrin vətəndaşlarının 5 il ərzində Azərbaycan Respublikasının ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə təhsil almaları qərara alınıb. Sözügedən proqramın şərtlərinə əsasən, illik əsasda 100, ümumilikdə 500 nəfər xarici ölkə vətəndaşı üçün təhsil qrantının ayrılması nəzərdə tutulub.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Onur BEYHAN: "Bir respublikanın doğuşundan strateji müstəqilliyə: Azərbaycanı anlamaq"

**Türk Strateji Düşüncə Mərkəzinin (TÜMER) rəhbəri Onur Beyhanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın keçdiyi müstəqillik yolundan bəhs edən məqaləsi Türkiyənin "Kemalist Yön" jurnalının 12-ci sayında dərc olunub.**

AZƏRTAC xəbər verir ki, "İqtisadi qalxan: Heydər Əliyevin enerji şahmatı və tam müstəqillik" başlıqlı məqalədə Azərbaycanın müstəqillik mübarizəsi və Ümummilli Lider Heydər Əliyevin dövlətçilik düşüncəsi strateji perspektivdən təhlil edilib.

Türk dünyasının iki dahi lideri-Ümummilli Lider Heydər Əliyev və Türkiyə Respublikasının qurucusu Qazi Mustafa Kamal Atatürkün tarixi addımları əsasında müqayisənin aparıldığı yazıda deyilir: "Heydər Əliyevin hakimiyyətə gəlişi, sadəcə, hökumət dəyişikliyi deyil, iflasa uğramış və iflic vəziyyətinə düşən dövlət mexanizminin, tam müstəqillikçi kamalizm prinsipləri ilə diqqətçəkən şəkildə üst-üstə düşən "Dövlətin yenidən qurulması" prosesinin başlanğıcı idi".




Yazıda Türkiyə baxımından da Azərbaycanın tarix, dövlətçilik düşüncəsi və geosiyasi reallığın birlikdə qiymətləndirilməsi ilə ələ alınmasının vacibliyini vurğulayan Beyhan araşdırmasında Azərbaycanın keçmişini öyrənməyin gələcəyin Avrasiyasını oxumaq baxımından mühüm əhəmiyyət daşımasına diqqət çəkib.

Müəllif türk dünyasının geosiyasi gələcəkdə tam müstəqillik məqsədinə çatması üçün hərbi və iqtisadi gücün institusional kimlik və milli təhsil siyasəti ilə möhkəmləndirilməsinin vacibliyini vurğulayıb.

## Ötən həftənin icmalı

# Qızıldan kağıza, Trans-Xəzərdən "yaşıl enerji"yə

Ötən həftə Azərbaycanın iqtisadi gündəliyində daxili iqtisadi fəallığı və xarici əlaqələrin genişlənməsini göstərən bir sıra mühüm hadisələr baş verib. Həftə ərzində investisiya, sənaye, ixrac, nəqliyyat və regional əməkdaşlıq istiqamətlərində yeni addımlar atılıb, iqtisadi inkişafın müxtəlif sahələrində əldə olunan nəticələr diqqət çəkib. Baş verən proseslər ölkə iqtisadiyyatında artım meyillərinin və yeni əməkdaşlıq imkanlarının davam etdiyini göstərib.

Həftənin əvvəlində Bakıda qlobal iqlim çağırışlarına həsr olunan Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW) işə başlayıb. "SOCAR Green"in əsas tərəfdaşlığı ilə keçirilən tədbir bu il ilk dəfə BMT-nin İqlim Həftəsi ilə paralel təşkil olunub.

Üçüncü dəfə keçirilən BCAW çərçivəsində hökumət və özəl sektor nümayəndələri, investorlar, beynəlxalq təşkilatlar, akademik dairələr və digər tərəflər bir araya gəlib. Tədbirdə iqlim fəaliyyətinin konkret nəticələrə çevrilməsi, yeni tərəfdaşlıqların qurulması və "yaşıl layihə"lər üçün investisiya imkanlarının genişləndirilməsi əsas müzakirə mövzularından olub.

* * *

Azərbaycanın Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büroda (BIPM) rəsmi üzv kimi dövlət statusu əldə etməsi həftənin iqtisadi gündəmində yer alıb. Bununla ölkəmizin 2015-ci ildən mövcud olan assosiativ üzvlüyü yeni mərhələyə keçib.

Yeni status Azərbaycanın milli metrologiya sisteminin beynəlxalq səviyyədə tanınmasını, beynəlxalq metroloji qərarların qəbulunda birbaşa iştirakını və milli etalon bazasının qabaqcıl beynəlxalq təcrübə əsasında inkişaf etdirilməsini genişləndirir. Bu addım həmçinin ölçmə və kalibrləmə imkanlarının beynəlxalq sistemə daha sıx inteqrasiyasına şərait yaradacaq.

Qeyd edək ki, "Metrik Konvensiya" 1875-ci il mayın 20-də Paris şəhərində imzalanıb və müasir beynəlxalq metrologiya sisteminin əsasını təşkil edir. Konvensiya çərçivəsində fəaliyyət göstərən Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büro (BIMP) dünyada ölçmələrin vəhdətinin təmin olunması, beynəlxalq etalonların qorunması və milli metrologiya institutları arasında əməkdaşlığın əlaqələndirilməsini həyata keçirir.

* * *

Ötən həftənin mühüm hadisələrindən biri "AzerGold" QSC-nin Qafqazın ən böyük qızıl yataqlarından biri hesab olunan "Söyüdlü"də (Zod) istismarın növbəti mərhələsinə keçməsi olub. Yataqda ilk qazma-partlayış əməliyyatı həyata keçirilib.

JORC standartlarına uyğun hesablamalara əsasən, yatağın çıxarıla bilən qalıq ehtiyatları 1,03 milyon unsiya təşkil edir. Hazırda filizin emalı üzrə flotasiya texnologiyasının tətbiqini nəzərdə tutan layihə üzrə texniki-iqtisadi qiymətləndirmələr aparılır. Layihə üzrə hazırda 236 nəfərin məşğulluğu təmin edilib. Yatağın ilkin istismar və tikinti mərhələsində 2026-2029-cu illərdə təxminən 700 nəfərin, tam istismar mərhələsində isə 1300-dən çox şəxsin birbaşa və dolayı yolla işlə təmin olunması gözlənilir.

* * *

Mədən sənayesində yeni istehsal mərhələsinə keçidlə yanaşı, neftdənkənar sahədə də yeni istehsal güclərinin yaradılması istiqamətində mühüm addımlar atılıb. Sentyabrın 10-da Qaradağ rayonunda "Fabriora Group" MMC-nin kağız və gigiyenik məhsullar istehsalı müəssisəsinin açılışı olub. Prezident İlham Əliyev müəssisənin açılışında iştirak edib. Qeyd edək ki, layihəyə 27 milyon manat investisiya qoyulub.

Müəssisədə uşaq bezləri, salfetlər və digər gigiyenik məhsullar istehsal ediləcək. Almaniya, İtaliya və Türkiyənin müasir texnologiyalarının tətbiq olunacağı istehsal sahəsində 240 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. İstehsal olunan məhsulların daxili bazarla yanaşı, Gürcüstan, Qazaxıstan, Rusiya, Yaxın Şərq və digər xarici bazarlara ixracı planlaşdırılır. Layihə çərçivəsində investisiya təşviqi sənədi əsasında avadanlıq idxalına görə 1 milyon manat həcmində ƏDV və gömrük güzəşti də tətbiq olunub.

* * *

Həftəsonu Bakıda keçirilən Türkiyə-Azərbaycan V Enerji Forumunda bildirilib ki, iki ölkə arasında enerji tərəfdaşlığı neft-qaz layihələri ilə yanaşı, elektrik enerjisi və "yaşıl enerji" dəhlizlərinin inkişafı, elektrik sistemlərinin inteqrasiyası və enerji bağlantılarının gücləndirilməsi istiqamətində də davam etdirilir.

Qeyd olunub ki, indiyədək Azərbaycandan Türkiyəyə və Türkiyə üzərindən beynəlxalq bazarlara 561 milyon ton neft və 196 milyard kubmetr qaz tədarük edilib. Bu ilin ilk 8 ayında isə Türkiyəyə 6,2 milyard, Türkiyə üzərindən Avropaya 7,5 milyard, Suriyaya isə 1 milyard kubmetr Azərbaycan qazı nəql olunub.

Forumda Xəzər və Mərkəzi Asiyanın "yaşıl enerji"sinin Azərbaycan və Türkiyə üzərindən Avropaya çatdırılması perspektivləri də diqqət mərkəzində olub. Türkiyə şirkətlərinin Azərbaycanın "yaşıl enerji" sektorunda iştirakının genişləndirilməsinin vacibliyi vurğulanıb. Tədbirin sonunda Türkiyə-Azərbaycan V Enerji Forumunun Protokolu imzalanıb.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# İqlim dəyişikliyi yalnız ekoloji problem deyil

**İqlim dəyişikliyinin nəticələri artıq bu gün dünyanın müxtəlif nöqtələrində rekord istilər, uzunmüddətli quraqlıqlar, güclü daşqınlar, meşə yanğınları, su çatışmazlığı və kənd təsərrüfatında itkilər şəklində özünü göstərir. Bir vaxtlar alimlərin və ekoloqların müzakirə etdiyi qlobal istiləşmə indi iqtisadiyyatdan səhiyyəyə, ərzaq təhlükəsizliyindən miqrasiyaya qədər həyatın demək olar ki, bütün sahələrinə təsir edən problemə çevrilib. Elmi qiymətləndirmələr isə xəbərdarlıq edir ki, temperaturun hər əlavə artımı ilə risklər də yüksəlir və bəzi dəyişikliklərin geri qaytarılması getdikcə çətinləşir.**

Ümumdünya Meteorologiya Təşkilatının 2026-cı ilin martında açıqladığı "Qlobal İqlimin Vəziyyəti 2025" hesabatı vəziyyətin miqyasını aydın göstərir. Hesabata görə, 2015-2025-ci illər müşahidələr tarixinin ən isti dövrü olub. 2025-ci ildə Yer səthində orta temperatur sənayeləşmədən əvvəlki 1850-1900-cü illər səviyyəsindən təxminən 1,43 dərəcə yüksək olub və həmin il tarixdə ikinci və ya üçüncü ən isti il kimi qeydə alınıb. Okeanlarda toplanan istilik də 2025-ci ildə müşahidələrin aparıldığı 66 illik dövrün ən yüksək səviyyəsinə çatıb. 2024-cü ildə isə atmosferdə karbon qazı, metan və azot oksidinin konsentrasiyası son 800 min ilin ən yüksək göstəricilərinə yüksəlib.

İqlim sistemində baş verən dəyişikliklər, sadəcə, havanın bir qədər isinməsi demək deyil. Atmosfer və okeanlarda əlavə enerjinin toplanması təbiətdəki tarazlığı dəyişir. Nəticədə bəzi ərazilərdə daha uzun və intensiv istilik dalğaları, başqa yerlərdə güclü yağıntılar və daşqınlar, quraqlığa meyilli regionlarda isə su qıtlığı və torpaq deqradasiyası daha ciddi problemə çevrilir. İqlim dəyişikliyi artıq dünyanın müxtəlif bölgələrində su və ərzaq təhlükəsizliyinə mənfi təsir göstərir. Quraqlıq, daşqın və istilik dalğalarının tezliyi və şiddətinin artması kənd təsərrüfatı məhsuldarlığına, ərzağın qiymətinə və insanların dolanışığına təsir edir. İstiləşmənin hər əlavə dərəcəsi bu riskləri daha da böyüdür.

Ən ciddi təhlükələrdən biri su ilə bağlıdır. Temperatur yüksəldikcə buxarlanma artır, yağıntı rejimi dəyişir, qar və buz ehtiyatlarının ərimə müddəti fərqlənir. Bir tərəfdən, quraqlıq və su çatışmazlığı dərinləşir, digər tərəfdən, qısa müddətdə düşən intensiv yağıntılar daşqın riskini artırır. Su qıtlığı isə təkcə insanların içməli su təminatına deyil, kənd təsərrüfatına, energetikaya, sənayeyə və bütövlükdə iqtisadi sabitliyə təsir göstərir.

İqlim dəyişikliyinin təsirlərindən Azərbaycan da kənarda deyil. Son 30 ildə ölkəmizdə isti və quru küləklərin sayı 14 dəfə artıb, quraqlıqların davametmə müddəti isə 20 faizdən çox uzanıb, dolu hadisələrinin sayı isə üç dəfədən çox artıb. Yağıntıların qeyri-bərabər paylanması və intensivliyinin dəyişməsi kənd təsərrüfatı, su ehtiyatları, ekosistemlər, insan sağlamlığı və infrastruktura əlavə risklər yaradır. Ölkəmiz üçün xüsusilə həssas məsələlərdən biri su təhlükəsizliyidir. Dünya Bankının qiymətləndirməsinə əsasən, Azərbaycanın demək olar ki, bütün ərazisi quraqlıq və su çatışmazlığı riskinə məruz qalır və ekstremal hava hadisələrinin güclənməsi fonunda bu risklərin artacağı gözlənilir. Su ehtiyatlarının böyük hissəsinin transsərhəd mənbələrdən asılı olması məsələni daha da mürəkkəbləşdirir. Dünya Bankının su ehtiyatlarının idarə olunmasına dair hesabatında Azərbaycanın orta illik bərpaolunan şirin su ehtiyatlarının təxminən 32 kubkilometr olduğu, bunun yalnız 8 kubkilometrə yaxınının ölkə daxilində formalaşdığı göstərilir.

Xəzər dənizində baş verən proseslər də diqqət mərkəzindədir. Dənizin səviyyəsindəki dəyişikliklər yalnız sahil xəttinə deyil, biomüxtəlifliyə, balıq ehtiyatlarına, limanlara və sahilyanı infrastruktura təsir göstərə bilər. Azərbaycanın rəsmi iqlim sənədlərində Xəzərin ekosistemləri və sahilyanı ərazilər iqlim dəyişmələrinə həssas sahələr sırasında göstərilir. Ölkənin NDC 3.0 sənədində də su səviyyəsindəki dəyişikliklərin balıqların yaşayış mühitini azalda və daxili balıqçılığın məhsuldarlığına mənfi təsir göstərə biləcəyi qeyd edilir. İqlim dəyişmələrinin su ekosistemlərinə təsirinin getdikcə daha çox hiss olunduğu bir vaxtda Bakı bir daha beynəlxalq iqlim dialoqunun mühüm ünvanlarından birinə çevrildi. Sentyabrın 7-dən 11-dək paytaxtımız BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının dördüncü İqlim Həftəsinə - "Climate Week 4"ə evsahibliyi etdi. UNFCCC-nin məlumatına görə, iqlim həftələri hökumətləri, beynəlxalq təşkilatları, biznesi, ekspertləri və digər maraqlı tərəfləri bir araya gətirməklə qəbul olunmuş iqlim qərarlarının praktik icrasını sürətləndirmək, təcrübə mübadiləsi aparmaq və innovativ həlləri nümayiş etdirmək məqsədi daşıyır. Tədbirdə keçidi, iqlim maliyyəsi, sənayenin karbonsuzlaşdırılması, dayanıqlı şəhərlər və nəqliyyat, su ehtiyatları, kənd təsərrüfatı, uyğunlaşma və şəffaflıq kimi məsələlər müzakirə olunur. Bu, 2026-cı ildə keçirilən ikinci belə qlobal görüşdür, əvvəlki İqlim Həftəsi 21-25 aprel tarixlərində Koreya Respublikasının Yeosu şəhərində təşkil edilmişdir.

Bakının qlobal iqlim gündəmindəki rolu 2024-cü ilin noyabrında keçirilmiş COP29-dan sonra xüsusilə güclənib. Təxminən 200 ölkənin iştirak etdiyi tədbirdə əldə olunan mühüm nəticələrdən biri uzun illər davam edən danışıqlardan sonra Paris Sazişinin 6-cı maddəsi üzrə karbon bazarlarının fəaliyyət qaydalarının tamamlanması oldu. Bu mexanizmlər ölkələr arasında emissiyaların azaldılması nəticələrinin ötürülməsi və karbon kreditləri bazarının daha aydın qaydalarla işləməsi üçün hüquqi çərçivəni gücləndirdi. Beləliklə, Bakı danışıqları iqlim maliyyəsinin artırılması ilə yanaşı, beynəlxalq karbon bazarlarının praktik fəaliyyətə keçməsi baxımından da mühüm mərhələ oldu.

İqlim dəyişikliyi ilə mübarizənin iki əsas istiqaməti var: istiləşməni yaradan istixana qazı emissiyalarını azaltmaq və artıq qaçılmaz olan dəyişikliklərə uyğunlaşmaq. Birincisi, bərpaolunan enerjinin genişləndirilməsini, enerji səmərəliliyini, nəqliyyat və sənayenin karbonsuzlaşdırılmasını tələb edir. İkincisi isə, su ehtiyatlarının daha səmərəli idarə olunması, müasir suvarma sistemləri, quraqlığa davamlı kənd təsərrüfatı, şəhərlərdə yaşıllığın artırılması, erkən xəbərdarlıq sistemlərinin gücləndirilməsi və infrastrukturların ekstremal hava hadisələrinə davamlı qurulmasını nəzərdə tutur. Azərbaycanın qarşısında da həm risklər, həm də imkanlar dayanır. Ölkəmiz günəş və külək enerjisi potensialından istifadəni genişləndirir, iqtisadiyyatın şaxələndirilməsi və aşağıkarbonlu inkişaf istiqamətində yeni layihələr həyata keçirir. Azərbaycanın 2025-ci ildə təqdim etdiyi sənəddə 2035-ci il üçün istixana qazı emissiyalarının 1990-cı il səviyyəsi ilə müqayisədə 40 faiz azaldılması hədəfi müəyyənləşdirilib. Bu hədəfin həyata keçirilməsi maliyyə dəstəyi, texnologiyaların mövcudluğu və transferi kimi şərtlərlə əlaqələndirilir.

İqlim böhranının əsas xüsusiyyəti onun sərhəd tanımamasıdır. Bir ölkədə baş verən quraqlıq dünya ərzaq qiymətlərinə, başqa regiondakı daşqın beynəlxalq təchizat zəncirlərinə, dəniz səviyyəsindəki dəyişiklik isə milyonlarla insanın yaşayışına təsir göstərə bilər. Buna görə iqlim dəyişikliyi ilə mübarizə yalnız ekoloji siyasət deyil, eyni zamanda iqtisadi, sosial və təhlükəsizlik məsələsidir. Bakıda keçirilən COP29-dan iki il sonra şəhərin yenidən BMT İqlim Həftəsinə evsahibliyi etməsi də qlobal iqlim gündəmində əsas sualın dəyişdiyini göstərir. Dünya artıq təhlükənin mövcud olub-olmadığını müzakirə etmir. İndi əsas məsələ onun qarşısını almaq və qaçılmaz nəticələrinə uyğunlaşmaq üçün nə qədər sürətli və nə qədər birlikdə hərəkət edə biləcəyimizdir. Çünki iqlim dəyişikliyinin fəsadları gələcəyin proqnozu olmaqdan çıxaraq bu günün reallığına çevrilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Şəhid övladları Şuşa və Xankəndiyə səfər etmişlər




**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən hərtərəfli dövlət qayğısı sosial siyasətin mühüm istiqamətlərindən biri kimi daim diqqətdə saxlanılır.**

Şəhidlərin əziz xatirəsinin uca tutulması, onların ailə üzvlərinin, xüsusilə övladlarının qayğı ilə əhatə olunması dövlət siyasətinin əsas prioritetlərindəndir. Bu istiqamətdə Şəmkir rayonunda da müxtəlif tədbirlər həyata keçirilir. Rayon icra hakimiyyəti tərəfindən şəhid ailələri ilə mütəmadi görüşlər təşkil edilir, şəhid övladlarının müxtəlif sosial, mədəni və maarifləndirici tədbirlərdə iştirakı təmin olunur.

Şəhid övladlarına göstərilən diqqət və qayğının davamı olaraq hazırda Şəmkir Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Onlar bizə əmanətdir" adlı sosialyönümlü layihə həyata keçirilir. Layihənin məqsədi şəhid övladlarının asudə vaxtlarının səmərəli təşkili, onların dünyagörüşünün formalaşdırılması, tarixi-mədəni irsimizin daha yaxından tanıdılması və müxtəlif sosial tədbirlərə cəlb olunmasıdır.

Layihə çərçivəsində növbəti tədbir şəhid övladları üçün Şuşa və Xankəndi şəhərlərinə ekskursiyanın təşkili olmuşdur. Ekskursiya zamanı uşaqlar Xankəndi şəhərində Zəfər Parkı, Qarabağ Universiteti və şəhərin digər görməli yerlərini ziyarət etmiş, aparılan genişmiqyaslı quruculuq işləri ilə tanış olmuşlar. Sonra Şuşaya gələn uşaqlar Cıdır düzü, Şuşa qalası, Gövhər ağa məscidi ilə yaxından tanış olmuşlar.

Səfər zamanı uşaqlar üçün Azərbaycanın tarixi torpaqlarında əldə olunmuş Zəfərin nəticələrini əyani şəkildə görmək, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləri ilə daha yaxından tanış olmaq imkanı yaranmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Neftçalada keçirilən tədbirdə aqrar məsələlər nəzərdən keçirilib

**Sentyabrın 10-da "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin Neftçala rayonunda icrasının təmin edilməsi istiqamətində görülən işlərlə yerində tanış olmaq məqsədilə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Məmmədiyə Məmmədov, Neftçala Rayon İcra Hakimiyyəti başçısının 16 iyul 2026-cı il tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının üzvləri, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin yerli qurumlarının rəhbərləri rayonun 3 iri fermer təsərrüfatına baş çəkiblər.**



Göstərilən diqqət və qayğıya görə dövlət başçısına təşəkkür edən zəhmətkeş fermer və sahibkarlar kənd təsərrüfatının inkişafına göstərilən davamlı dövlət dəstəyini yüksək qiymətləndirərək bu sahəyə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Onlar dövlətin qayğısını daim hiss etdiklərini qeyd edərək aqrar sahənin inkişafı naminə bundan sonra da əzmlə çalışacaqlarını bildiriblər.

Tədbirin davamı olaraq rayon icra hakimiyyətinin inzibati binasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan təsərrüfatların və emal müəssisələrinin, aidiyyəti dövlət qurumlarının yerli nümayəndələrinin, Əlaqələndirmə Qərargahının üzvlərinin iştirakı ilə görüş keçirilib. Tədbirin məqsədi zona müşavirəsində irəli sürülmüş təşəbbüslərin icra vəziyyətini, habelə dövlət proqramı çərçivəsində həyata keçirilən digər tədbirlərə dair məlumatların diqqətə çatdırılması olub.

Giriş nitqi ilə çıxış edən Neftçala RİH başçısı Mirhəsən Seyidov Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirəni xatırladaraq ölkədə aqrar sahənin inkişafı, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və kənd təsərrüfatının dayanıqlılığının təmin edilməsi istiqamətində qarşıya qoyulan vəzifələrin əhəmiyyətini vurğulayıb. M.Seyidov dövlət başçısının müəyyən etdiyi prioritetlərə uyğun olaraq Neftçala rayonunda görülən işlər barədə məlumat verib. O bildirib ki, rayonda kənd təsərrüfatının inkişafını sürətləndirmək, əkin sahələrindən səmərəli istifadə etmək, məhsuldarlığı artırmaq və mövsümi işləri əlaqələndirmək məqsədilə xüsusi qərargah yaradılıb. Qərargah tərəfindən fermerlərin və torpaq mülkiyyətçilərinin qarşılaşdıqları problemlərin operativ həlli istiqamətində addımlar atılır, sahibkarlarla mütəmadi görüşlər keçirilir və rayon üzrə dövlət proqramının icrasına dair konkret hədəflər uğurla reallaşdırılır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Məmmədiyə Məmmədov çıxışında dövlət proqramının ölkənin aqrar potensialından maksimum səmərəli istifadə etmək və qlobal çağırışlara cavab vermək məqsədilə hazırlanmış genişhəcmli fəaliyyət planı olduğunu qeyd edib. Məmmədiyə Məmmədov vurğulayıb ki, dövlət başçısı tərəfindən müəyyən edilmiş prioritet istiqamətlər və yeni dövlət proqramı kənd təsərrüfatının müasir standartlara uyğun inkişafını, innovativ yanaşmaların tətbiqini və kənd yerlərində məşğulluğun genişləndirilməsini nəzərdə tutur. O deyib: "Natiqlərin sözlərinə görə, bu strateji hədəflər zəngin aqrar ənənələrə, əlverişli təbii-iqlim şəraitinə və böyük istehsal potensialına malik Neftçala rayonunda kənd təsərrüfatının rəqabət qabiliyyətinin daha da yüksəldilməsini, aqrar sahibkarlığın genişləndirilməsini və istehsalın keyfiyyətcə yeni mərhələyə keçməsini zəruri edir".

Daha sonra dövlət proqramının rayon üzrə icrası ilə əlaqədar Neftçala Rayon İcra Hakimiyyəti başçısının 16 iyul 2026-cı il tarixli 80 nömrəli sərəncamı ilə təsdiq edilmiş "İş planı"na əsasən görülmüş tədbirlər barədə təqdimat hesabatı diqqətə çatdırılıb. Neftçalalı fermer və sahibkarlar dövlət proqramının icrasına yaxından qoşulacaqlarını bildirib, nəzərdə tutulan tədbirlərin uğurla reallaşdırılması üçün bütün potensiallarını səfərbər edəcəklərini vurğulayıblar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Şəhid anası yeni evində ziyarət edilib

**İkinci Qarabağ müharibəsi şəhidi Vüqar İlham oğlu Babayev 4 iyul 2001-ci ildə Bakının Köhnə Günəşli massivində - Xətai rayonunda adi bir ailədə dünyaya göz açıb. Atalarını erkən itirən İlqar və ondan 7 yaş kiçik Vüqarı anaları Sevil xanım boya-başa çatdırıb.**



Dayısı da hərbçi olan Vüqar hələ kiçik yaşlarından yetkin düşüncəsi, ağlı ilə nümunəvi uşaq olub. 5 yaşı olanda deyib ki, dayım kimi hərbçi olacağam, şəhid olub ailəmizin başını uca edəcəyəm. Sidq-ürəkdən ibadət edər, oruc tutarmış. Kasıbçılıqla böyüsə də, Kərbəla ziyarətinə getmişdi. Qardaşı İlqar onu kiçik qardaşı deyil, böyük qardaş hesab edir, ona güvənirdi. 18 yaşında əsgərliyə gedəndə deyib ki, Mübariz İbrahimov kimi igidlik göstərməyi arzulayır. 2020-ci ilin 27 sentyabrında antiterror əməliyyatı başlayanda xidmət etdiyi hərbi hissədə komandirlərinin böyük etimadını qazanmış bir çavuş kimi döyüşə başlamışdı. Komandirini qoruma mövqeyində düşmənin snayper gülləsinə tuş gələn Vüqar oktyabrın 2-də Füzuli istiqamətində gedən ölüm-dirim savaşında şəhidlik zirvəsinə ucaldı. Ölümündən sonra Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Məzarı Bakıda, İkinci Fəxri xiyabandadır. Hər il ad günündə və anım günündə ailə üzvləri, qonşular, məhəllə sakinləri, dostları qəbrini gül-çiçəyə qərq edirlər.

Ölkəmizdə şəhidlərin xatirəsi uca tutulur. Ailə üzvləri dövlət qayğısı ilə əhatə olunur. Lənkəran şəhərində şəhid ailələri üçün tikilmiş binada Vüqarın anasına da ev verilib və Sevil xanım Lənkəranda müvafiq işlə təmin edilib. Axı Vüqargilin ailəsi əslən Lənkərandandır. Sentyabrın 10-da Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Vətən uğrunda canından keçmiş şəhid Babayev Vüqar İlham oğlunun anası Babayeva Sevil Qulam qızı ilə görüşüb. İcra başçısı şəhid anasını Lənkəran şəhərindəki yeni mənzilində ziyarət edib.

Ziyarət zamanı şəhid ailəsinin qayğı və problemləri ilə yaxından maraqlanan Taleh Qaraşov dövlətin hər zaman şəhid ailələrinin yanında olduğunu, onlara göstərilən diqqət və qayğının prioritet təşkil etdiyini vurğulayıb.

Şəhid anası Sevil Babayeva da öz növbəsində onlara göstərilən davamlı dəstəyə görə, ölkə rəhbərliyinə minnətdarlığını bildirib. O, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqətini hər zaman hiss etdiklərini qeyd edərək Ali Baş Komandana və dövlətimizə dərin təşəkkürünü ifadə edib.

***Seyran QUBADOĞLU,***
***"Azərbaycan"***

## Mingəçevirin işıqlı məzunları

### Bu il şəhər üzrə 3 sinfin bütün məzunları ali məktəblərə qəbul olunmuşlar

**Mingəçevir Şəhər İcra Hakimiyyətində ümumtəhsil məktəblərinin məzunları, bu il 600-dən yuxarı bal toplayaraq ali məktəblərə qəbul olan tələbələrlə görüş keçirilib.**

Görüşü açan ŞİH-in başçısı İlham İsmayılov şəhərin ümumtəhsil məktəblərinin yüksək bal toplayaraq ali məktəblərə qəbul olan məzunlarını və onların valideynlərini, müəllimləri təbrik edib. Qeyd edib ki, Azərbaycanda təhsil sahəsində aparılan islahatlar təhsil sahəsində uğurların artması, şagird və tələbələrin nailiyyətlərinin yüksəlməsi ilə müşayiət olunur: "Gənclər cəmiyyətin sabahının yaradıcılarıdır. Ümummilli Lider Heydər Əliyev gənclərin müasir dövrün tələblərinə uyğun formalaşmasına həmişə xüsusi diqqət verib. Ulu Öndərin Azərbaycana rəhbərliyi illərində yüzlərlə yeni məktəb binası, ali məktəblər üçün müasir korpuslar tikilərək istifadəyə verilib. Ulu Öndərin apardığı işlər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlbəil təhsilə, gəncliyə, onların təhsilinə qayğı və diqqət artır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu təhsil sahəsində müxtəlif layihə və proqramlar həyata keçirir. Təsadüfi deyil ki, fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır".

Tədbirdə məlumat verildi ki, bu il Mingəçevir şəhəri üzrə XI sinifləri 1455 nəfər bitirmişdir. Onlardan 715 nəfəri ali məktəbə qəbul olmuşdur. 38 mingəçevirli məzun 600 baldan yuxarı nəticə əldə etmişdir. Onlardan bir nəfəri isə ölkə üzrə ən yüksək nəticə - 700 bal toplamışdır. 4 nömrəli tam orta məktəbin, Texniki və Humanitar Fənlər Liseyinin hər birində bir sinfin, Təbiət-Riyaziyyat Humanitar Fənlər Təmayüllü Liseyinin iki sinfinin bütün şagirdləri 100 faiz nəticə göstərərək ali məktəblərə qəbul olmuşlar.



Azərbaycan gənci təkcə təhsil və idmanda deyil, hər sahədə nümunə göstərir, milli-mənəvi dəyərlərimizə sadiqliyini nümayiş etdirir. Azərbaycan gəncləri Vətən torpaqlarının keşiyində durur, onu göz bəbəkləri kimi qoruyurlar. Birinci və İkinci Qarabağ müharibələrində, Aprel döyüşlərində, antiterror əməliyyatında Azərbaycan gəncləri fədakarlıq göstəriblər, canları, qanları ilə böyük Zəfəri qazanıblar. Yeri gəlmişkən, qeyd edək ki, bu il ali məktəblərə qəbul olan mingəçevirlilər sırasında bir şəhid və iki qazi övladı da var.

Görüşdə çıxış edənlər Mərkəzi Aran Regional Təhsil İdarəsinin Mingəçevir Şəhər Təhsil sektorunun müdiri Rüstəm Aslanov, Təbiət-Riyaziyyat Humanitar Fənlər Təmayüllü Liseyin direktoru Aidə İsmayılova, 689 balla Tibb Universitetinə qəbul olan Nəzrin Abdullayevanın valideyni Günay Abdullayeva, Texniki Humanitar Fənlər Liseyinin müəllimi, rəhbərlik etdiyi sinfin bütün şagirdləri ali məktəbə qəbul olmuş Günay Əliyeva, Vətən müharibəsi qazisi Pərviz Məmmədov, Əməkdar müəllim Mayıl İsmayılov müəllimləri, valideynləri, gəncləri təbrik edərək xoş arzularını çatdırıblar.

Təbiət-Riyaziyyat Humanitar Fənlər Təmayüllü Liseyin məzunu, 675 bal toplayaraq Bakı Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsinə daxil olan Cabbar Cabbarov əldə etdiyi nailiyyətlərə görə valideynlərinə və müəllimlərinə, xüsusən gənclərə dəstək olan, hər zaman diqqət və qayğı göstərən Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib, yüksək təhsili ilə buna cavab verəcəyini bildirib.

Tədbirin sonunda yüksək nəticə göstərmiş tələbələrə şəhər icra hakimiyyətinin xatirə hədiyyələri təqdim edilib.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Goranboyda aqrar sahədə dron texnologiyalarının tətbiqinə həsr edilmiş tədbir keçirilmişdir

**Goranboy Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM), Əkinçilik Elmi-Tədqiqat İnstitutunun və BİMEXTECH MMC-nin birgə təşkilatçılığı ilə aqrar sahədə fəaliyyət göstərən fermerlərin iştirakı ilə "Dron texnologiyalarından istifadə etməklə əkin sahələrində herbisid və gübrə tətbiqinin optimallaşdırılması" mövzusunda maarifləndirici tədbir keçirilmişdir.**



Tədbir müasir texnologiyaların kənd təsərrüfatında tətbiqinin genişləndirilməsi, fermerlərin innovativ yanaşmalar barədə məlumatlandırılması və dronlardan istifadə etməklə əkin sahələrində herbisid və gübrələrin daha dəqiq, səmərəli və optimal şəkildə tətbiqinin təşviq edilməsi məqsədilə təşkil edilmişdir. Burada dron texnologiyalarının əkin sahələrinin monitorinqində, bitkilərin vəziyyətinin qiymətləndirilməsində, herbisid və gübrələrin ehtiyac olan sahələrə dəqiq dozada tətbiqində yaratdığı imkanlar barədə fermerlərə ətraflı məlumat verilmiş, bu texnologiyaların aqrar istehsalda resurslardan səmərəli istifadəyə, məhsuldarlığın artırılmasına və xərclərin optimallaşdırılmasına verdiyi töhfələr diqqətə çatdırılmışdır.

Tədbir çərçivəsində fermerlərin sualları da cavablandırılmış, onları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmış və müasir aqrotexnoloji yeniliklərin təsərrüfatlarda tətbiqi ilə bağlı praktiki məlumatlar təqdim olunmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Hacıqabulda yeni aqrar dövlət proqramının icrası müzakirə olunub

**"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrasının gedişini öyrənmək üçün Prezident Administrasiyasının sektor müdiri Məmmədiyə Məmmədov, Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov və rayonun müvafiq qurumlarının nümayəndələri bir sıra istehsal və emal müəssisələrində olublar.**



"Hajigabul Greenhouse" MMC, "Azerbrood" MMC, "Pirsaat Quşçuluq" MMC, "Hacıqabul Quşçuluq Şirkəti" MMC, "Angus Heyvandarlıq və Agro" MMC, "İlk Agro və Heyvandarlıq" MMC, "Red Valley" MMC ("Mina Şirin"), "Agro Dairy" MMC və "Azərsun Holdinqin Şamaxı Aqroparkı"nda adıçəkilən dövlət proqramından irəli gələn vəzifələrin icrası, yeni istehsal güclərinin yaradılması, müasir texnologiyaların tətbiqi, məhsuldarlığın artırılması və ixrac imkanlarının genişləndirilməsi istiqamətində görülən tədbirlər müzakirə edilib, qarşıda duran hədəflərin reallaşdırılması üçün tövsiyələr verilib. Bildirilib ki, dövlət proqramının regionlarda icrasına nəzarətin gücləndirilməsi mövcud problemlərin operativ həlli və kənd təsərrüfatı sahəsində dayanıqlı inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra geniştərkibli iclas olub. İclasda Sevindik Hətəmov və Məmmədiyə Məmmədov çıxış edərək dövlət proqramının icrası istiqamətində görülən işlər, qarşıda duran vəzifələr və mövcud problemlərin həlli yolları barədə ətraflı məlumat veriblər. İclasda həmçinin müəssisələrdə aparılan işlərin nəticələri müzakirə olunub, qarşıdakı illərdə dövlət proqramının icrası üçün konkret tapşırıqlar verilib.

***S.CAVADOV,***
***"Azərbaycan"***

BEYNƏLXALQ HƏYAT

# ABŞ Milli Təhlükəsizlik Agentliyi geniş yenidənqurmaya başlayır

## Bu, beş yeni direktorluğun yaradılmasını nəzərdə tutur

**ABŞ Milli Təhlükəsizlik Agentliyi son on ildə bütün kəşfiyyat xidmətinin ən genişmiqyaslı yenidənqurmasına başlayır. Bu barədə "The Washington Post" qəzeti planla tanış olan hazırkı və sabiq rəsmilərə istinadən xəbər verir.**




Bildirildiyinə görə, MTA-nın baş direktoru Coşua M. Ruddun təşəbbüsü ilə agentliyin Merilend ştatının Fort Mead şəhərindəki qərargahında süni intellekt, Çin, kibertəhlükəsizlik, döyüş dəstəyi və qlobal kəşfiyyata yönəlmiş beş yeni direktorluğun yaradılmasını nəzərdə tutur. Bu direktorluqların rəhbərləri NSA-nın direktor müavininin səlahiyyətlərinə malik olacaqlar. Bu, ötən həftə bütün yüksəkvəzifəli MTA rəhbərliyinə elan edilib.

Hazırkı və keçmiş işçilərin fikrincə, bu yeni təşkilati struktur, ABŞ hökumətinin rabitəsinin təhlükəsizliyi üzrə ixtisaslaşmış, ABŞ kəşfiyyat icmasının aparıcı agentliyi olan MTA-nın hazırkı və gələcək prioritetlərini daha yaxşı əks etdirəcək. Agentlikdə hazırda həm hərbi, həm də mülki işçilər olmaqla 30 mindən çox işçi çalışır və Mərkəzi Kəşfiyyat İdarəsindən daha böyük işçi heyətinə malikdir.

Nəşr qeyd edir ki, beş yeni direktorluğun MTA-nın hazırkı bölmələrini əvəz edib-etməyəcəyi və ya agentliyin mövcud strukturu ilə birlikdə fəaliyyət göstərib-göstərməyəcəyi hələ də məlum deyil. İşçilərin dediyinə görə, dünyada ən çətin əldə edilə bilən rəqəmsal hədəflərə hücum etmək vəzifəsi daşıyan, Tailored Access Operations (TAO) kimi tanınan Xüsusi Giriş Əməliyyatları elit bölmə Qlobal Kəşfiyyat Direktoruna hesabat verəcək. TAO MTA-nın ən gizli bölmələrindən biridir.

MTA-nın yenidən qurulması üçün vaxt azdır. Mənbələrə görə, yeni rəhbərlərdən ayın sonuna qədər təkliflərini Rudda təqdim etmələri tələb olunacaq. Onların tətbiqinə oktyabrın ortalarında başlamaq planlaşdırılır və 2027-ci ilin yanvar ayının ortalarında tam əməliyyat qabiliyyətinə çatması gözlənilir.

Bu arada ABŞ administrasiyası yenidən təşkilin bir hissəsi olaraq informasiya texnologiyalarına və hesablama gücünə investisiya üçün çoxmilyardlıq böyük büdcə artımı təklif edib. Nəşr qeyd edir ki, ABŞ Konqresi tərəfindən təsdiqlənmiş MTA-nın maliyyələşdirmə səviyyəsi ciddi şəkildə gizli saxlanılır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Güclü küləklərlə bağlı qabaqlayıcı tədbirlər görülür

**Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyi tərəfindən paytaxtın müxtəlif ərazilərində yaşıllıqlara mövsümi qulluq və qabaqlayıcı təhlükəsizlik tədbirləri çərçivəsində müvafiq işlər həyata keçirilir.**







Birliyin əməkdaşları şəhərin müxtəlif ərazilərində monitorinqlər həyata keçirmiş və qurumuş, zədələnmiş, eləcə də gözlənilən güclü küləkli hava şəraitində aşma və ya budaqlarının qırılması nəticəsində insanlar, nəqliyyat vasitələri və digər obyektlər üçün potensial təhlükə yarada bilən ağaclar mütəxəssislər tərəfindən müəyyən edilmişdir.

Aidiyyəti dövlət qurumunun müvafiq rəyi əsasında təhlükə yaradan qurumuş ağacların götürülməsi, həmçinin ağacların qurumuş, zədələnmiş və təhlükə yarada biləcək budaqlarının budanması həyata keçirilir.

Tədbirlərin əsas məqsədi güclü külək zamanı yarana biləcək mümkün fəsadların qarşısının alınması, vətəndaşların və nəqliyyat vasitələrinin təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda şəhərin yaşıllıq fondunun sağlam və dayanıqlı vəziyyətdə saxlanılmasıdır.

*"Azərbaycan"*

15 Sentyabr Beynəlxalq Demokratiya Günüdür

# Bu gün demokratiya təkcə seçki deyil, həm də insan hüquqlarının qorunması və söz azadlığı kimi dəyərləri ifadə edir

**2007-ci il noyabrın 8-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 15 sentyabrı Beynəlxalq Demokratiya Günü elan edib və üzv dövlətləri, BMT agentliklərini və digər regional, hökumətlərarası və qeyri-hökumət təşkilatlarını bu günü qeyd etməyə çağırıb. Beynəlxalq Demokratiya Günü dünya miqyasında demokratiyanın vəziyyətini müzakirə etmək üçün vacib bir fürsətdir. Demokratiya təkcə bir məqsəd deyil, həm də bir prosesdir və yalnız beynəlxalq birliyin, hökumətlərin, cəmiyyətin və fərdi vətəndaşların tam iştirakı və dəstəyi ilə dünyanın hər yerində hər bir insan üçün demokratiya idealları gerçəkləşə bilər.**




Bu tarix ilk dəfə 2008-ci ildə rəsmi olaraq qeyd edilməyə başlanıb.

Sentyabrın 15-nin seçilməsi, 1997-ci ilin həmin günündə Parlamentlərarası İttifaq (IPU) tərəfindən "Demokratiyaya dair Ümumdünya Bəyannaməsi"nin qəbul edilməsi ilə bağlıdır.

Günün əsas məqsədləri dünyada demokratiyanın mövcud vəziyyətini nəzərdən keçirmək; Demokratik prinsipləri, insan hüquqlarını və qanunun aliliyini təşviq etmək; Vətəndaş cəmiyyətinin gücləndirilməsi və insanların idarəetmədə iştirakını dəstəkləmək; Hər bir ölkənin öz demokratik sistemini inkişaf etdirmək hüququnu xatırlatmaqdır.

Hər il BMT bu gün üçün xüsusi bir mövzu, şüar müəyyən edir və diqqəti dünyadakı aktual çağırışlara yönəldir. 2026-cı ildə Beynəlxalq Demokratiya Gününün mövzusu rəsmi olaraq belə müəyyən edilmişdir: "Əlləri və səsləri ucaltmaq - məşvərətçi demokratiya vasitəsilə vasitəçiliyin və sahibkarlığın gücləndirilməsi". BMT bu mövzu ilə vətəndaşların qərar qəbul etmə proseslərinə daha dərindən və birbaşa cəlb olunmasını, dialoq və inklüzivlik vasitəsilə cəmiyyətdə etimadın yenidən qurulmasını hədəfləyir.

Eyni zamanda demokratiya sahəsində fəaliyyət göstərən digər qlobal təşkilatlar da bu il üçün öz xüsusi mövzularını elan etmişlər: Parlamentlərarası İttifaq (IPU) bu il fəaliyyətinin bir istiqamətinin diqqətini "İnsan hüquqlarını diqqət mərkəzinə gətirin" şüarına yönəldib. Beynəlxalq Demokratiya Günü Brüssel Konfransının (IDEA) builki müzakirə mövzusu isə "Demokratiya üçün növbəti addım nədir? Dəyişən Dünyada İnnovasiya və Alyanslar" tezisidir.

Demokratiya ilk dəfə eramızdan əvvəl VI əsrin sonlarında Qədim Yunanıstanda, xüsusilə Afina şəhər-dövlətində (polisində) yaranıb. "Demokratiya" sözü yunan mənşəlidir: "demos" (xalq) və "kratos" (hakimiyyət) sözlərinin birləşməsindən yaranıb, "xalqın hakimiyyəti" mənasını verir. Afinada demokratiyanın formalaşması e.ə. 508-507-ci illərdə dövlət xadimi Klisfenin həyata keçirdiyi islahatlarla bağlıdır. Belə ki, vətəndaşlar qanunları qəbul etmək üçün Ekklesiya adlanan xalq məclisində birbaşa iştirak edirdilər. Onlar deputat, yəni təmsilçi seçmirdilər, hər kəs özü səs verirdi. Bu sistem tam bərabərhüquqlu deyildi. Yalnız yetkinlik yaşına çatmış, azad afinalı kişilər vətəndaş sayılırdı. Qadınlar, qullar və əcnəbilər səsvermə hüququndan məhrum idilər.

Afinadan sonra Qədim Roma e.ə. 509-cu ildə respublika sisteminə keçib. Roma birbaşa demokratiya deyil, təmsilli idarəetmə və hüququn aliliyinə əsaslanırdı. Senat və xalq məclisləri arasında güc balansı yaradılıb. Bu model müasir konstitusiyalı respublikaların əsasını qoydu.

Demokratiya tarixində növbəti böyük sıçrayış 1215-ci ildə İngiltərədə baş verib. Kral İohann feodalların təzyiqi ilə Böyük Azadlıqlar Xartiyasını (Magna Carta) imzalayıb. Bu sənədlə tarixdə ilk dəfə kralın mütləq hakimiyyəti məhdudlaşdırılıb və qanunun kraldan üstün olduğu bəyan edilib.

XVII-XVIII əsrlərdə Maarifçilik dövrünün filosofları Con Lokk, Monteskyö, Russo insanın təbii hüquqları və hakimiyyətin bölgüsü (qanunverici, icraedici, məhkəmə) ideyasını irəli sürüblər. Bu ideyalar müasir demokratiyanı formalaşdıran iki böyük tarixi hadisəyə yol açıb: ABŞ İstiqlaliyyət Bəyannaməsi (1776) dünyada ilk dəfə olaraq insanların bərabər doğulduğunu və idarə edənlərin gücünü idarə olunanlardan aldığını elan edib;

Fransız Burjuaziya İnqilabı (1789) "Azadlıq, Bərabərlik, Qardaşlıq" şüarı ilə feodalizmi devirdi və insan hüquqları bəyannaməsini qəbul etdi.

Qədim Afinadan fərqli olaraq, müasir demokratiya yalnız XX əsrdə qadınların və irqi azlıqların səsvermə hüququ qazanması ilə tam inklüziv xarakter alıb. Bu gün demokratiya təkcə seçki deyil, həm də insan hüquqlarının qorunması və söz azadlığı kimi dəyərləri ifadə edir.

Hər il nüfuzlu "The Economist" jurnalının araşdırma mərkəzi olan Economist Intelligence Unit (EIU) tərəfindən hazırlanan qlobal "Demokratiya indeksi" hesabatına əsasən, dünya ölkələri seçki prosesi, vətəndaş azadlıqları, hökumətin fəaliyyəti, siyasi iştirakçılıq və siyasi mədəniyyət meyarlarına görə qiymətləndirilir. Ən son qlobal hesabatlara əsasən, dünyanın ən güclü demokratiyasına sahib ilk 10 ölkəsi Norveç, Yeni Zelandiya, İsveç, İslandiya, Danimarka, Finlandiya, İrlandiya, İsveçrə, Kanada, habelə bərabər indeksi olan Niderland və Tayvandır.

*R.CƏFƏROV,*
*"Azərbaycan"*

# Plastik "dalğalar": sağlamlığı udan təhlükə

## Su hövzələrinin eşidilməyən fəryadı

**Bir vaxtlar insan həyatını asanlaşdırmaq üçün plastik ixtira edilmişdi. Yüngül, ucuz və praktik olduğu üçün qısa müddətdə dünyanın hər yerinə yayıldı. Amma bu rahatlığın görünməyən tərəfi illər keçdikcə daha aydın üzə çıxmağa başladı: plastik yox olmur, sadəcə, parçalanır və təbiətin içində qalır. Bu gün okeanlar, dənizlər və çaylar bu problemin ən ağır yükünü daşıyan yerlərdən biridir.**



Hər il dünyada təxminən 400 milyon ton plastik istehsal olunur və bunun böyük hissəsi yalnız bir dəfə istifadə edilib atılır. Araşdırmalara görə, hər il 8-11 milyon ton plastik tullantı okeanlara düşür. Bu, demək olar ki, hər dəqiqə bir zibil maşını dolusu plastik tullantının dənizə tökülməsi deməkdir. Əgər bu temp dəyişməzsə, 2050-ci ilə qədər okeanlarda balıqdan daha çox plastik olacağı ilə bağlı ciddi proqnozlar verilir.

Okeanlara düşən plastik, sadəcə, sahildə görünən butulka və paketlərdən ibarət deyil. Zamanla günəş və dalğaların təsiri ilə bu tullantılar mikroplastiklərə parçalanır. Ölçüsü 5 millimetrdən kiçik olan bu hissəciklər artıq suyun hər qatında, hətta ən dərin nöqtələrdə belə aşkarlanıb. Tədqiqatlar göstərir ki, mikroplastiklər dəniz canlılarının bədəninə daxil olur və qida zənciri vasitəsilə insanlara qədər gəlib çatır. Bu isə artıq həm də ciddi sağlamlıq məsələsidir.

Dəniz canlıları plastik çirklənmədən birbaşa zərər görür. Tısbağalar plastik paketləri meduza zənn edib udur, balinaların mədəsindən onlarla kilo plastik çıxarılır, quşlar isə qidalanma zamanı plastik hissəcikləri balalarına daşıyır. Bu vəziyyət onların aclıqdan ölməsinə və ya daxili orqanlarının zədələnməsinə səbəb olur. Bəzi məlumatlara görə, hər il yüz minlərlə dəniz məməlisi və milyonlarla quş plastik səbəbindən həyatını itirir. Yem axtaran quşları, balıqları plastikdən ifraz olunan maddənin iyi özünə çəkir və onların məhvinə səbəb olur.

Plastik çirklənmənin iqtisadi təsirləri də az deyil. Balıqçılıq sektoru zərər görür, turizm bölgələrində çirkli sahillər turistləri uzaqlaşdırır, dövlətlər isə təmizləmə işlərinə milyonlarla vəsait xərcləməli olur. Bu problem artıq yalnız ekoloqların deyil, iqtisadçıların və siyasətçilərin də gündəmindədir.

Ən narahatedici məqam isə odur ki, bu proses hələ də davam edir. Plastik istehsalı azalmaq əvəzinə bir çox ölkədə artır. Xüsusilə birdəfəlik istifadə olunan məhsullar gündəlik həyatın ayrılmaz hissəsinə çevrilib. Halbuki alternativlər mövcuddur: təkrar istifadə olunan materiallar, bioloji parçalanan qablaşdırmalar və daha məsuliyyətli istehlak vərdişləri.

Plastik çirklənmə artıq yalnız okean səthi ilə məhdudlaşmır. Son araşdırmalar göstərir ki, mikroplastik hissəciklər yağış sularında, torpaqda və hətta havada belə mövcuddur. Bu o deməkdir ki, insan bu problemi təkcə dəniz məhsulları vasitəsilə deyil, gündəlik nəfəs aldığı hava ilə də qəbul edir. Bəzi elmi nəticələrə görə, insanın həftə ərzində qəbul etdiyi mikroplastik miqdarı təxminən bir plastik kartın çəkisinə bərabər ola bilər. Bu fakt problemin miqyasını daha aydın göstərir.

Digər tərəfdən, inkişaf etməkdə olan ölkələrdə tullantıların düzgün idarə olunmaması vəziyyəti daha da ağırlaşdırır. Çaylar vasitəsilə okeanlara daşınan plastik tullantıların böyük hissəsi məhz bu regionlardan qaynaqlanır. İnfrastrukturun zəifliyi, maarifləndirmənin azlığı və ucuz plastik məhsullara yüksək tələbat bu prosesi sürətləndirir. Bu isə göstərir ki, problem yalnız fərdi deyil, həm də sistemli yanaşma tələb edir.

Bununla yanaşı, son illərdə bəzi müsbət addımlar da atılır. Bir çox ölkələr plastik paketlərin istifadəsini məhdudlaşdırır, böyük şirkətlər daha ekoloji qablaşdırmaya keçməyə çalışır, beynəlxalq təşkilatlar isə su hövzələrinin qorunması üçün proqramlar həyata keçirir. Amma bu addımlar hələ ki problemi aradan qaldırmağa kifayət etmir. Çünki istehlak vərdişləri dəyişmədikcə, istehsal da dəyişmir.

Əslində, bu məsələ hər bir insanın gündəlik seçimləri ilə birbaşa bağlıdır. Sadə görünən qərarlar - plastik butulka əvəzinə şüşə istifadə etmək, alış-verişdə torba götürmək, tullantıları çeşidləmək - uzunmüddətli perspektivdə böyük təsir yaradır. Bu, fərdi məsuliyyətlə qlobal problemin necə əlaqəli olduğunu göstərən ən aydın nümunələrdən biridir.

Gələcəyimiz insanın bugünkü seçimlərindən birbaşa asılıdır. Əgər hazırkı vəziyyət davam edərsə, gələcək nəsillər təmiz və canlı su hövzələrini yalnız kitablarda görə bilərlər. Amma istiqaməti dəyişmək hələ də mümkündür. Daha az plastik istifadə etmək, tullantıları düzgün idarə etmək və bu mövzuda maariflənmək kiçik addımlar kimi görünə bilər, amma milyonlarla insan eyni addımı atdıqda böyük dəyişiklik yaradar.

Okeanlara, dənizlərə yalnız su hövzəsi kimi yox, planetin həyat mənbəyi kimi baxmaq lazımdır. Onlar iqlimi tənzimləyir, oksigen istehsal edir və milyardlarla insanın dolanışığını təmin edir. Plastik çirklənmə isə bu tarazlığı pozur. Buna görə də təbiəti qorumaqla, əslində, öz gələcəyimizi də qorumuş oluruq.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3321
Sifariş 1202

Qiyməti 60 qəpik